# AZƏRBAYCAN DİLİ

TƏDRİS DİLİ




METODİK VƏSAİT

9

SEVİL CAVADOVA

*Ümumtəhsil məktəblərinin 9–cu sinfi üçün*

# AZƏRBAYCAN DİLİ

*(tədris dili) fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


Giriş ... 3
Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Azərbaycan dili fənni üzrə məzmun standartları ... 6
Təlimin təşkilinin forma və üsulları barədə tövsiyələr ... 8
Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr ... 15
İllik planlaşdırma nümunəsi ... 16
Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr ... 24
Şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması ... 26
Dərslikdə verilmiş müxtəlif janrlardan olan əsərlərin oxusu ilə bağlı tövsiyələr ... 28
Nitqin inkişaf etdirilməsi üçün oxu modelləri ... 30
Dərslikdə verilmiş müxtəlif çalışma və yazı işləri ilə bağlı tövsiyələr ... 34
İnşa yazıları ilə bağlı tövsiyələr ... 36
İnteqrativlik prinsipinin nəzərə alınması ... 39
Məzmun standartlarının reallaşması cədvəli ... 40
Qiymətləndirmədən düzgün istifadə ilə bağlı tövsiyələr ... 43
Şifahi cavabların qiymətləndirilməsi ... 46
Cari planlaşdırmaya nümunələr ... 48
KSQ №1 ... 78
KSQ №2 ... 110
KSQ №3 ... 148
KSQ №4 ... 178
Ümumiləşdirici təkrarlara nümunələr ... 182
Azərbaycan dilinin orfoqrafiya normaları ... 190
İstifadə olunmuş ədəbiyyat ... 198

# GİRİŞ

Hörmətli müəllimlər!

Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Azərbaycan dili dərslik komplekti dərslik və metodik vəsait şəklində, fənnin tədrisi həftədə 2 saat olmaqla 34 həftəyə planlaşdırılmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsil-alanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası"nın 4-cü bəndinin (Summativ Qiymətləndirmə) 4.5-ci maddəsinə əsasən KSQ bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla həyata keçirilir.

Azərbaycan dilində illik planlaşdırmada bölmələrdə yazı işi (inşa, hekayə) nəzərdə tutulmuşdur. KSQ-nin yazı işləri ilə keçirilməsi də məqsədəmüvafiqdir. Müəllim sinfin səviyyəsini nəzərə alaraq ifadə yazıdan da istifadə edə bilər.

Hər yarımilin sonunda Böyük Summativ Qiymətləndirmənin (BSQ) keçirilməsi nəzərdə tutulmuşdur.

Dərslik dörd bölmədən ibarətdir:

I bölmə – "Dil, təhsil və cəmiyyət";

II bölmə – "Müvəffəqiyyət və cəmiyyət";

III bölmə – "Mənəviyyat və cəmiyyət";

IV bölmə – "Mədəni irs və cəmiyyət" adlanır.

Hər dörd bölmədə mövzular standartlar üzrə qruplaşdırılmışdır. Dörd məzmun xəttinin tələbləri gözlənmiş, standartdan çıxan təlim nəticələrinin reallaşdırılması diqqət mərkəzində saxlanmışdır. Dərslikdə şagirdlərin şifahi və yazılı nitqinin formalaşması, dünyagörüşünün zənginləşdirilməsi məqsədilə verilmiş mətnlər məzmun baxımından uyğunlaşdırılmış, ahəngdarlıq gözlənmişdir. Tədris vahidləri və mövzular arasındakı məntiqi, xronoloji və sadədən mürəkkəbə ardıcıllığı əsas prinsip seçilmişdir.

Seçilmiş mətnlər nitq bacarığını: dinləmə, oxu, danışma və yazını inkişaf etdirməyə birbaşa xidmət edir. Tapşırıqlar mətnlərə uyğun hazırlanmış, bu tapşırıqlar vasitəsilə dilin lüğət tərkibinin, sözlərin məna çalarlığının, dil qaydalarının mənimsədilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan, mətnlərin üslubi imkanları nəzərə alınmış, müxtəlif üslublarda olmasına diqqət yetirilmişdir.

Dərslikdə tədris vahidlərinin adlarına uyğun müxtəlif mövzularda mətnlər seçilmiş, mətnlər üzərində 4 məzmun xəttinin: "Dinləyib-anlama və danışma", "Oxu",

“Yazı”, “Dil qaydaları” tələblərini reallaşdırmaq üçün tapşırıqlar qoyulmuşdur. Bütün tapşırıqlar prosedural və kontekstual xarakter daşıyır. Şagirdlərə müstəqil çalışmaq üçün istiqamət verir, layihələrə cəlb edilmələrinə, sərbəst şəkildə işləmələrinə şərait yaradır. Müstəqil təqdimatlar, sərbəst mövzuda mətnqurmalar, yaradıcı layihələr seçilərək şagird təfəkkürünün formalaşması üçün zəmin yaradır.

Dərslikdə məntiqi təfəkkürün inkişafı üçün *təsvir et, müqayisə et, oxşarlıqları və fərqləri tap, təsnif et, dəyişdir, müəyyən et, əlaqəni aşkar et, sxem, qrafik və cədvəl düzəlt, tərtib et, davam et, təhlil et, izah et, şərh et, nəticə çıxar, səbəbi tap* kimi tapşırıqlar nəzərdə tutulub.

Tənqidi təfəkkürün inkişafı üçün *müxtəlif baxış nöqtələrindən qiymətləndir, əhəmiyyətini, rolunu qiymətləndir, səhvləri tap, mübahisəli məqamları aşkar et, tənqidi yanaş, düzgün olanı seç, öz ideyanı əsaslandır, sübut et* tapşırıqları nəzərdə tutulmuşdur.

Yaradıcı təfəkkürün inkişafı üçün *mətn qur, tətbiq et, problemi müəyyən et, fərziyyələr irəli sür, dəyişikliklər et, yarat, yenidən tərtib et, proqnoz ver, müqayisə et və analoqu tap, yarat, tərtib et* tapşırıqları seçilmişdir.

Şagirdlərə debatlar aparmaq, müzakirələrdə iştirak etmək, mühakimələr irəli sürmək, fikirlərini sərbəst ifadə etmək üçün tapşırıq nümunələri təklif olunmuşdur. Bütün mətn, qrammatik qayda və tapşırıqlar fənnin məqsədinə, standartların tələblərinə yönəlmişdir.

İnklüzivliyi təmin etmək üçün verilən tapşırıqlarda müxtəlif çətinlik səviyyələri nəzərdə tutulmuşdur. Peşəkar müəllim diferensiallığı qoruyaraq tapşırıqları səviyyələrə uyğun qruplaşdırmaqda çətinlik çəkməyəcək. Dərslikdə xüsusi istedadlı şagirdlərin potensiallarını düzgün istiqamətə yönəltmək üçün xüsusi yanaşmalar müəyyən edilmişdir. Belə şagirdlərin istedadından nitq, sosial, psixomotor bacarıqların formalaşması üçün istifadə etmək tövsiyə edilir. Bu şagirdlər daha çox fikirlərini izah etmək məqsədilə “Nə üçün?”, “Nə səbəbə?” kimi suallara cavab verməyi xoşlayırlar. Dərslikdə verilmiş məsələlərin oxşarını qurmaq, bu tapşırıqların özləri tərəfindən çətinləşdirilməsini onlara həvalə etmək, onların informasiya texnologiyalarından daha geniş və düzgün istifadə etmələrini reallaşdırmaq üçün müəllim şagirdlərə istiqamət verə bilər.

Dərslikdə verilmiş “Ətrafsız həyat” mətni şagirdlərdə fiziki qüsurlu insanlara qarşı diqqət formalaşdırmağa, həmin insanlar üçün incəsənətin, təhsilin, idmanın müyəssərliyinin artırılmasına xidmət edir. Bu mətn nikbin sonluqla bitir. Bu isə uşaqlarda gələcəyə inamı artırır, həyatda əzmlə hər şeyin mümkünlüyünü göstərir.

Mətnlər seçilərkən irqi, dini ayrı-seçkiliyin yolverilməzliyi önəmli hesab olunub. "Xoşbəxtliyin 9 yolu", "Dünyanı dağıdan adam" mətnləri müxtəlif millətlərin nümayəndələri haqqındadır.

"Ana qucağı", "Sizi təbrik edirəm, qızlar!" mətnlərində qadına, anaya hörmət, təhsilə, maarifə, savadlanmağa çağırış, uşağın tərbiyə almasında ailə və məktəbin birgə rolu kimi məsələlər ön plana çəkilmiş, "Bakı tarixinin ilk tədqiqatçısı" mətnində Sara Aşurbəylinin ölkəmiz üçün əvəzsiz xidmətləri sadalanmışdır. Gender bərabərliyinə həssas yanaşmanı təmin etmək üçün mətndəki və şəkillərdəki obrazlar arasında oğlan və qızların bərabər verilməsinə diqqət yetirilmişdir.

Xalqımızın milli-mənəvi dəyərlərini xüsusi diqqət mərkəzində saxlamaq və onlara həssas yanaşmaq məqsədilə dərslikdə xüsusi tədris vahidləri nəzərdə tutulmuşdur. "İçərişəhər məhv edilməkdən necə xilas oldu?", "Azərbaycanlıların qədim yaşayış məskəni", "Amalım millətimi səadətə qovuşdurmaqdır" mövzuları bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu mövzuları öyrənərkən şagirdlər milli-mənəvi dəyərlərimizin daşıyıcısı olan insanları və məkanları tanıyır, soy-kökümüzə daha yaxından bələd olurlar.

Milli qürur tariximizin şanlı səhifələrinə həsr olunan "Bir şahidin beş şəhidi" mövzusu vətənpərvərlik hissinin aşılanması, diqqəti Qarabağda baş verən hadisələrə çəkmək, bir daha belə hadisələrin baş verməməsi üçün şagirdlərin xalqımızın tarixini, mədəniyyətini, adət-ənənələrini, ölkəmizin vətəndaşlarına məxsus müsbət insani keyfiyyətlərini dərindən öyrənmək baxımından əvəzsiz mətndir.

Mətnlər şagirdləri əlavə vəsaitlərdən istifadəyə yönləndirir. Kompüter texnologiyalarından istifadə etməklə təqdimatların hazırlanması buna misaldır. Müəllim "Ağıllı lövhə"dən istifadə etməklə dərsi daha da maraqlı edə bilər. "Mimio XI", "SMART", "PROMETAN" qurğularından istifadə edilməklə dərsin interaktivləşdirilməsi tövsiyə olunur. Təqdimatların hazırlanması ilə bağlı qaydalar (səh. 14) vəsaitdə geniş şərh olunub.

8-ci sinif Azərbaycan dili dərsliyində şagirdlərə kompleks lüğətin tərtib edilməsi ilə bağlı layihə təqdim olunmuş, dərslikdə həmin lüğətə nümunə verilmişdir.

Bu il şagirdlərə izahlı lüğətin tərtib edilməsi layihəsi təqdim olunur və dərsliyin 7-ci səhifəsində bununla bağlı tapşırıq verilir.

Müəllim bu layihə ilə bağlı şagirdləri ilk dərslərdən məlumatlandırmalı, lüğətin hazırlanması qaydası haqqında istiqamət verməlidir. Layihənin icrası üçün işçi qruplar yaradıla bilər. Layihənin icrası üçün şagirdlər hər bir mətnin tədrisi zamanı 10-12 söz seçir, sözlərin ifadə etdiyi leksik mənaları, mənsub olduğu nitq hissəsini müəyyənləşdirirlər. Hazır layihə (layihənin hazırlanması qaydası 12-ci səhifədə verilmişdir) tədris ilinin sonunda təqdim olunur.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN 9-cu SİNFİ ÜÇÜN AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

## 9-cu SİNİF

**9-cu sinfin sonunda şagird:**

- dinlədiyi fikirlərə münasibət bildirir və onları ümumiləşdirilmiş şəkildə təqdim edir;
- tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir;
- mətni müvafiq intonasiya ilə oxuyur;
- irəli sürülmüş əsas fikirləri dəyərləndirir;
- müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) yazılar yazır, təkmilləşdirir;
- müxtəlif əməli yazılar (hesabat, akt) yazır;
- sözləri müxtəlif sintaktik vəzifələrdə işlədir, mürəkkəb cümlənin növlərini müəyyənləşdirir;
- mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir;
- orfoqrafiya və düzgün yazı qaydalarına əməl edir.

## Məzmun xətləri üzrə əsas və alt standartlar

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

**1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.**

1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir.

1.1.2. Dinlədiyi fikirlərə münasibət bildirir.

**1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.**

1.2.1. Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur.

1.2.2. Müxtəlif tipli rabitəli nitq nümunələri qurur.

1.2.3. Nitq prosesində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır.

1.2.4. Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir.

**2. Oxu**

**Şagird:**

**2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.**

2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.

2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir.

**2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.**

2.2.1. Mətni düzgün intonasiya ilə oxuyur.

2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.

2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

**3. Yazı**

**Şagird:**

**3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.**

3.1.1. Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır.

3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.

3.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

**4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.**

4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.

4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.

4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

4.1.4. Dialoqlarda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir.

# TƏLİMİN TƏŞKİLİNİN FORMA VƏ ÜSULLARI BARƏDƏ TÖVSİYƏLƏR

Şagirdin öyrənməyə və həyati bacarıqlara yiyələnməyə marağını şərtləndirən fəal təlim prosesində aşağıdakı mərhələlər mühüm didaktik əhəmiyyət daşıyır.

- Düşünməyə yönəltmə mərhələsi;
- Dərketmə mərhələsi;
- Düşünmə mərhələsi.

Düşünməyə yönəltmə mərhələsində şagirdlər öyrəndikləri bilikləri təhlil etməyə və araşdıracaqları mövzu ətrafında düşünməyə sövq edilir. Şagird ilk olaraq mövzu ilə əlaqədar biliklərinin səviyyəsini müəyyənləşdirir və bəzi hallarda bunlara yeni əlavələr edir.

Dərketmə mərhələsində şagirdlər yeni informasiya və ideyalarla təmasda olurlar. Əsas məsələ ondan ibarətdir ki, əvvəlki mərhələdə yaranmış fəallıq və maraq inkişaf etdirilir, şagirdlər yeni anlayışları müəyyən edib mənimsəmək üçün keçmiş və yeni biliklər arasında əlaqə yaradırlar.

Düşünmə mərhələsində şagirdlər yeni qazandıqları bilikləri möhkəmləndirməklə yanaşı, bir neçə mühüm məqsədə nail olmaq istiqamətində də fəaliyyət göstərirlər. Birincisi, onlar yeni ideya və informasiyaları öz sözləri ilə ifadə etməyə çalışırlar. İkincisi, şagirdlər arasında canlı fikir mübadiləsi yaranır, onlar öz ekspressiv (təsirli) söz ehtiyatlarını genişləndirməyə, həmçinin digər şagirdlərin təsəvvürləri ilə tanış olmağa imkan tapırlar.

Azərbaycan dili təlimində şagirdlərin fəallığını, dərslərin maraqlı və məzmunlu olmasını qeyri-standart dərs formalarından (dərs-müzakirə, dərs-ekskursiya, dərs-oyun, dərs-seminar, dərs-səyahət, dərs-iclas və s.) istifadə yolu ilə də təmin etmək mümkün olur. Bu dərslərdə müəllim və şagirdlərin fəaliyyəti qoyulmuş problemlərin həllinə yönəlir, sinifdə canlı və münbit təlim şəraiti yaranır. Belə dərslər, əsasən, motivasiya, problemin həlli, təqdimetmə və qiymətləndirmə mərhələlərindən ibarət olur.

Azərbaycan dili dərsləri bütün təlim formalarından istifadə etməklə keçirilə bilər. Dərslikdə kollektiv, qrup, cütlərlə, fərdi iş formalarından geniş istifadə olunmuşdur. Təlim formaları seçilərkən üsullarla vəhdət təşkil etməsi gözlənilmiş, uzlaşmaya diqqət yetirilmişdir. Seçilmiş təlim formalarının istifadəsi zamanı aşağıdakı bacarıqların formalaşması nəzərdə tutulmuşdur:

- Şagirdlərin vəzifələrini düzgün müəyyənləşdirmələrini təmin etmək;

• Birgə fəaliyyəti təmin etmək;
• Bir-birinin fikrinə hörmətlə yanaşılmasına nail olmaq;
• Müstəqil fikirlər söylənməsi üçün imkan yaratmaq;
• Mübahisəyə yol vermədən, sağlam rəqabət aparmaq;
• Problemin həllində kompromis yollar axtarmaq.

Azərbaycan dilinin təlimi prosesində müxtəlif üsullardan istifadə etmək mümkündür. Dərslikdə aşağıdakı interaktiv üsulların istifadə olunması faydalı bilinib:

• Klaster
• Venn diaqramı
• İNSERT
• Rollu oyunlar
• Müzakirə
• BİBÖ
• Beyin həmləsi
• Söz assosiasiyası
• Sorğu
• Layihə
• İnteraktiv mühazirə
• Auksion
• Debat
• Təqdimat

## KLASTER

Klaster şagirdləri mövzu ilə bağlı sərbəst düşünməyə, axtarış aparmağa sövq edir. Bu üsul şagirdlərin idraki fəallığına imkan yaradır. Klaster üsulundan istifadə etməklə dərslikdə, əsasən, nəticəçıxarma mərhələləri yekunlaşdırılır.

## VENN DİAQRAMI

Venn diaqramı kəsişən iki və ya daha artıq çevrə üzərində qurulur. Çevrələrin üst-üstə düşdüyü hissədə yazmaq üçün kifayət qədər yer olur. Həmin yerdə ümumi cəhətlər qeyd edilir. Kənar hissələrdə isə fərqli cəhətlər yazılır. Məsələn, şagirdlər "Vasitəli və vasitəsiz nitq" mövzusunu müqayisəli şəkildə yekunlaşdıra bilərlər.

## İNSERT

İNSERT üsulundan dərsin dərketmə mərhələsində istifadə olunur. Oxu zamanı şagirdin öz qavrayışını yoxlamasına imkan yaradır. Bu üsuldan istifadə iki mərhələdə həyata keçirilir. Birinci, üzərində əməliyyat aparılacaq mətn, istifadə olunacaq zəruri işarələr (bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən olunur. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər.

Şagirdlərə aşağıdakı təlimat verilir:

Məsələn,

- ✓ – Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama işarəsi (✓) qoyun.
- – – Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi inkar edirsə, yaxud ona ziddirsə, mənfi (–) işarəsi qoyun.
- + – Müsbət (+) işarəsi o zaman qoyulur ki, rast gəldiyiniz məlumat sizin üçün yeni olsun.

## ROLLU OYUNLAR

Rollu oyunlar şagirdlərə özləri və ətrafdakılar haqqında şifahi məlumat əldə etməyə, danışıq səslərinin, sözlərin düzgün tələffüzünə imkan verir. İfadəli nitq bacarıqlarının formalaşmasına və inkişafına təsir göstərir. Dialoq qurmaq tapşırıqları bura aid edilə bilər.

## MÜZAKİRƏ

Müzakirə konkret problem üzrə fikirlərin mübadiləsi deməkdir. Bu metodun köməyi ilə şagirdlər Azərbaycan dili üzrə yeni biliklərə yiyələnir, öz mövqelərini müdafiə edirlər. Təlim diskussiyasının başlıca funksiyası şagirdlərin idraki marağını stimullaşdırmaqdır. O həm də təhsilverici, inkişafetdirici, tərbiyəedici və nəzarətedici-təshihedici kimi köməkçi funksiyaları da yerinə yetirir.

## BİBÖ

BİBÖ-də müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: Bilirəm/İstəyirəm bilim/Öyrəndim. Şagirdlər problemlə bağlı bildiklərini söyləyirlər və cavablar birinci sütunda qeyd olunur. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və şagirdlərin mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |
| | | |

## BEYİN HƏMLƏSİ

Beyin həmləsi üsulu əqli hücum da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

## SÖZ ASSOSİASİYASI

Söz assosiasiyasından istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin sözlə bağlı ilk xatırladıqları fikirləri söyləyirlər və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanılır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

## SORĞU

Sorğu üsulu araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır. Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldururlar.

## LAYİHƏ

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemləri müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem konkret olmalıdır. Müəllim şagirdlərlə birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyənləşdirir. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

## İNTERAKTİV MÜHAZİRƏ

İnteraktiv mühazirə məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır. Mühazirənin məqsəd və vəzifələri dəqiq olmalı, əyani və texniki vasitələrdən istifadə edilməli, mühazirə prosesi verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini görmək) tənzimlənməlidir.

## AUKSİON

Auksionda öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə deyilir. Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır: "Bir, iki"... Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir.

## DEBAT

Debat fransız sözü (*debats*) olub "müəyyən məsələ, problem üzrə fikir mübadiləsi" mənasında işlənir.

Debat zamanı mübahisə edən, müzakirə aparan tərəflər bir-birlərini deyil, üçüncü tərəfi (dinləyicini, tamaşaçını) inandırmağa, ona təsir göstərməyə çalışırlar. Debat zamanı çıxış edən hər iki tərəfin qarşısında duran başlıca vəzifə öz mövqeyini əsaslandırmaq, haqlı olduğunu sübut etməkdir.

Bu zaman üçüncü tərəf – dinləyici onu daha çox inandıran tərəfin mövqeyini qəbul edir, öz seçimində ona üstünlük verir. Debat üçün seçilən mövzu aktual və maraqlı olmalı, çıxışçılar dəlillərlə danışmalı və müxtəlif səciyyəli suallardan istifadə edərək özlərinin hakimlik məharətlərini göstərməlidirlər.

# TƏQDİMAT

Təqdimat şagird fəaliyyətinin mühüm mərhələsi olub, nəzəri və təcrübi biliklərin vəhdətidir. Vəsaitdə müxtəlif mövzuları əhatə edən təqdimat tapşırıqları vardır. Müəllim bu təqdimatları qiymətləndirmək üçün aşağıdakı cədvəldən istifadə edə bilər.

| Təqdimatın meyarları: | Ballar |
|---|---|
| **1. Təşkilati məsələlər:** | **Bal** |
| 1.1. Vəzifə bölgüsü (təqdimatın cüt və ya qruplar vasitəsilə hazırlanması) | 2 bal |
| 1.2. Təqdimatın təqdimi zamanı texniki avadanlıqlardan sərbəst istifadə | 4 bal |
| 1.3. Tərtibat (şrift, fon, slaydların ardıcıllığı və s.) | 4 bal |
| **2. Təqdimatın məzmunu:** | |
| 2.1. Mövzunun aktuallığı | 5 bal |
| 2.2. Təqdimatın məqsədəuyğun hazırlanması | 5 bal |
| 2.3. Təqdimatın aydınlığı | 5 bal |
| 2.4. Təqdimatın lakonikliyi (lazımi materialların təqdimatda öz əksini tapması) | 5 bal |
| 2.5. Təqdimatın inandırıcılığı | 5 bal |
| 2.6. Təqdimatın strukturu (giriş, əsas hissə, nəticə) | 5 bal |
| 2.7. Mövzunu təsdiqləyən vizual materialların mövcudluğu | 5 bal |
| 2.8. Effektiv başlama və sonlandırma | 5 bal |
| **3. Təqdimatçının nitqi:** | 5 bal |
| 3.1. Auditoriya ilə qarşılıqlı əlaqə | 5 bal |
| 3.2. Səsin gücü, tembral çaları | 5 bal |
| 3.3. İntonasiya (vurğu, məntiqi vurğu, fasilə, heca və söz vurğusu) | 5 bal |
| 3.4. Nitqin bədiiliyi (düzgünlük, dəqiqlik) | 5 bal |
| 3.5. Öz emosional vəziyyətinə yiyələnmək və onu idarə etməyi bacarmaq | 5 bal |
| 3.6. Jest və mimikalardan istifadə | 5 bal |
| **4. Dil-üslub xüsusiyyətləri:** | 5 bal |
| 4.1. Üslubi xüsusiyyətlərin nəzərə alınması | 5 bal |
| 4.2. Orfoqrafiya qaydalarına riayət edilməsi | 5 bal |
| 4.3. Durğu işarələrindən düzgün istifadə | 5 bal |
| 4.4. Sözlərin məna çalarlarından düzgün istifadə | 5 bal |
| **Cəmi:** | |

# MÜƏLLİMİN TƏLİM FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASINA DAİR NÜMUNƏLƏR

Dərslikdə müəllimin həm gündəlik, həm də illik planlaşdırmasını aparmaq üçün kifayət qədər material və resurs verilmişdir. Planlaşdırma müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi, eyni zamanda hər fəslə ayrılacaq vaxt göstərilir. Müəllimlərin perspektiv plan nümunəsinin tutulma qaydaları ilə yaxından tanış olmaları üçün fənnin planlaşdırılma ardıcıllığı da vəsaitə daxil edilmişdir. Bu ardıcıllıq aşağıdakı kimidir:

1. Tədris vahidlərini dəqiqləşdirmək, ardıcıllıq prinsiplərini müəyyənləşdirmək. Məzmunun ardıcıllığı (asandan çətinə doğru), xronoloji ardıcıllıq (zaman ardıcıllığı), məntiqi ardıcıllıq (əvvəlcə o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır) nəzərdə tutulur.

2. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq. (Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı nəzərə alınır. Hər tədris vahidinə onun əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt ayrılır.)

3. İnteqrasiya imkanları, əlavə resurslar seçmək.

İllik planlaşdırma apararkən müəllim mütləq məzmun standartlarına, qiymətləndirmə standartlarına, tədris planına, dərsliyə (istifadə olunacaq mətnlər və digər materiallar), müəllim üçün vəsaitə istinad etməlidir. Dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adları müəyyən edilməlidir.

# İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ

**I BÖLMƏ**

| Mövzular | Standartlar | İnteqrasiya | Resurslar | Saat | Tarix |
|---|---|---|---|---|---|
| 1. Ana qucağı (I saat) | 1.1.2., 1.2.4., 2.2.1., 3.1.2. | Ədəbiyyat – 2.1.2.; Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri, İsmayıl Həqqi, Bəxtiyar Vahabzadənin seçilmiş əsərləri | 1 | |
| 2. Ana qucağı (II saat) | 2.1.2., 3.1.3., 4.1.2. | Xarici dil – 3.1.1.; Həyat bilgisi – 2.2.2.; İnformatika – 3.3.3. | Lüğət, iş vərəqləri, sxemlər | 1 | |
| 3. Mətn (I saat) | 1.1.2., 1.2.4., 2.2.3. | Coğrafiya – 3.2.2.; Ədəbiyyat – 1.1.2. | Xəritə, Məhəmmədhüseyn Şəhriyarın seçilmiş əsərləri, iş vərəqləri, sxemlər | 1 | |
| 4. Mətn (II saat) | 2.1.1., 2.1.2. | Azərbaycan tarixi – 1.3.1.; Ədəbiyyat – 2.2.1.; Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri, sxemlər | 1 | |
| 5. Mətn (III saat) | 1.1.1., 1.2.1., 3.1.3. | Həyat bilgisi – 2.2.1.; Ədəbiyyat – 2.2.1.; Azərbaycan tarixi – 1.3.1. | Xəritə, Beynəlxalq hüquq normaları, dillə bağlı qanunlarımız, iş vərəqləri | 1 | |
| 6. Üçüncü il (I saat) | 1.1.1., 1.1.2., 1.2.4., 2.2.1. | Azərbaycan tarixi – 3.1.1., 3.1.2.; Ədəbiyyat – 2.1.2.; Həyat bilgisi – 2.1.1. | Lüğət, iş vərəqləri, C.Məmmədquluzadənin seçilmiş əsərləri, IV cild | 1 | |
| 7. Üçüncü il (II saat) | 1.2.1., 2.1.1., 3.1.3., 4.1.2. | Həyat bilgisi – 2.1.1.; Ədəbiyyat – 2.2.1. | Sxemlər, iş vərəqləri | 1 | |
| 8. Amalım millətimi səadətə qovuşdurmaqdır (I saat) | 1.1.2., 1.2.4., 2.2.3., 3.1.3. | Coğrafiya – 3.2.1.; Ümumi tarix – 1.1.2. | Sxem, H.Z.Tağıyevin həyatına aid sənədli film, “Neft və milyonlar səltənətində” filmindən epizod, tarixi şəkillər, iş vərəqləri | 1 | |
| 9. Amalım millətimi səadətə qovuşdurmaqdır (II saat) | 2.1.2., 3.1.1., 4.1.2. | Ədəbiyyat – 2.1.2.; Xarici dil – 3.1.1.; Həyat bilgisi – 3.2.1. | İş vərəqləri, cədvəl və sxemlər | 1 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10. Sizi təbrik edirəm, qızlar! (I saat) | 1.1.2., 1.2.3., 1.2.4., 2.2.1. | Ədəbiyyat – 1.1.2.; Həyat bilgisi – 3.2.2.; Ümumi tarix – 1.1.2., 3.1.1. | C.Cabbarlının seçilmiş əsərləri, “Babayi-Əmir” jurnalından seçmələr, lüğət, iş vərəqləri, təhsilimizin tarixinə aid nəzəri nümunələr, təhsil haqqında qəbul olunmuş qanun, sərəncam və qərarlar | 1 | |
| 11. Sizi təbrik edirəm, qızlar! (II saat) | 1.2.2., 1.2.3., 3.1.1., 3.1.2. | Ədəbiyyat – 3.1.3.; Azərbaycan tarixi – 1.2.2.; Xarici dil – 4.1.3. | Nitq prosesinə aid sxemlər, qrammatik qaydanın izahına dair plakat, müxtəlif jest və mimikalara aid şəkillər | 1 | |
| 12. İnşa yazı: “Təhsil millətin gələcəyidir” | 3.1.1. | Ədəbiyyat – 3.1.3. | | 1 | |
| 13. Məhəmməd Sadıq bəy Ağabəyzadə (I saat) | 1.1.2., 1.2.4., 2.1.1., 2.2.2., 2.2.3. | Coğrafiya – 3.2.1.; Azərbaycan tarixi – 4.1.2.; Ümumi tarix – 1.1.2.; Həyat bilgisi – 2.1.2. | Generallarımızın şəkilləri, hərb tariximizə aid müxtəlif faktlar, Məhəmməd Sadıq bəy Ağabəyzadə haqqında əlavə məlumatlar, iş vərəqləri | 1 | |
| 14. Məhəmməd Sadıq bəy Ağabəyzadə (II saat) | 1.2.4., 4.1.2. | Ədəbiyyat – 2.1.2.; Xarici dil – 3.1.1., 2.1.3. | Lüğət, iş vərəqləri, zərfin mənaca növləri ilə bağlı nümunələr | 1 | |
| 15. Maarifçi fədailər – Aşurbəylilər (I saat) | 2.2.1., 2.2.2., 2.2.3., 3.1.2. | Azərbaycan tarixi – 1.2.1, 4.1.2.; Ümumi tarix – 1.1.2.; Həyat bilgisi – 3.2.2. | Aşurbəylilərin portretləri və yaxud şəkilləri, nəslin sərmayəsi ilə tikilən məktəb, məscid və s. abidələrin tarixi şəkilləri, Ənvər Çingizoğlunun “Avşarlar” sənədli filmi, tarixi məlumatlar, lüğət, iş vərəqləri | 1 | |
| 16. Maarifçi fədailər – Aşurbəylilər (II saat) | 1.2.4., 3.1.1., 4.1.2. | Təsviri incəsənət – 1.3.1.; İnformatika – 3.3.3.; Xarici dil – 3.1.1. | Avşarlara aid audio və videolentlər, lüğət, iş vərəqləri | 1 | |
| 17. **KSQ** | | | | 1 | |

**II BÖLMƏ**

| Mövzular | Standartlar | İnteqrasiya | Resurslar | Saat | Tarix |
|---|---|---|---|---|---|
| 1. Uğur (I saat) | 1.2.2., 2.1.1., 2.2.3., 3.1.2. | Ədəbiyyat – 2.1.2.; Xarici dil – 3.1.1. | Müdrik kəlamlar, uğur qazanmış insanların həyatından faktlar, iş vərəqləri | 1 | |
| 2. Uğur (II saat) | 3.1.2., 4.1.2. | Xarici dil – 3.1.1., 4.1.2. | Cümlə quruluşu ilə bağlı sxemlər | 1 | |
| 3. Esse: “Mən gələcək həyatımı necə görürəm?” | 3.1.1. | Ədəbiyyat – 3.1.3. | | 2 | |
| 4. Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim (I saat) | 1.1.2., 1.2.4., 2.2.3. | Kimya – 4.3.1.; Həyat bilgisi – 3.2.1., 3.2.2.; Azərbaycan tarixi – 4.1.2. | Lüğət, iş vərəqləri, məşhur kimyaçılarımızın şəkilləri | 1 | |
| 5. Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim (II saat) | 1.2.1., 4.1.1. | Xarici dil – 3.1.1. | Mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 6. Bir ağacın hekayəsi (I saat) | 1.2.4., 2.2.1., 2.2.3., 3.1.2. | Həyat bilgisi – 2.1.1.; Biologiya – 4.1.1.; Coğrafiya – 3.2.5. | Mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 7. Bir ağacın hekayəsi (II saat) | 3.1.1., 4.1.1., 4.1.3. | Xarici dil – 3.1.1., 4.1.2. | İş vərəqləri, biologiyadan videolent | 1 | |
| 8. Məndə ixtiyar olsa idi (I saat) | 1.1.2., 2.1.2., 2.2.1., 4.1.1. | Ədəbiyyat – 1.1.2., 1.2.4. | R.Rzanın seçilmiş əsərləri, iş vərəqləri | 1 | |
| 9. Məndə ixtiyar olsa idi (II saat) | 3.1.4., 4.1.3. | Həyat bilgisi – 2.1.1. | Müxtəlif hesabat formaları, əməli yazı nümunələri kitabı | 1 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10. Mətn (I saat) | 1.2.2., 2.1.1., 2.2.3., 3.1.2. | Ədəbiyyat – 2.1.2.; Azərbaycan tarixi – 1.2.1. | Elxan Elatlı haqqında məlumatlar, əsərlərindən xülasələr, iş vərəqləri | 1 | |
| 11. Mətn (II saat) | 4.1.1., 4.1.3. | Xarici dil – 3.1.1., 4.1.2. | Tabesiz mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 12. Qeyri-adi zəka sahibi Robert Oppenheymer (I saat) | 1.1.1., 1.2.1., 3.1.1., 3.1.3. | Həyat bilgisi – 2.2.1.; Fizika – 3.2.2.; Kimya – 4.3.1. | Robert Oppenheymer və Mariya Küri ilə bağlı məlumatlar, fotoşəkillər, Xirosima və Naqasakiyə aid faciəvi faktlar, iş vərəqləri | 1 | |
| 13. Qeyri-adi zəka sahibi Robert Oppenheymer (II saat) | 3.1.1., 4.1.1., 4.1.2., 4.1.3. | Xarici dil – 3.1.1., 4.1.2. | Tabesiz mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 14. Ağ göyərçin | 1.1.2., 1.2.3., 1.2.4., 2.2.1. | Həyat bilgisi – 2.2.2., 4.1.1.; Biologiya – 3.1.1., 4.1.1. | "Göyərçin əfsanəsi", müxtəlif quş rəsmləri, ibrətamiz fikirlərdən seçmələr, lüğət, iş vərəqləri | 1 | |
| 15. **KSQ** | | | | **1** | |
| 16. **BSQ** | | | | **1** | |

## III BÖLMƏ

| Mövzular | Standartlar | İnteqrasiya | Resurslar | Saat | Tarix |
|---|---|---|---|---|---|
| 1. Xoşbəxtliyin 9 yolu | 1.1.2., 1.2.4., 2.2.1., 3.1.1. | Ədəbiyyat – 2.1.2.; Həyat bilgisi – 3.2.1., 3.2.2. | Mark Tvenin seçilmiş əsərləri, videolent | 1 | |
| 2. Ətrafsız həyat (I saat) | 1.1.2., 2.1.1., 3.1.1., 3.1.2. | Həyat bilgisi – 3.2.1., 3.2.2.; Ədəbiyyat – 1.1.2., 1.2.2. | BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyası, iş vərəqləri | 1 | |
| 3. Ətrafsız həyat (II saat) | 1.1.2., 2.1.2., 4.1.1. | Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri, sxemlər | 1 | |
| 4. Oğlum Məhəmmədə nəsihət (I saat) | 1.1.1., 1.1.2., 1.2.4., 2.1.1., 2.2.1. | Ədəbiyyat – 1.2.4., 2.1.2.; Həyat bilgisi – 2.1.1. | Lüğət, iş vərəqləri, N.Gəncəvinin seçilmiş əsərləri, "Leyli və Məcnun" poeması, poemadan miniatürlər | 1 | |
| 5. Oğlum Məhəmmədə nəsihət (II saat) | 1.2.1., 3.1.3., 4.1.1., 4.1.3. | Xarici dil – 3.1.1.; Həyat bilgisi – 3.2.1. | Tabeli mürəkkəb cümləyə aid sxemlər, iş vərəqləri | 1 | |
| 6. Bir şahidin beş şəhidi (I saat) | 1.1.2., 1.2.3., 2.2.2., 3.1.3. | Ədəbiyyat – 1.2.4.; Azərbaycan tarixi – 1.1.1., 1.3.1. | Sxem, Qarabağ müharibəsinə aid faktlar, tarixi şəkillər, iş vərəqləri | 1 | |
| 7. Bir şahidin beş şəhidi (II saat) | 1.2.2., 1.2.4., 2.1.1., 2.2.3. | Azərbaycan tarixi – 3.1.1. 3.1.2.; Ədəbiyyat – 2.1.2. | İş vərəqləri, "Fəryad" filmindən fraqment | 1 | |
| 8. Bir şahidin beş şəhidi (III saat) | 2.1.2., 3.1.2., 4.1.2. | Xarici dil – 3.1.1. | İş vərəqləri, cədvəl və sxemlər | 1 | |
| **9. KSQ** | | | | 1 | |
| 10. Səyahət mənə yaşamaq stimulu verir (I saat) | 1.1.2., 1.2.3., 1.2.4., 2.1.1., 2.2.1. | Biologiya – 2.1.2., 3.1.1.; Coğrafiya – 3.2.2., 3.2.5. | Lüğət, iş vərəqləri, xəritə, səyyahların şəkilləri | 1 | |
| 11. Səyahət mənə yaşamaq stimulu verir (II saat) | 1.2.2., 3.1.1., 4.1.1., 4.1.3., 4.1.4. | Ədəbiyyat – 3.1.3.; Xarici dil – 4.1.3. | Dialoq nümunələri, qarşılıq-güzəşt və səbəb bağlayıcıları ilə bağlı sxemlər, qrammatik qaydanın izahına dair plakat, iş vərəqləri | 1 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 12. Mətn (I saat) | 1.1.2., 1.2.4., 2.1.1., 2.2.3. | Azərbaycan tarixi – 4.1.2.; Ümumi tarix – 1.1.2. | “Rəvayətli ifadələr” kitabı, Şah Abbas haqqında məlumat və faktlar, şəkillər, iş vərəqləri | 1 | |
| 13. Mətn (II saat) | 4.1.1., 4.1.3. | Xarici dil – 2.1.3., 3.1.1. | Lüğət, iş vərəqləri, tabeli mürəkkəb cümləyə aid sxemlər və nümunələr | 1 | |
| 14. Yaradıcılığı gülüş və musiqi ilə yoğrulmuş xanım (I saat) | 2.1.1., 2.2.1., 2.2.2., 2.2.3., 3.1.3. | Azərbaycan tarixi – 4.1.2.; Ümumi tarix – 1.1.2.; Həyat bilgisi – 3.2.2. | Nəsibə Zeynalovaya aid şəkillər, tamaşalarından şəkil və video-lentlər, “Qayınana” filmindən fraqment, afişalar, lüğət, iş vərəqləri | 1 | |
| 15. Yaradıcılığı gülüş və musiqi ilə yoğrulmuş xanım (II saat) | 3.1.1., 4.1.1., 4.1.3. | Təsviri incəsənət – 1.3.1.; İnformatika – 3.3.3.; Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri | 1 | |
| 16. Dərman (I saat) | 1.1.1., 1.1.2., 1.2.4., 2.1.1., 2.2.1. | Azərbaycan tarixi – 3.1.1.; Ədəbiyyat – 2.1.2. | Lüğət, iş vərəqləri, M.Ə.Sabirin seçilmiş əsərləri | 1 | |
| 17. Dərman (II saat) | 2.2.3., 3.1.3., 4.1.1. | Ədəbiyyat – 2.2.1. | Sxemlər, iş vərəqləri | 1 | |
| 18. **KSQ** | | | | **1** | |

**IV BÖLMƏ**

| Mövzular | Standartlar | İnteqrasiya | Resurslar | Saat | Tarix |
|---|---|---|---|---|---|
| 1. Bakı tarixinin ilk tədqiqatçısı (I saat) | 1.2.2., 2.1.1., 2.2.3., 3.1.2. | Riyaziyyat – 1.1.2.; Azərbaycan tarixi – 5.1.3.; Həyat bilgisi – 2.1.1. | Sara Aşurbəylinin “Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü”, “Şirvanşahlar dövləti (VI–XVI əsrlər)”, “Azərbaycanın orta əsrlərdə Hindistanla iqtisadi və mədəni əlaqələri” və s. kitabları, iş vərəqləri | 1 | |
| 2. Bakı tarixinin ilk tədqiqatçısı (II saat) | 2.1.1., 4.1.3. | Xarici dil – 3.1.1., 4.1.2. | Lüğət, iş vərəqləri | 1 | |
| 3. İçərişəhər məhv edilməkdən necə xilas oldu? (I saat) | 1.2.2., 2.2.3., 3.1.2. | Azərbaycan tarixi – 1.1.1., 3.1.2.; Ümumi tarix – 1.1.2. | Sara Aşurbəylinin Şirvanşahlara dair tədqiqatlarından nümunələr, “İçərişəhər Azərbaycan tarixində” kitabı, E.A.Paxomovun tədqiqatlarından faktlar, iş vərəqləri, lüğət | 1 | |
| 4. İçərişəhər məhv edilməkdən necə xilas oldu? (II saat) | 1.1.2., 2.1.1., 2.1.2., 4.1.3. | Xarici dil – 3.1.1. | “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturuna daxil olan Elmi-mədəni mərkəzin əsasnaməsi, iş vərəqləri | 1 | |
| 5. İçərişəhər məhv edilməkdən necə xilas oldu? (III saat) | 1.2.3., 1.2.4., 4.1.3., 4.1.4. | Xarici dil – 3.1.1., 4.1.2. | Vasitəsiz nitqin müxtəlif formalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 6. İçərişəhər məhv edilməkdən necə xilas oldu? (IV saat) | 1.2.1., 3.1.2., 4.1.4. | Xarici dil – 3.1.1., 4.1.2. | Vasitəsiz nitqin müxtəlif formalarına aid sxemlər, iş vərəqləri | 1 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7. Azərbaycanlıların qədim yaşayış məskəni (I saat) | 1.1.2., 1.2.4., 2.2.1., 3.1.1. | Həyat bilgisi – 3.2.1., 3.2.2.;<br>Azərbaycan tarixi – 4.1.2. | Lüğət, iş vərəqləri, Şuşanın şəkilləri | 1 | |
| 8. Azərbaycanlıların qədim yaşayış məskəni (II saat) | 1.2.1., 3.1.3., 3.1.4., 4.1.3. | Xarici dil – 3.1.1. | Akt nümunələri | 1 | |
| 9. Hekayənin yazılması | 3.1.1. | Ədəbiyyat – 3.1.3 | | 2 | |
| 10. Qarı dağı (I saat) | 1.1.1., 1.1.2., 2.2.1., 3.1.2. | Ədəbiyyat – 1.1.2., 1.2.4. | İ.Əfəndiyevin seçilmiş əsərləri, iş vərəqləri | 1 | |
| 11. Qarı dağı (II saat) | 1.2.3., 1.2.4., 4.1.3., 4.1.4. | Xarici dil – 3.1.1., 4.1.2. | Vasitəsiz nitqin müxtəlif formalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 12. Bəyaz yelkənli teatr (I saat) | 1.1.2., 1.2.3., 1.2.4., 2.2.1. | Təsviri incəsənət – 1.1.1., 2.2.1., 3.1.1.;<br>Kimya – 2.1.1. | “Dünyanın 100 möhtəşəm tikilisi” kitabı, müxtəlif beton və metal konstruksiya rəsmləri, lüğət, iş vərəqləri | 1 | |
| 13. Bəyaz yelkənli teatr (II saat) | 1.1.2., 1.2.4., 2.1.1., 4.1.3. | Xarici dil – 3.1.1., 4.1.2. | Vasitəli nitqin müxtəlif formalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 14. **Layihənin yekunlaşdırılması** | | | | **1** | |
| 15. **KSQ** | | | | **1** | |
| 16. **BSQ** | | | | **1** | |

# TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsidir. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmək istedadına malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

– Təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;

– Məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;

– Məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;

– Məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi (deklarativ, prosedural, kontekstual);

– Məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi (idraki, emosional, psixomotor);

– Hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçüləbilən olması;

– Təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvari, iyerarxiya üzrə inkişafı əks etdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədlər sinifləndirilən zaman asandan çətinə prinsipi nəzərə alınır. Təlim məqsədlərinin, standartların (məzmun və qiymətləndirmə) və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

– İdraki (təfəkkür, koqnitiv);

– Emosional (hissi, affektiv);

– Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxiya, pillələlik, əlaqəlilik və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir. Misal üçün aşağıdakı nümunəyə diqqət yetirək:

**Standartlar:** 1.2.2., 2.2.3., 3.1.2.

**Məqsəd:** Mövzuya uyğun rabitəli nitq nümunələri qurur.

İrəli sürülmüş fikirləri dəyərləndirir.

Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

Birinci məqsəddəki rabitəli nitqqurma tələbi ünsiyyət fəaliyyətini əhatə edir və tətbiq mərhələsindədir. İkinci məqsəddəki dəyərləndirmə ünsiyyət fəaliyyətini əhatə edir, lakin qiymətləndirmə mərhələsindədir. Üçüncü məqsədin fəaliyyəti olan əlaqəli əsaslandırma isə ünsiyyət fəaliyyəti olsa da, sintezetmənin nümunəsidir.

# ŞAGİRDLƏRİN YAŞ XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRƏ ALINMASI

Təlim metodları seçilərkən şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipinə istinad olunmuşdur. Hərçənd ki bu yaş qrupunda daha mürəkkəb metodlarla işləmək problem deyil, amma fərqliqavrama tiplərini nəzərə alaraq metodlar sadədən mürəkkəbə doğru verilmişdir. Metodlar seçilərkən və tapşırıqlar hazırlanarkən Hovard Qardner nəzəriyyəsi əsas götürülmüşdür. Bu nəzəriyyəyə görə dərketmənin 8 üsulu var:

1. Linqvistik/söz;
2. Məntiqi/riyazi;
3. Vizual/məkan;
4. Bədən/kinestik;
5. Musiqi/səs;
6. Fərdlərarası;
7. Fərddaxili;
8. Naturalistik/təbiət.

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

| Bilmə | Şagird |
|---|---|
| öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsidir. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | – istifadə olunan terminləri bilir;<br>– konkret faktları bilir;<br>– proseduru və metodları bilir;<br>– əsas anlayışları bilir;<br>– prinsipləri və qaydaları bilir. |
| **Anlama** | **Şagird** |
| şagirdin öyrənilmiş biliyin əhəmiyyətini başa düşməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata (nəticənin izahı) keçməkdir. Tədrisin belə nəticələri dərs materialının sadə yadda saxlanılmasından üstündür. | – prinsipləri, qaydaları və faktları başa düşür;<br>– materialı öz sözləri ilə izah edir;<br>– sxemləri, diaqramları izah edir;<br>– materialın sözlərlə izahını başqa anlayışlarla əvəz edə bilir;<br>– öyrəndiyi biliklərdən gələcəkdə əldə edilə bilən nəticəni təsvir edir. |

| Tətbiq | Şagird |
|---|---|
| öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura prinsiplərin, qanunların, metod və üsulların tətbiqi daxildir. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun nəticələrindən daha yüksək səviyyədə istifadə etmək qabiliyyətidir. | – yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>– konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>– prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |
| **Təhlil** | **Şagird** |
| tədris materialını əsas hissələrə ayırmaq, onun strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, həmin hissələr arasında əlaqələrin üzə çıxarılması daxildir. Bu zaman tədrisin nəticələri daha yüksək intellektual səviyyəyə uyğun olur, nəinki, sadəcə, anlanılsın və tətbiq edilsin. | – gizli, gözə görünməyən təsəvvürləri açıqlayır;<br>– məntiqi izahatda səhvləri və unudulmuşları görür;<br>– fakt və nəticə arasında fərqi üzə çıxarır;<br>– dəlillərin əhəmiyyətini qiymətləndirir. |
| **Sintez** | **Şagird** |
| elementləri, hissələri birləşdirmək, yeni bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış və məruzələrin, məruzələrin hazırlanması, yaxud sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | – yaradıcı xarakterli kiçik inşa yazır;<br>– eksperimentin həyatakeçirilmə planını təklif edir;<br>– müəyyən problemin həlli üçün plan hazırlayanda müxtəlif bilik sahələrindən istifadə edir. |
| **Qiymətləndirmə** | **Şagird** |
| bu və ya digər materialın (bədii əsər, tətqiqi material və s.) əhəmiyyətini qiymətləndirmək və onun izahı bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyalar şagirdin özü tərəfindən və ya kənardan (müəllim tərəfindən) müəyyənləşə bilər. | – materialın məntiqi quruluşunu qiymətləndirir;<br>– nəticələrin faktlara əsaslanmasını qiymətləndirir;<br>– bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

# DƏRSLİKDƏ VERİLMİŞ MÜXTƏLİF JANRLARDAN OLAN ƏSƏRLƏRİN OXUSU İLƏ BAĞLI TÖVSİYƏLƏR

Bədii əsərlər janr etibarilə müxtəlifdir. Dərsliyin hazırlanma prosesində müxtəlif ədəbi janrlarda olan nümunələrdən istifadə edilib. Tədris prosesində müəyyən sistem gözlənilməli, janrların xarakterik xüsusiyyətləri nəzərə alınmalıdır. Dərslikdə povest, roman, hekayə, məsnəvi və s. janrlarda yazılmış əsərlərdən istifadə olunub. Lakin bunlar bütövlükdə deyil, kiçik parçalar halında şagirdlərə çatdırılır.

**Hekayənin oxunması.** Hekayədə hadisə müəyyən xətt üzrə ardıcıllıqla izlənə və yadda saxlana bilər. Hekayənin öyrənilməsinə həsr olunmuş məşğələlər onun məzmunundan, həcmindən və şagirdlərin yaşından asılı olaraq müxtəlif cür keçirilir. Hekayənin oxunmasına həsr olunmuş dərs, əsasən, aşağıdakı mərhələlərdə aparılır:

– Müəllimin giriş müsahibəsi; oxuya hazırlıq;
– Hekayənin müəllim və ya yaxşı oxuyan şagird tərəfindən bütöv, ucadan, ifadəli oxunması;
– Hekayənin qavranılmasının yoxlanılması;
– Hekayənin şagirdlər tərəfindən bütöv, yaxud hissə-hissə ucadan oxunması və təhlili;
– Hekayənin planının tərtibi;
– Hekayənin məzmununun nəql edilməsi;
– Hekayənin təkrarən ifadəli oxunması və ya səhnələşdirilməsi.

**Şeirlərin oxunması.** Şeir ucadan, ifadəli oxunmalıdır. Çünki bu zaman şeirin ölçüləri, heca, vəzn, ritm və s. anlayışlar aydın qavranılır. Şagirdlərə şeiri ifadəli oxumağı başa salmaq üçün müəllim onları özü kimi oxumağa deyil, oxu prosesində fasiləni, sürəti, məntiqi vurğunu, intonasiyanı gözləməyə dəvət etməlidir. Müəllim şeirin oxusuna əvvəldən hazırlaşmalı, onun əsas ideyasını, tonunu, sürətini müəyyənləşdirməli və məşq etməlidir.

Şeirlər epik və lirik xarakter daşıyır. Epik şeirlərdə müəyyən əşya, təbiətin bir guşəsi, əsasən, həyat hadisələri təhkiyə yolu ilə verilir. Epik şeirlər üzərində aparılan iş hekayə üzərində aparılan işə bənzəyir. Epik şeirlər sintaktik quruluşuna görə hekayələrdən fərqləndiyindən onlar obrazlı və lakonik olur. Buna görə də onların oxunmasına və təhlilinə diqqətlə yanaşmaq lazımdır. Müəllim hər

hansı bir şeiri oxumamışdan əvvəl onun məzmunu ilə əlaqədar müsahibə aparmalı, sonra onu ucadan və ifadəli oxumalıdır.

Lirik şeirlərin növləri üzrə iş aparılarkən şagirdlərə onları öz fəaliyyətləri, psixi davranışları üzərində müşahidə aparmağa, düşünməyə, mühakimə yürütməyə yönəldən sualların verilməsi vacibdir. Bu, məzmunun başa düşülməsini təmin edir. Şeirlərin oxunmasına həsr olunmuş dərsin sxemi aşağıdakı mərhələlərdən ibarətdir.

– Giriş müsahibəsi;

– Şeirin müəllim tərəfindən ifadəli oxunması;

– Şeirin ideya və məzmununun necə mənimsənildiyinin aşkara çıxarılması;

– Şeirin şagirdlər tərəfindən hissə-hissə oxunması;

– Yekunlaşdırıcı müsahibə;

– Şeirin şagirdlər tərəfindən bütöv oxunması.

**Elmi-kütləvi mətnlərin oxunması.** Elmi-kütləvi mətnlər şagirdləri təbiətdəki əşya və hadisələri, qanunları və qanunauyğunluqları, həmçinin ölkəmizdə baş verən ictimai-siyasi hadisələri başa düşməyə doğru aparır. Elmi-kütləvi materiallardan təbiət və cəmiyyət haqqında əldə edilən məlumatlar şagirdlərdə elmi dünyagörüşün, təbiətin tamlığı, bütövlüyü haqqında təsəvvürün yaranmasını təmin edir. Elmi-kütləvi mətnin məzmunundan, xarakterindən, dərsin quruluşundan asılı olaraq dərsin gedişi dəyişə bilər.

***1. Giriş müsahibəsi.*** Şagirdləri mətnin məzmununu şüurlu mənimsəməyə hazırlamaq məqsədilə giriş müsahibəsində müəllim onların həmin mövzu ilə əlaqədar əldə etdikləri bilik və bacarığı aşkara çıxarır, onları həmin təsəvvürlər və anlayışlar aləminə daxil edir. Şagirdlər dərsdə nələrdən söhbət gedəcəyini öyrənirlər.

***2. Mətnin ilk oxusu.*** Mətn ilk dəfə şagirdlər tərəfindən hissə-hissə oxunur. Şagirdlərin oxusunun şüurluluğunu təmin etmək üçün müəllim onlara o qədər də çətin olmayan tapşırıq verir. Mətn bir qədər böyük və çətin olduqda onun şagirdlər tərəfindən hissə-hissə oxunması məsləhət görülür.

***3. Mətnin hissələrinin təhlili.*** Hər bir hissə oxunduqdan sonra onun məzmununu nəql edən şagird çətin söz və ifadələri aydınlaşdırır.

***4. Planın tərtib olunması.*** Planın tərtibi zamanı mətnin ayrı-ayrı hissələrinin düzgün əlaqələndirilməsi şagirdlərin məntiqi təfəkkürünün inkişafını təmin edir. Elmi-kütləvi mətnlərin planının tərtib edilməsi üzrə işə aşağı sinifdən başlamaq mümkündür.

***5. Ümumiləşdirici müsahibə.*** Müəllim dərsdə şagirdlərin nələri öyrəndiklərini, ümumiyyətlə, mövzu ilə əlaqədar nələri bildiklərini, onları həyata necə tətbiq edəcəklərini müəyyənləşdirmək məqsədilə müsahibə aparır.

***6. Evə tapşırıq.*** Öyrənilən mövzu üzrə məlumatın daha da genişləndirilməsi və dərinləşdirilməsi üçün evə yaradıcı fəaliyyət tələb edən tapşırıq verilir.

# NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ÜÇÜN OXU MODELLƏRİ

Oxu şagirdlərin öz oxu fəaliyyətlərini təşkil və idarə etmələridir. Yəni şagirdlər oxu üçün təqdim edilən mətnin mənasını dərk etməyi problem, mətnin oxusunu isə problem həlletmə forması kimi dəyərləndirərək məqsədə nail olmaq üçün fəaliyyətlərini düşünülmüş şəkildə təşkil edir, yəni strategiya qururlar. Oxuya strategiyalı yanaşma ona xidmət edir ki, şagird gözlənilən nəticəni mətnin oxusuna başlamazdan əvvəl aydın təsəvvür edir. O, dəqiq bilir:

- Hansı suallar cavablandırılmalıdır;
- Oxu hansı plana əsasən təşkil edilməlidir;
- Bu haqda artıq nələri bilir;
- Uğura nail olmaq üçün nələr etmək lazımdır.

Nitqin inkişaf etdirilməsi üçün aşağıdakı oxu modellərindən istifadə oluna bilər:

## SƏSLİ OXU

Məqsəd şagirdlərin oxunan mətndəki sözlərin necə tələffüz edildiyini və hansı mənada işləndiyini anlamalarına nail olmaqdır. Səsli oxu şagirdlərin oxu səviyyəsini müəyyənləşdirməklə yanaşı, dinləyənlərin zehni fəaliyyətlərinin inkişafına da kömək edir. Şagirdlərin düzgün danışmaq bacarıqlarını artırır. Səsli və gözəl oxu dinləyənlərdə mövzuya maraq oyadır və onları oxumağa həvəsləndirir. Səsli oxu dərsi müxtəlif üsullarla keçirilə bilər.

# SÜRƏTLİ OXU

Sürətli oxu oxu texnikasının sonradan təkmilləşməsinin nəticəsidir. Stereo cədvəllərlə, xüsusi məşq terminlərindən istifadə etməklə şagird əməli görüş sahəsinin əsaslı şəkildə artırılmasına nail olur. Bu zaman fuziya divergensiyası adlandırılan bir effekt, daha doğrusu, gözün görmə oxlarının ayrılması meydana çıxır. Bunun hesabına da oxunun sürəti və oxunanların mənimsənilməsinin keyfiyyəti artır.

# DİQQƏTLİ OXU

Diqqətli oxu zamanı bütün təfərrüatlara diqqət yetirilir, onların təhlili və qiymətləndirilməsi həyata keçirilir. Bəzi pedaqoqlar dərinləşdirilmiş oxunu analitik, tənqidi və yaradıcı adlandırırlar. Bu üsul tədris fənlərinin öyrənilməsində ən yaxşısı hesab olunur. Siz, sadəcə, mətni oxumur və anlaşılmayan yerləri aydınlaşdırmırsınız, həm də öz biliklərinizə, təcrübənizə əsaslanaraq məsələni tənqidi, yaradıcı şəkildə nəzərdən keçirir, izahlarda güclü və zəif yerləri tapır, fikir və qənaətləri müstəqil şəkildə təfsir edirsiniz. Bu da oxunmuş materialı asanlıqla yadda saxlamağa imkan verir, məşğələlərdə fəallığı yüksəldir. Bu yolla tanış olmayan, həmçinin çətin mövzular yazılmış dərsliklər, mətnlər oxunur.

# SUAL VERƏRƏK OXU

Oxudan əvvəl və oxu prosesində şagirdlərə suallar hazırlamaq tapşırılır. Məqsəd şagirdlərin mətn üzərində düşünmələrinə nail olmaqdır. Bu metodun tətbiqi iki formada həyata keçirilir.

Mətn səsli və ya səssiz oxunduqdan sonra şagirdlər oxu prosesində zehinlərində (beyinlərində) yaranan sualları yazırlar. Qruplara ayrılaraq həmin suallara cavab axtarırlar. Hər qrupdan, yaxud sinifdən bir şagird yoldaşına sual verir. Şagirdlər mətni oxumazdan əvvəl və oxuyarkən mətnin başlığını və beyinlərində yaranmış sualları lövhəyə yazırlar. Cavabları verilmiş sualların üstündən xətt çəkilir.

## PROQNOZLAŞDIRILMIŞ OXU

Şagirdlər mətnin təqdim olunan hissəsini oxuyurlar. Müəllim şagirdlərə “Mətndə inkişaf edən və inkişaf edə biləcək olan hadisələri” iki ayrı-ayrı sütunda yazmalarını tapşırır. Daha sonra müəllim mətnin qalan hissəsini oxuyur və hadisələrin necə nəticələnə biləcəyi haqqında şagirdlərin hər hissə ilə bağlı düşüncələrini öyrənmək məqsədilə onlara qeyd etməyə görə üç sütundan ibarət tapşırıq vərəqləri paylayır.

Müəllim mətnin bir hissəsini səsli oxuyur. Şagirdlərdə maraq yaradan ifadələr və onlarla bağlı suallar lövhəyə yazılır. Mətnin davamında sualların cavabları tapıldıqca üstlərindən xətt çəkilir.

Müəllim şagirdlərə mətni oxumağa başlamazdan əvvəl mətnin başlığı və əyani vasitələrdən istifadə etməklə mətnin məzmunu ilə bağlı fərziyyələr irəli sürmələrini tapşırır.

Səsli oxu əsnasında müəllim oxu prosesini dayandırmaqla “Sizin fikrinizcə, bundan sonra nə ola bilər?”, “Mətnin davamında hadisələrin fərz etdiyiniz kimi inkişaf etməsinin səbəbi nədir?” tipli suallar verməklə şagirdlərin diqqətinin mətn ətrafında daha çox cəmlənməsinə nail olar.

## ROLLAR ÜZRƏ OXU

Məqsəd şagirdlərin mətnin quruluşunu, dilini və mətndə iştirak edən obraz və personajların xarakterlərini anlamalarına nail olmaqdır. Mətn oxunduqdan sonra dialoqlara çevrilərək teatr ssenarisi düzəldilir. Mətnin məzmununda heç bir dəyişiklik edilmir, adi danışıq cümlələri və hadisələr nəzərə alınmaqla dialoqlar düzəlir. Hər bir şagird oxuyacağı hissəni hazırlayır. Eyni zamanda mətnin qavranılmasına da nail olmaq lazımdır. Şagirdlər oxuduqları hissədə nəzərə çatdıracaqları hissələri mətnin məzmunundan asılı olaraq izah etməyi bacarmalıdırlar.

## TƏNQİDİ OXU

Məqsəd şagirdlərə oxuduqları haqqında sual vermək vərdişləri qazandırmaqla mövzu haqqında düşünmələrinə imkan yaratmaq, mövzunu müsbət və mənfi tərəfləri ilə və bitərəflilik nöqteyi-nəzərindən dəyərləndirərək şəxsi fikirlərini bilməkdir. Mətn oxunarkən şagirdlər iştirak edib-etmədikləri yerləri müəyyənləşdirir və beyinlərində yaranan suallara cavab axtarırlar. Hiss, düşüncə və hadisələr arasında səbəb-nəticə əlaqəsi qurmağa çalışırlar. Fərdi təcrübələrindən istifadə etməklə oxuduqlarına məna verirlər.

## MÜZAKİRƏ EDƏRƏK OXU

Məqsəd şagirdlərin mətnin mövzusu ilə bağlı bilik, hiss və düşüncələrini başqaları ilə bölüşmələrinə və onların bilik və düşüncələrindən istifadə etməklə fərqli baxışlar qazanmalarına nail olmaqdır. Bu metod zamanı mətn hissələrə ayrılaraq tətbiq oluna bildiyi kimi, həm də bütünlüklə tətbiq edilə bilər. Müzakirə bütün sinif, yaxud qruplar halında keçirilə bilər. Müzakirənin sonunda əldə olunan müştərək düşüncələr mətn kimi təqdim olunur. Bütün şagirdlərin müzakirədə iştirakına və bir-birinin fikrinə hörmət etmələrinə nail olmaq vacibdir.

# DƏRSLİKDƏ VERİLMİŞ MÜXTƏLİF ÇALIŞMA VƏ YAZI İŞLƏRİ İLƏ BAĞLI TÖVSİYƏLƏR

Yazılı çalışmaların əksəriyyəti dil dərsinin bir hissəsində, tək-tək hallarda bütöv dərs ərzində yerinə yetirilməlidir.

Yazılı çalışmaları nəzərdən keçirək: İmlalar orfoqrafik çalışmaların məktəb təcrübəsində sınaqdan çıxarılmış ən əlverişli növüdür. İmlalar iki qrupa ayrılır: *öyrədici imlalar; yoxlama imlalar.*

*Görmə, xəbərdarlıqlı, izahlı, seçmə, lüğət üzrə, yaradıcı, sərbəst imlalar* öyrədici xarakter daşıyır. Adından məlum olduğu kimi, imlanın bu növləri müəyyən orfoqrafik qaydaların şagirdlərə öyrədilməsinə xidmət edir. Öyrədici imlaların yazıldığı prosesdə müəllim bütün vasitələrdən istifadə edərək şagirdlərin səhvsiz yazmalarını təmin etməyə çalışır.

Öyrədici imlalara xüsusi dərs ayırmağa ehtiyac yoxdur. Dərsin ən çoxu 10-15 dəqiqəsini bu işə ayırmaq kifayətdir. Tək-tək hallarda, öyrədilən orfoqramın mürəkkəbliyini nəzərə alaraq dərsi bütövlükdə onunla əlaqədar öyrədici imlaya həsr etmək olar. Öyrədici imlaların məzmunu rabitəli mətnlərdən, bir mövzu ətrafında dövr edən cümlələrdən, tam rabitəsiz cümlələrdən və ayrı-ayrı sözlərdən ibarət ola bilər. Orfoqrafiya təlimi baxımından rabitəsiz mətnlər daha əlverişlidir. Bu zaman müəllim şagirdlərin səviyyəsini öyrənmək üçün yerli şivənin xüsusiyyətlərini nəzərə almaqla mətnə istədiyi orfoqramları daxil edə bilər.

Lüğət üzrə imla, adından məlum olduğu kimi, ayrı-ayrı sözlərin diktə edilib yazdırılması şəklində aparılır. Lüğət üzrə imla həm orfoqrafiya təlimi, həm də nitq inkişafı ilə – lüğət üzrə işlə əlaqədar olduğundan xüsusi əhəmiyyət kəsb edir. İmlanın bu növündə diktə üçün proqramdakı yazılışı çətin sözlər və yeni keçilmiş qaydaya dair orfoqramın olduğu sözlər seçilir. Lüğət üzrə imla müxtəlif sayda sözdən ibarət ola bilər. Bəzən şagirdlərin əvvəllər öyrəndikləri sözləri necə yaza bildiklərini yoxlamaq məqsədilə sözlərin sayını artırmaq da mümkündür.

*Lüğət* üzrə imla cari yoxlama işi kimi aparılır. Onun məzmununu heç bir qayda ilə tənzimlənməyən sözlər (belə sözlərin siyahısı hər bir sinfin proqramında verilmişdir) təşkil edir. Lüğət üzrə imlaların həcmi sinfin səviyyəsinə uyğun müəyyənləşdirilir. Buraxılmış səhvlər aşağıda verilmiş cədvələ əsasən səviyyələndirilə bilər:

| | **İmlada buraxılmış səhvlər** | **Səhvlərin sayı** |
|---|---|---|
| 1 | Söz kökündə cingiltili samitlərin yazılışında | |
| 2 | Sözün sonunda cingiltili samitlərin yazılışında | |
| 3 | Söz kökündə kar samitin yazılışında | |
| 4 | Sözün sonunda kar samitin yazılışında | |
| 5 | İsimlərin hal şəkilçilərinin yazılışında | |
| 6 | Sifətlərin şəkilçilərinin yazılışında | |
| 7 | Feillərin zaman şəkilçilərinin yazılışında | |
| 8 | Məsdər şəkilçilərinin yazılışında | |
| 9 | Hərfartımı | |
| 10 | Hərfdüşümü | |
| 11 | Hərflərin əvəzlənməsi, yerdəyişməsi | |
| 12 | Sözlərin sətirdən sətrə keçirilməsi | |
| 13 | Durğu işarəsi səhvləri | |
| 14 | Başqa səhvlər | |
| **Cəmi:** | | |

İmlalar yoxlanarkən səhvlərin sayına görə işlər aşağıdakı cədvəl əsasında qiymətləndirilə bilər.

| **Səviyyələr** | **Buraxılmış səhvlər** |
|---|---|
| IV | Səhvsiz yerinə yetirilən iş |
| III | 1 səhvlə yerinə yetirilən iş |
| II | 2 səhvlə yerinə yetirilən iş |
| I | 3 və daha artıq səhvlə yerinə yetirilən iş |

# İNŞA YAZILARI İLƏ BAĞLI TÖVSİYƏLƏR

İnşa təlimi nitq inkişafı üzrə işin ən yüksək formasıdır. İnşa üzərində iş çox çətin və mürəkkəb proses olmaqla müəllimdən gərgin əmək tələb edir.

İnşalar janrına görə müxtəlifdir.

*Nəqli xarakterli inşalarda* şagirdlər bir-birinin ardınca baş verən hadisələri, faktları sadalayırlar.

*Təsvir xarakterli* ilk inşalar predmetin təsvirindən ibarət olmalıdır. Bu tip inşalarla şagirdlərdə müəyyən təbiət hadisələrinin, mənzərənin təsvirini öz sözləri ilə vermələrinə nail olmaq mümkündür. Bəzən təsvir xarakterli inşanın iki əşyanın, iki hadisənin, iki mənzərənin müqayisə edilməsi əsasında aparılması uşaqların yaradıcı fəallığını artırır.

*Mühakimə xarakterli inşalar* şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir. Onlar bildikləri məlumatlar və həyat təcrübələri dairəsində sadə mühakimə yürüdür, öz nöqteyi-nəzərlərini müdafiə edirlər. Şagirdlərin ümumi inkişafının təmin edilməsində mühakimə xarakterli inşalar mühüm rol oynayır.

İnşa yazılar üçün müxtəlif mənbələrdən material əldə edilə bilər. Bu mənbələr aşağıdakılardır:

a) şəkillər;

b) kinofilm, diafilm;

c) tamaşalar;

ç) ətraf aləm və təbiət üzərində müşahidə;

d) uşaqların şəxsi həyat təcrübəsi;

e) dərslikdən oxunmuş material;

ə) müəllimin nəqli;

f) müxtəlif mənbələrdən toplanmış materialların birləşdirilməsi.

Yazı işlərinin yoxlanması xüsusi istedad tələb edir. Şagirdlərin yazılarındakı səhvləri aşkara çıxarmaq, başvermə səbəblərini müəyyənləşdirib qruplaşdırmaq və aradan qaldırmaq son dərəcə vacibdir. Orfoqrafik səhvlərin aradan qaldırılması üzrə işin təşkilindən əvvəl şagirdlərin buraxdıqları səhvlərin xarakterini, səhvə yol vermələrinin səbəbini araşdırmaq, hər bir şagirdin hansı çətinlik qarşısında qaldığını, hansı səhvlərin daha davamlı olduğunu və bunlarla əlaqədar gələcəkdə işi hansı istiqamətdə aparmaq lazım gəldiyini müəyyənləşdirmək lazımdır.

Səhvlər siniflər üzrə deyil, xarakterinə görə qruplaşdırılmalıdır:

a) orfoqrafik səhvlər;

b) leksik səhvlər;

c) durğu işarələri səhvləri;

ç) üslub səhvləri;

d) məzmun səhvləri.

*Orfoqrafik səhvlər.* Geniş mənada orfoqrafik səhvlərin bütün növlərini əhatə edir. Dar mənada orfoqrafik səhvlər, əsasən, qrammatik-orfoqrafik qaydanın pozulması nəticəsində baş verən səhvlərdir. Çox vaxt şagirdlər sözün səslənməsi ilə onun yazılışı arasındakı münasibəti düzgün müəyyənləşdirməkdə çətinlik çəkirlər. Onların görmə qavrayışı yazdıqları sözü bütöv əhatə edə bilmədiyindən qrafik səhvlərə yol verirlər. Orfoqrafik səhvlərin aşağıdakı növləri məlumdur:

*Sözlərin orfoepik normaların təsiri ilə ədəbi tələffüzə əsasən yazılması.* [Maskva, dosluq, dəfdər və s.]

Bu qəbildən olan səhvlər iki növə ayrılır:

1. Söz kökündə: [tükan, dosluq, məhlə, yarsı və s.]

2. Şəkilçilərdə: [verdiz, gələcəm, sənnən və s.]

*Yanlış tələffüzün təsiri ilə meydana çıxan səhvlər:*

[ağşam, məşşur, təcürbə və s.]

*Yerli şivə səhvləri də bu qrupa daxildir:* [gəldün, kinova, alson və s.] (morfoloji səhvlər), [səyi (səni), məyi (məni) və s.] (fonetik-morfoloji səhvlər).

*Bənzətmə üzrə buraxılan səhvlər:* [xətt, çevir, altı, isti sözlərinin təsiri ilə xəttkeş, altımış, istindi və s.]

*Hərfburaxma:* [çraq, sorşur, qaplar, çalşırdı və s.] Belə səhvlərin bir qismi şagirdlərin görmə qavrayışının zəifliyindən irəli gəlir. Bu zaman yazı prosesi avtomatlaşdığından bəzən qaydanı lap yaxşı bilənlər də səhvə yol verirlər.

*Hərfartırma:* [hüsünxət, höccət, ayid, radiyo, xəriytə və s.]

*Hərf və hecaların yerdəyişməsi:* [doğurdan, təcürbə, görsət, vazqal, taski və s.] Belə metateza hadisəsi daha çox yerli şivə xüsusiyyəti ilə bağlı olur.

*Bir hərfin başqası ilə əvəz olunması.* Bu səhvlər bir neçə cürdür: [yanlış tələffüzdən irəli gələn səhvlər: ökiz, pəndir, masın və s.]

*Bəzi hərflərin dərk edilməməsi üzündən:* [guman, qarandaş, gələm (qələm) və s.]

*Mexaniki qrafik səhvlər:* [ələk (əmək), tapaq (papaq), xama (xana) və s.] Belə yazılar kalliqrafiya qaydalarının gözlənilməməsi ilə əlaqədardır.

Bunlardan əlavə, sözlərin bitişik, defislə, xüsusi isimlərin böyük hərflərlə yazılması, sətirdən sətrə keçirmə və s. kimi orfoqrafik səhvlər də məlumdur.

Səhvlərin müəllim tərəfindən düzəldilməsi və təsnifi şagirdlərin biliyini yoxlamaq və qiymətləndirməyə imkan verir, onların diqqətini səhvlərə qarşı fəal, şüurlu müzakirəyə yönəldir, gələcək fəaliyyətlərinin istiqamətini müəyyənləşdirməyə səbəb olur.

Şagirdlərin buraxdıqları səhvlərin xarakterindən və başvermə səbəblərindən asılı olaraq onların düzəldilməsi yolları da müxtəlif olur. Diqqətsizlik üzündən buraxılan səhvlərin altından xətt çəkmək kifayətdirsə, qrammatik qaydanı bilməməkdən irəli gələn səhvi düzəldərkən haşiyədə həmin qaydanı xatırladan qeyd vermək, dialekt üzərində ədəbi dilə uyğun düzəliş aparmaq lazım gəlir.

*Səhvlərin hesaba alınması.* Şagirdlərin buraxdıqları orfoqrafik səhvlərin hesaba alınması təlimin hər hansı mərhələsində sinfin və hər bir şagirdin savadı haqqında fikir yürütməyə, müvəffəqiyyəti qaldırmaq üçün şagirdlərlə fərdi iş aparmağa imkan verir. Orfoqrafik səhvləri təsnif edib hesaba almaq təlimin gedişinə nəzarətin mühüm vasitələrindən biri olmaqla, həm də müəllimin istifadə edəcəyi yolları, çalışma növlərini müəyyənləşdirməyə imkan verir.

Səhvlərin hesabı şagirdlərin dəftərlərinin axırıncı səhifəsində, bu iş üçün ayrılmış xüsusi dəftərdə və böyük cədvəldə aparıla bilər. Səhvlərin hesabı ayrıca dəftərdə aparılarkən hər şagirdə bir səhifə ayrılır. Səhifənin başında şagirdin soyadı və adı yazılır, aşağıda isə hər dəfə yazının növü, aparıldığı tarix, onun altında şagirdin buraxdığı xarakterik səhvlər qeydə alınır. Səhvlər çox olduqda fonetik və qrammatik hadisələri ayrıca qruplaşdırmaq məsləhət görülür.

Səhvlərin cədvəldə hesaba alınması işi asanlaşdırır və əyaniləşdirir. Cədvəlin birinci qrafasında şagirdlərin siyahısı yazılır, hər şagirdin qarşısında onun yol verdiyi xarakterik səhvlər qeyd olunur. Hər bir şaquli qrafa bir yazının mənzərəsini, üfüqi qrafa isə bir şagirdin inkişaf dinamikasını müəyyənləşdirməyə imkan verir. Müəllim hər bir şagirdin pillə-pillə necə addımladığını, dərsdəndərsə keçmiş səhvlərini necə aradan qaldırdığını izləyir, həmçinin sinfin səviyyəsinə nəzarət edə bilir. Bu cədvəl yalnız orfoqrafik savadlılıq deyil, bütövlükdə dilin mənimsənilmə dərəcəsi haqqında mühakimə yürütməyə şərait yaradır.

# İNTEQRATİVLİK PRİNSİPİNİN NƏZƏRƏ ALINMASI

İnteqrasiya təlim prosesini təkmilləşdirir, fənlər arasında qarşılıqlı əlaqə və asılılığı dərinləşdirməyə xidmət edir. İnteqrasiyanın köməyi ilə şagirdlər biliklər arasındakı qarşılıqlı əlaqəni başa düşür və həmin bilikləri şəxsi və ictimai problemlərin həllində istifadə edirlər. Ümumiyyətlə, fənlərin inteqrasiyasının dörd yolu var:

*1. İki fənni elə uyğunlaşdırmalı* ki, uyğun mövzular eyni zamanda tədris edilsin. Məsələn, təbiət haqqında mövzular həm Azərbaycan dili, həm də Həyat bilgisi fənni üzrə elə planlaşdırıla bilər ki, onların tədrisi eyni vaxta təsadüf etsin.

*2. Bacarıqların inteqrasiyası* (oxu, yazı, anlama, düşünmə). Bir çox ekspertlər bunu *tamamlama* adlandırırlar. Buna nail olmaq üçün müxtəlif kurikulumları təhlil etmək və bacarıqların bir fənn çərçivəsində tamamlanması yollarını aşkar etmək lazımdır.

*3. Bir fənn çərçivəsində inteqrasiya* (Ana dili). Yazı bacarıqlarını oxu bacarıqlarından ayrı tədris etmək əvəzinə, müəllim bu iki bacarığı inteqrasiya edir.

*4. Sərbəst inteqrasiya.* Bir fənnin tədrisi zamanı gözlənilmədən başqa fənnin mövzusuna keçid alınır.

İnteqrasiya müxtəlif səviyyələr üzrə fəndaxili və fənlərarası formada aparıla bilər.

## FƏNDAXİLİ İNTEQRASİYA

Fəndaxili inteqrasiya xidmət edir:

1. Anlayışların qarşılıqlı şəkildə əlaqəli olmasına. Bununla fənnin şagirdlər üçün daha maraqlı olmasını təmin etmək asanlaşır;

2. İctimai və təbiət fənlərinin, eləcə də riyaziyyatın tədrisi zamanı oxu və yazı kimi bacarıqların təliminə xüsusi fikir vermək lazımdır. Bu bacarıqların tədrisi yalnız ana dili fənni ilə məhdudlaşdırılmamalıdır.

## FƏNLƏRARASI İNTEQRASİYA SƏVİYYƏSİ

İnteqrativ təlimin təşkili zamanı fənlərarası inteqrasiyaya xüsusi əhəmiyyət verilir. Fənlərarası inteqrasiya təlim materiallarının digər fənlərin imkanları hesabına məzmun etibarilə genişlənməsinə, məsələlərin dərin təhlilinə və ümumiləşdirilməsinə xidmət edir.

Müəllimlər üçün aşağıdakı inteqrasiya cədvəlini tövsiyə edirik:

# MƏZMUN STANDARTLARININ REALLAŞMASI CƏDVƏLİ

| Mövzular / Standartlar | 1.1.1. | 1.1.2. | 1.2.1. | 1.2.2. | 1.2.3. | 1.2.4. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 2.2.2. | 2.2.3. | 3.1.1. | 3.1.2. | 3.1.3. | 3.1.4. | 4.1.1. | 4.1.2. | 4.1.3. | 4.1.4. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ana qucağı (I saat) | | • | | | | • | | | • | | | | • | | | | | | |
| Ana qucağı (II saat) | | | | | | | | • | | | | • | | • | | | • | | |
| Mətn (I saat) | | • | | | | • | | | | | • | | | | | | | | |
| Mətn (II saat) | | | | | | | • | • | | | | | | | | | | | |
| Mətn (III saat) | • | | • | | | | | | | | | | | • | | | | | |
| Üçüncü il (I saat) | • | • | | | | • | | | • | | | | | | | | | | |
| Üçüncü il (II saat) | | | • | | | | • | | | | | | | • | | | • | | |
| Amalım millətimi səadətə qovuşdurmaqdır (I saat) | | • | | | | • | | | | | • | | | • | | | | | |
| Amalım millətimi səadətə qovuşdurmaqdır (II saat) | | | | | | | | • | | | | • | | • | | | • | | |
| Sizi təbrik edirəm, qızlar! (I saat) | | • | | | • | • | | | • | | | | | | | | | | |
| Sizi təbrik edirəm, qızlar! (II saat) | | | | • | • | | | | | | | • | • | | | | | | |
| İnşa yazı: “Təhsil millətin gələcəyidir” | | | | | | | | | | | | • | | | | | | | |
| M.S.Ağabəyzadə (I s.) | | • | | | | • | • | | | • | • | | | | | | | | |
| M.S.Ağabəyzadə (II s.) | | | | | | • | | | | | | | | | | | • | | |
| Maarifçi fədailər – Aşurbəylilər (I saat) | | | | | | | | | • | • | • | | • | | | | | | |
| Maarifçi fədailər– Aşurbəylilər (II saat) | | | | | | • | | | | | | • | | | | | • | | |
| Uğur (I saat) | | | | • | | | • | | | | • | | • | | | | | | |
| Uğur (II saat) | | | | | | | | | | | | | • | | | | • | | |
| İnşa yazı | | | | | | | | | | | | • | | | | | | | |
| Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim (I saat) | | • | | | | • | | | | | • | | | | | | | | |
| Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim (II saat) | | | • | | | | | | | | | | | | | • | | | |

| | 1.1.1. | 1.1.2. | 1.2.1. | 1.2.2. | 1.2.3. | 1.2.4. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 2.2.2. | 2.2.3. | 3.1.1. | 3.1.2. | 3.1.3. | 3.1.4. | 4.1.1. | 4.1.2. | 4.1.3. | 4.1.4. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bir ağacın hekayəsi (I saat) | | | | | | • | | | • | | • | | • | | | | | | |
| Bir ağacın hekayəsi (II saat) | | | | | | | | | | | | • | | | | • | | • | |
| Məndə ixtiyar olsa idi (I saat) | | • | | | | | | • | • | | | | | | | • | | | |
| Məndə ixtiyar olsa idi (II saat) | | | | | | | | | | | | | | | • | | | • | |
| Mətn (I saat) | | | | • | | | • | | | | • | | • | | | | | | |
| Mətn (II saat) | | | | | | | | | | | | | | | | • | | • | |
| Qeyri-adi zəka sahibi (I saat) | • | | • | | | | | | | | | • | | • | | | | | |
| Qeyri-adi zəka sahibi (II saat) | | | | | | | | | | | | • | | | | • | • | • | |
| Ağ göyərçin | | • | | | • | • | | | • | | | | | | | | | | |
| Xoşbəxtliyin 9 yolu | | • | | | | • | | | • | | | • | | | | | | | |
| Ətrafsız həyat (I saat) | | • | | | | | • | | | | | • | • | | | | | | |
| Ətrafsız həyat (II saat) | | • | | | | | | • | | | | | | | | • | | | |
| Oğlum Məhəmmədə nəsihət (I saat) | • | • | | | | • | • | | • | | | | | | | | | | |
| Oğlum Məhəmmədə nəsihət (II saat) | | | • | | | | | | | | | | | • | | • | | • | |
| Bir şahidin beş şəhidi (I saat) | | • | | | • | | | | | • | | | | • | | | | | |
| Bir şahidin beş şəhidi (II saat) | | | | • | | • | • | | | | • | | | | | | | | |
| Bir şahidin beş şəhidi (III saat) | | | | | | | | • | | | | | • | | | | • | | |
| Səyahət mənə yaşamaq stimulu verir (I saat) | | • | | | • | • | • | | • | | | | | | | | | | |
| Səyahət mənə yaşamaq stimulu verir (II saat) | | | | • | | | | | | | | • | | | | • | | • | • |
| Mətn (I saat) | | • | | | | • | • | | | | • | | | | | | | | |
| Mətn (II saat) | | | | | | | | | | | | | | | | • | | • | |

| | 1.1.1. | 1.1.2. | 1.2.1. | 1.2.2. | 1.2.3. | 1.2.4. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 2.2.2. | 2.2.3. | 3.1.1. | 3.1.2. | 3.1.3. | 3.1.4. | 4.1.1. | 4.1.2. | 4.1.3. | 4.1.4. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yaradıcılığı gülüş və musiqi ilə yoğrulmuş xanım (I saat) | | | | | | | • | | • | • | • | | | • | | | | | |
| Yaradıcılığı gülüş və musiqi ilə yoğrulmuş xanım (II saat) | | | | | | | | | | | | • | | | | • | | • | |
| Dərman (I saat) | • | • | | | | • | • | | • | | | | | | | | | | |
| Dərman (II saat) | | | | | | | | | | | • | | | • | | • | | | |
| Bakı tarixinin ilk tədqiqatçısı (I saat) | | | | • | | | • | | | | • | | • | | | | | | |
| Bakı tarixinin ilk tədqiqatçısı (II saat) | | | | | | | • | | | | | | | | | | | • | |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (I saat) | | | | • | | | | | | | • | | • | | | | | | |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (II saat) | | • | | | | | • | • | | | | | | | | | | • | |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (III-IV saat) | | | • | | • | • | | | | | | | • | | | | | • | • |
| Azərbaycanlıların qədim yaşayış məskəni (I saat) | | • | | | | • | | | • | | | • | | | | | | | |
| Azərbaycanlıların qədim yaşayış məskəni (II saat) | | | • | | | | | | | | | | | • | • | | | • | |
| İnşa yazı: “Azərbaycan – ürəyi qan” mövzusunda inşa yazmaq tapşırılır | | | | | | | | | | | | • | | | | | | | |
| Qarı dağı (I saat) | • | • | | | | | | | • | | | | • | | | | | | |
| Qarı dağı (II saat) | | | | | • | • | | | | | | | | | | | | • | • |
| Bəyaz yelkənli teatr (I saat) | | • | | | • | • | | | • | | | | | | | | | | |
| Bəyaz yelkənli teatr (II saat) | | • | | | | • | • | | | | | | | | | | | • | |

# QİYMƏTLƏNDİRMƏDƏN DÜZGÜN İSTİFADƏ İLƏ BAĞLI TÖVSİYƏLƏR

Müəllim standartın necə mənimsənilməsi haqqında mütəmadi məlumat əldə etmədən şagirdlərin bilik, bacarıq və vərdişlərindəki çatışmazlığı, təlimdəki irəliləmə və geriləmələrini vaxtında aradan qaldıra bilməz.

Qiymətləndirmənin dəqiq və ədalətli aparılması onun pedaqoji təsirini artıran amillərdən biridir. Qiymətin yersiz artırılması, liberallıq şagirdi arxayınlaşdırdığı, onun hazırlıq səviyyəsini aşağı saldığı kimi, azaldılması, ondan cəzalandırma vasitəsi kimi istifadə edilməsi isə təlimə marağı azaldır, müəllimin ədalətsizliyinə qarşı narazılıq yaradır.

Bilik, bacarıq və vərdişlərin yoxlanması və qiymətləndirilməsində bütün şagirdlərin əhatə olunması və onlardan hər birinin hazırlığının müntəzəm aşkara çıxarılması son dərəcə vacibdir. Məlum olduğu kimi, yoxlama şifahi və yazılı ola bilər. Yazılı yoxlama işləri sinifdəki bütün şagirdlərin biliyi haqqında hökm verməyə imkan yaradır. Şifahi sorğu çox vaxt tələb edir. Həm də şifahi sorğu prosesində birinci cavab verəndən başqa hamı təsirə düşür, əvvəlkilərdən eşitdiklərini təkrarlayır.

Adətən, ən yaxşı müəllimin sinfində şagirdlərin hər biri vaxtaşırı sorğuda iştirak edir və müvafiq qiymət alır. Təlimin ənənəvi üsulları ilə işlədikdə müəllim hər dərsdə ən çox yalnız 3-4 şagirdlə işləyir və onların hazırlıq səviyyəsini öyrənə bilirdi. O, materialın hər bir şagird tərəfindən və həmişə necə mənimsənildiyini görə bilmirdi. Ona görə də indi yoxlama məqsədilə əks-əlaqədən geniş istifadə edilir.

Qiymətləndirmə müxtəlif üsul və vasitələrin seçilib tətbiq edilməsi ilə müşayiət olunan prosesdir. Vasitələrin hazırlanması planlaşdırılmış proses olmalıdır. Bu zaman aşağıdakı prinsiplərə riayət olunur:

- Seçilmiş üsul və vasitənin məqsədəuyğun olması;
- Hazırlanan materialların keyfiyyətəmüvafiq və etibarlı olması;
- Qiymətləndirmə zamanı şəffaflıq, ədalətlilik və əməkdaşlığın gözlənilməsi;
- Qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Qiymətləndirmədə müxtəlif tipli suallar nəzərdə tutula bilər. İmtahan sualları yazılarkən dörd məqama hər zaman diqqət yetirilməlidir:

- Həqiqilik – tapşırıq və suallar reallığı əks etdirməli, cəfəngiyyatdan kənar olmalıdır.

• Səmərəlilik – verilən sualların şagird təfəkkürünün formalaşmasındakı rolu mühümdür. Bu baxımdan, onlar yararsız olmamalıdır.
• Obyektivlik – qiymətləndirmə obyektiv aparılmalı, qərəzli mövqe əks etdirməməlidir.
• Spesifiklik – fənnin məqsəd və vəzifəsinə uyğunluq mütləq nəzərə alınmalıdır.

Qiymətləndirmə üçün seçilmiş sual və tapşırıqlar müxtəlif məzmunda olduğu kimi, formaca da rəngarəng olmalıdır. Müxtəlif sual tiplərinin işlənməsi imtahan prosesini və nəticələri daha uğurlu etmək üçün vacibdir. Ən çox istifadə olunan sual tipləri aşağıdakılardır:

– Çoxseçimli qruplaşdırma;
– Düz/səhv;
– Sıralama;
– Standart çoxseçimli;
– Uzlaşdırma;
– Ən yaxşı cavab.

Çoxseçimli suallardan istifadə edilən zaman məzmuna dair seçimlər etmək daha asan olur. Yüksək etibarlılıq və səmərəlilik bu tipin əsas göstəriciləridir. Bu tapşırıqların obyektiv və ölçüləbilən olması onu daha çox seçilən edir. Mexaniki qiymətləndirmə aparmağa, bir çox sualı eyni vaxtda soruşmağa imkan verir. Etibarlılığı və validliyi yüksəkdir. Hazırlanması uzun zaman və peşəkarlıq tələb edir. Qiymətləndirilməsi isə az vaxt tələb edir və asandır. Cavabın qiymətləndirilməsində obyektivlik təmin edilir. Tapşırığın çətinlik dərəcəsini təyin etmək asandır.

Lakin bu tapşırıq tipinin çatışmazlıqları da var. Təsadüfi nailiyyət ehtimalı yüksəkdir. Mövzu haqqında anlayışı olmayan şagird bəxtlə doğru cavabı tapa bilər. Cavablandıranın fikirlərini ifadəetmə xüsusiyyətini ölçə bilmir.

Sualın formalaşdırılması zamanı bir neçə məqam nəzərə alınmalıdır:

• Dəqiq suallardan istifadə edilməli;
• İnkardan mümkün qədər az istifadə edilməli;
• Düzgün cavabın səhv fikrə əsaslanmamasına diqqət yetirilməli.

Hər tapşırıq mütləq əhəmiyyətli bir bacarığı ölçməlidir. Tapşırığın mətni variantlar nəzərə alınmadan tək və əsas bir fikri ifadə etməlidir. Mətnlə bağlı bəzi detallar nəzərdən qaçmamalıdır. Onlar aşağıdakılardır:

– mətn problemin mümkün qədər az sayda amillərini əhatə etməli;
– aydın və sadə dillə yazılmalı;
– şərhə ehtiyacı olan ifadələr olmamalı;
– bir tapşırıq başqasına açar olmamalı;
– variantlar ifadə, qrammatika və mövzu baxımından müvafiq olmalıdır.

Uyğunlaşdırma tapşırıqları geniş vüsət alan tapşırıq tiplərindən biridir. Bu tip tapşırıqlar çoxseçimli və doğru-yanlış tipli tapşırıqların sintezidir. Cavablandırma prosesi iki dəst halında olan soruşulanlar və cavablar arasında doğruluq əlaqəsinin qurulmasına əsaslanmalıdır. Qısa zamanda daha çox tapşırığın cavablandırılması mümkündür. Cavablar konkret olduğundan balvermə obyektivdir, tətbiqi asandır.

Nailiyyəti ölçmək üçün qapalı və çoxseçimli suallardan daha maraqlı vasitələr açıq sual növləridir. Bu suallar müxtəlif cür olur.

• Qapalı və ya tamamlayıcı suallar

Vasitəsiz nitq …..

• Qısa cavablı suallar

Hansı növ cümlələrdə nida işarəsi qoyulur?

• Geniş cavablı suallar

Nə üçün …… olduğunu izah edin.

• İnşa tipli suallar

“Düzgün qərar” əsərində qərarı şərh edin.

Açıq sualların yazılması üçün məsləhətlər aşağıdakılardır:

• Sualı yoxlamaq üçün standart cavabdan istifadə edin.
• Cavabı gizlədən strukturdan uzaq qaçın.
• Sualı məlumat və sual hissələrinə bölün.
• Konkret sual formasından istifadə edin.
• Şagird özü fikirləşib yazmalıdır.

Qısa cavablı tapşırıqlardan hər hansı bir mövzu ilə bağlı faktoloji bilikləri qiymətləndirmək üçün istifadə edilir. Cavablar “cümləni tamamlamaq, təsvir etmək, qısa şəkildə şərhlər, ya da cədvəl-qrafik” şəklində göstərilə bilər. Daha çox xatırlama qabiliyyətini (hafizəni) ölçür. Qısa müddətdə daha çox sual soruşmaq mümkündür.

# ŞİFAHİ CAVABLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

Şifahi sorğu şagirdlərin bilik, bacarıq və vərdişlərinin hesaba alınmasının mühüm qaydasıdır. Şifahi cavablar qiymətləndirilərkən aşağıdakı meyarlar diqqət mərkəzinə qoyulur: 1) cavabın tamlığı və düzgünlüyü; 2) ifadə olunan biliklərin mənimsənilməsinin şüurluluq dərəcəsi; 3) ifadənin ardıcıllığı və nitq mədəniyyəti.

Şagirdin tam cavabı müəllimin verdiyi mövzuda rabitəli çıxış təsəvvürü verməli və öyrənilmiş materialın şagirdlər tərəfindən şüurlu mənimsənilməsini bildirməlidir. Cavabı (qaydanı, tərifi) öz misalları ilə təsdiq etmək, müəllimin tapşırığı ilə mətndə bu və ya digər qrammatik kateqoriyanı (cümlə üzvləri, nitq hissələri, sözün hissələri, hal, cins, şəxs və s.) dərk etdiyini nümayiş etdirmək, müəyyən qaydaya aid sözü tapmaq, sözlərin yazılışını izah etmək və praktik çalışmaları müstəqil yerinə yetirmək bacarığı nəzərə alınmalıdır.

Şagirdlərin nitqinin formalaşmasının ilkin mərhələsində onların şifahi cavabları sübutlu, kifayət qədər müstəqil və nitq tərtibi cəhətdən – fikrin ifadə olunmasının ardıcıllığının gözlənməsi, sözlərin işlənməsində, cümlələrin və söz birləşmələrinin qurulmasında ədəbi dil normalarının gözlənilməsi baxımından düzgün olmalıdır.

Şifahi nitq bacarıqlarının səviyyələndirilməsini aşağıdakı cədvəldə müşahidə etmək mümkündür:

| Səviyyələr | Şifahi nitq bacarıqları |
|---|---|
| IV | Tam və düzgün cavab verir.<br>Materialı şüurlu mənimsəyib.<br>Cavabı öz misalları ilə təsdiq edir.<br>Mətndə öyrənilmiş qrammatik kateqoriyaları dərk edir.<br>Sözlərin yazılışını və durğu işarələrinin işlənməsini izah edir.<br>Rabitəli, ardıcıl, nitq qüsurları olmadan cavab verir. |
| III | Cavabın nitq cəhətdən tərtibində səhvlərə yol vermir.<br>Qaydanı misallarla təsdiq edir.<br>Mətn üzərində işdə səhvlərə yol verir.<br>Sözlərin və cümlələrin tələffüzündə müəyyən qeyri-dəqiqliyə yol verir.<br>Səhvləri müstəqil və ya müəllimin köməyi ilə asanlıqla düzəldir. |

| | |
|---|---|
| II | Yönəldici suallara yarımçıq cavab verir.<br>Qaydanı öz misalları ilə müstəqil təsdiq etməkdə çətinlik çəkir.<br>Mətnlə iş zamanı səhvlər buraxır.<br>Materialı rabitəsiz, bir qədər qeyri-ardıcıl ifadə edir.<br>Sözlərin, söz birləşmələri və ya cümlələrin işlədilməsində qeyri-dəqiqliklərə yol verir. |
| I | Öyrənilmiş materialın mahiyyətini izah edə bilmir.<br>Qaydanın, tərifin formalaşdırılmasında onların mənasını təhrif edən səhvlərə yol verir.<br>Sözlərin və cümlələrin tələffüzündə səhvlər buraxır, onları hətta müəllimin yönəldici suallarının köməyi ilə də düzəldə bilmir.<br>Nitqi qeyri-ardıcıl və nöqsanlıdır. |
| Şagirdin soyadı, adı və atasının adı: İbrahimov Ramiz Rəşadət oğlu | |

# CARİ PLANLAŞDIRMAYA NÜMUNƏLƏR

## Mövzu 1

### Ana qucağı

**Məzmun standartları:**

**1.1.2., 1.2.4., 2.2.1., 3.1.2.**

**Məqsəd:**

- Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir.
- Fikirləri ümumiləşdirərək yığcam təqdim edir.
- Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur.
- Öz fikirlərini əsaslandırır.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş formaları:**

kollektiv və cütlərlə iş

**İş üsulları:**

anlayışın çıxarılması, müzakirə

**Resurslar:**

lüğət, iş vərəqləri, İsmayıl Həqqi, Bəxtiyar Vahabzadənin seçilmiş əsərləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Bunun üçün aşağıdakı mətndən istifadə etmək olar:

*Gənc ana şəhərin ən müasir bağçalarından birinə gəlmişdi. Yaşı yenicə tamam olmuş uşağını bu bağçaya verəcək və çoxdan arzusunda olduğu "doğma iş"inə qayıdacaqdı. Qadın içəri girər-girməz müdirin otağını soruşdu. İçəri daxil olmaq üçün icazə istədi. Burada çox vaxt itirmək istəmirdi. Odur ki birbaşa mətləbə keçdi:*

*– Uşağımı bu bağçaya vermək istəyirəm. Eşitdiyimə görə, burada uşağa yaxşı baxırlar.*

*Müdir gözlüyünü düzəldərək:*

*– Düz eşitmisiniz. Hər şey dediyiniz kimidir, – deyə cavab verdi.*

*Gənc qadın çox sevindi və sevinclə qucağındakı körpəyə baxdı. Müdir bir neçə sənəd çıxartdı. Sənədləri qadına uzadıb:*

*– Müqaviləni aylıq bağlayırıq, – dedi.*

*Qadın müqavilənin şərtlərini nəzərdən keçirdi. Axırıncı bəndə çatanda soruşdu:*

*– Bütün bəndləri başa düşdüm, ancaq bu son bəndi başa düşə bilmədim.*

*Müdir üzündə təbəssüm:*

*– Hə, bu, çox mühüm bənddir, – dedi. Paltarlarınızdan birini bizə verməlisiniz. Yun jaket və ya xalat da ola bilər.*

*Ananın heç nə başa düşmədiyini hiss edən müdir ciddiyyətlə dedi:*

*– Yatarkən körpələri bu paltarlara bürüyürük. Bu paltarlar onlara ana qucağını əvəz edir.*

Müəllim bu mətni şagirdlərə oxuyur, “ana qucağı” ifadəsini səsləndirmir, həmin ifadənin

şagirdlər tərəfindən söylənilməsinə zəmin yaradır. Əgər çətinlik yaranarsa, müəllim yönəldici suallardan, kəlam və aforizmlərdən istifadə edə bilər.

*Anaların qucağı* birləşməsi auditoriyadan alındıqdan sonra mətnin oxusuna başlanılır. 1-ci tapşırığın şərtlərinə uyğun olaraq mətn oxunur. Oxu zamanı "1-ci cümlədəki fikrə münasibət bildirin" sualından başqa digər mətndaxili suallar cavablandırılır. Sonuncu sualın cavabı "ana qucağı"dır. Daha sonra B.Vahabzadənin şeiri oxudulur. 9-cu səhifədəki "1-ci cümlədəki fikrə münasibət bildirin" sualı ətrafında yığcam müzakirə təşkil olunur. Həmin şeirin 9-cu səhifədəki 1-ci çərçivədəki cümlələrlə müqayisəsi aparılır. Müqayisə aparmaq üçün əsas diqqət "Əgər o, məktəb görmüş bir qadın olsaydı, ....." cümləsinə yönəldilir. Daha sonra aşağı siniflərdə ana haqqında keçilmiş mövzular auksionla soruşulduqdan sonra məzmunla bağlı tədqiqat sualı formalaşdırıla bilər.

**Tədqiqat sualı:** *Əsərin əsas ideyası nədən ibarətdir?*

**Tədqiqatın aparılması:** Şagirdlər cütlərə bölünür və onlara tədqiqat xarakterli suallar ünvanlanır. I cütə dərslikdəki 2-ci, II cütə 3-cü, III cütə 4-cü, IV cütə 5-ci, V cütə 6-cı, VI cütə 7-ci, VII cütə 8-ci, VIII cütə 9-cu, IX cütə 13-cü, X cütə 16-cı tapşırıq verilərək birlikdə işləmələri tapşırılır.

**Məlumat mübadiləsi və müzakirə:** Cütlərin təqdimatları dinlənilir. 12-ci tapşırıq bu mərhələdə icra edilir.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətndə təlim və tərbiyənin mahiyyətindən, valideynlərin uşağın tərbiyəsindəki rolundan danışılır. Uşaq ilk tərbiyəni evdə valideynlərindən alır. Ağıl və bilik insanın ən dəyərli varlığıdır. Tərbiyə və təlim vəhdətdə olmalıdır. Bunu əldə etməyin əsas yolu elmdən və məktəbdən keçir.

**Yaradıcı tətbiqetmə:** 10-cu tapşırıq verilir.

**Ev tapşırığı:** 11 və 17-ci tapşırıqların yerinə yetirilməsi tapşırılır.

***Qeyd.*** 11-ci tapşırıq növbəti mərhələlərdə 2.2.2. standartının reallaşdırılması üçün zəmin yaradır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun müəyyənləşdirilmiş meyarlar əsasında dərsin sonunda və ya intervallarla mərhələli şəkildə aparıla bilər. Bu zaman münasibətbildirmə, fikri yığcam ifadəetmə, düzgünoxuma meyarlarına əsaslanmaq olar.

| Cütlər / Meyarlar | I | II | III | IV | V | VI | VII | VIII | IX | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Münasibətbildirmə | | | | | | | | | | |
| Yığcam təqdimetmə | | | | | | | | | | |
| İntonasiya ilə oxuma | | | | | | | | | | |
| Fikirlərini əsaslandırma | | | | | | | | | | |
| Cəmi | | | | | | | | | | |

## Mövzu 2

### Ana qucağı

**Məzmun standartları:**

**2.1.2., 3.1.3., 4.1.2.**

**Məqsəd:**

- Həqiqi və məcazi mənalı sözlərin mənasını dəqiqləşdirməklə şərh edir.
- Mətnin hissələri arasında əlaqəni gözləməklə yazısını təkmilləşdirir.
- Söz və söz birləşmələrini cümlədə mübtəda vəzifəsində işlədir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

Həyat bilgisi – 2.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.

**İş formaları:**

cütlərlə və fərdi iş

**İş üsulları:**

debat, suallar, diskussiyalı oxu

**Resurslar:**

lüğət, iş vərəqləri, sxemlər

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları sxemi fərdi şəkildə təqdim edirlər. Daha sonra hazırlanan mətnlər dil baxımından təhlil olunur. Hazırladıqları mətnlə tədris olunan mətn arasındakı fərqi aydınlaşdırdıqdan sonra keçilən mətnin semantikası təhlil olunur.

**Tədqiqat sualı:** *Mətnin hansı xarakterik cəhətləri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər cütlərə bölünür və onlara tədqiqat xarakterli suallar ünvanlanır. I cütə dərslikdəki 14-cü, II cütə 15-ci, III cütə 18-ci, IV cütə 19-cu, V cütə 20-ci, VI cütə 21-ci, VII cütə 22-ci, VIII cütə 23-cü, IX cütə 24-cü, X cütə 26-cı, XI cütə 27-ci, XII cütə 28-ci tapşırıqlar verilərək birlikdə işləmələri tapşırılır.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Cütlərin təqdimatları dinlənilir. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Təhlilin sonunda mətnin xarakterik cəhətləri ilə bağlı nəticə çıxarılır.

**Nəticələrin çıxarılması:** Mətn şagirdlərin söz ehtiyatının artırılması baxımından əlverişlidir. Sinonim və antonimlərin işlənilməsi mətni daha da zənginləşdirir.

**Yaradıcı tətbiqetmə:** 25-ci tapşırıq əsasında aparılır. Mətnin ardıcıllığı belədir: 3, 2, 1, 4.

Bərpa edilmiş mətnin əsas ideyası ilə "Ana qucağı" mətnində ifadə olunan fikir müqayisə edilir. Bir daha vurğulanır ki, uşağın tərbiyəsinin formalaşmasında, ilk növbədə, ailənin, daha sonra ailənin və məktəbin qarşılıqlı əlaqəsinin mühüm rolu vardır. Hər iki mühitdə verilən tərbiyənin cəmiyyətin qurulmasında əhəmiyyəti çox böyükdür.

***Qeyd.*** Mətn "Rəvayətli ifadələr" kitabından götürülmüşdür. Həmin kitabda mətnin adı "Dəvə oğurluğu yumurta oğurluğundan başlayır" kimi verilmişdir. Şagirdlər özləri də mətnə müvafiq adlar verə bilərlər.

**Ev tapşırığı:** 29-cu tapşırıq verilə bilər.

**Qiymətləndirmə:** Dərsin məqsədlərinə görə müəyyən edilmiş meyar cədvəlinə əsasən aparılır. Qiymətləndirmədə dəqiqləşdirmə, təkmilləşdirmə, cümlədə işlətmə bacarıqları nəzərə alınmalıdır.

| Cütlər / Meyarlar | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirmə | | | | | | | | | | | | |
| Mətnin hissələri arasında əlaqəni gözləməklə özünün yazısını təkmilləşdirmə | | | | | | | | | | | | |
| Söz və söz birləşmələrini cümlədə mübtəda vəzifəsində işlətmə | | | | | | | | | | | | |
| Cəmi | | | | | | | | | | | | |

# Mövzu 3

## Mətn (dərslik səh. 15)

### Məzmun standartları:

**1.1.2., 1.2.4., 2.2.3.**

### Məqsəd:

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Mətndəki fikirləri dəyərləndirir.

### İnteqrasiya:

Coğrafiya – 3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.

### İş formaları:

kollektiv, qrupla və fərdi iş

### İş üsulları:

anlayışın çıxarılması (karusel, klaster), rollu oyunlar, müzakirə

### Resurslar:

xəritə, Məhəmmədhüseyn Şəhriyarın seçilmiş əsərləri, iş vərəqləri, sxemlər

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Ev tapşırığı seçmə yolla oxudulur. Şagirdlərin yazdığı mətnlərdə ifadə olunan fikirlər yığcam müzakirə edilir. Bu tapşırıqlardan motivasiya məqsədilə də istifadə etməklə müəllim yeni dərsə keçid edə bilər.

Motivasiya məqsədilə anlayışın çıxarılması, karusel və ya klaster üsullarından istifadə edə bilər. "Heydərbabaya salam" poemasından müəyyən bir hissəni səsləndirmək, yaxud tanınmış xanəndələrin ifasında həmin poemaya bəstələnmiş musiqini dinləməklə də motivasiya yaratmaq olar.

Daha sonra dil, ana dili barədə şagirdlərin fkirləri soruşulur. "Sizcə, dil öyrənmək üçün ilk mühit hansıdır?" sualı ilə şagirdlərə müraciət olunur. Şagirdlərdən müxtəlif cavablar alına bilər. Müəllim şagirdlərin cavablarını təsdiq və ya inkar etmədən mətnin oxusu üzərində iş təşkil edir. Mətnin oxusu zamanı 9-cu sualın şərti icra edilir.

"Səsli oxu"dan istifadə etməklə də mətnin oxusunu təşkil etmək olar. Oxu zamanı mətndaxili sual cavablandırılır. Mətn şagirdlərdən biri tərəfindən oxunur. Müəllim şagirdlərlə mətndən götürülmüş "Evimizdə həbs etdin türkcəni" fikri əsasında müzakirə təşkil edir. Sonra məzmunun necə qavranılmasını aydınlaşdırmaq üçün tədqiqat sualı lövhədə qeyd olunur.

**Tədqiqat sualı:** *Mətndə Şəhriyarın dilə münasibəti öz əksini necə tapmışdır?*

**Tədqiqatın aparılması:** Şagirdlər 5 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 1, 2-ci, II qrupa 3, 4-cü, III qrupa 6-cı, IV qrupa 8-ci, V qrupa 10-cu tapşırıq verilir.

***Qeyd.*** 6 nömrəli tapşırıq növbəti dərslərdə 1.2.3. standartının reallaşması üçün zəmin hesab edilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Təqdimatlar dinlənilir. Müzakirənin sonunda nəticə çıxarılır.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, Şəhriyarın dilimizin saflığı uğrunda mübarizəsi təqdirəlayiqdir.

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki 7-ci tapşırıq üzrə aparılır.

**Ev tapşırığı:** Dərslikdəki 5-ci tapşırıq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun dörd çətinlik səviyyəsində müəyyənləşdirilmiş meyarlar əsasında dərsin sonunda və ya intervallarla mərhələli şəkildə aparıla bilər. Qrup işinin qiymətləndirilməsində verilmiş meyarlar cədvəlinə əsaslanmaqla münasibətbildirmə, təqdimetmə, dəyərləndirmə bacarıqları nəzərdən qaçmamalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirə bilmir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini çətinliklə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini ətrafın köməkliyi ilə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirləri yığcam şəkildə təqdim edə bilmir. | Fikirləri yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirləri yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki fikirləri, əsasən, dəyərləndirir. | Mətndə səslənən fikirləri dəyərləndirir. |

## Mövzu 4

### Mətn (dərslik səh. 15)

**Məzmun standartları:**

**2.1.1., 2.1.2.**

**Məqsəd:**

- Tanış olmayan söz və ifadələrin mənasını şərh edir.
- Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirir.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş formaları:**

kollektiv, qrupla və fərdi iş

**İş üsulları:**

müzakirə, suallar, səsli oxu

**Resurslar:**

lüğət, iş vərəqləri, sxemlər

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları 5-ci tapşırığı oxuyur və müzakirə aparırlar. Mətnin özünəməxsus cəhətlərini aydınlaşdırmaq məqsədilə tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətnin hansı özünəməxsus cəhətləri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər verilmiş parçanı əsas mətnlə əlaqələndirirlər. Daha sonra qruplara bölünüb tədqiqat xarakterli sualları aydınlaşdırırlar. I qrupa 11, II qrupa 12, 17, III qrupa 13, 16 (ilk 4 cümlə), IV qrupa 15, 16-cı (növbəti cümlələr) tapşırıqlar verilir.

***Qeyd.*** *Son* və *axırıncı* sözləri sinonim deyil. Şagirdlər aşağı siniflərdən fərqli qrammatik mənaya malik sözlərin sinonim olmadığı haqqında biliyə malikdirlər.

**Məlumat mübadiləsi və müzakirə:** Qrupların təqdimatı dinlənilir. Hadisələrin cərəyan etdiyi dövrdə dilə olan münasibət müzakirə olunur. Müzakirənin sonunda nəticə çıxarılır.

**Nəticələrin çıxarılması:** Tədqiqat nəticəsində müəyyənləşir ki, mətn ana dilimizə

yüksək məhəbbət və hörmət hissi aşılayır. Əsas mətnlə bağlılığı hər iki şairin dilini sevməsində, onun uğrunda mübarizə aparmasındadır.

Mətnin dili sadə və anlaşıqlıdır. Məzmunu çatdırmaq üçün sadə sözlərdən və cümlələrdən istifadə olunmuşdur. Giriş, əsas hissə və nəticə arasında məntiqi bağlılıq vardır. "Gün batmışdı..." cümləsi ilə başlanan mətnin "... və türkcə ilk şeirini" cümləsi ilə bitməsi yeni başlanğıcın başlanması kimi mənalandırılır. Yeni başlanğıc Cənubi Azərbaycanda ilk anadilli şeirin yaranmasıdır.

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki 19-cu tapşırıq verilə bilər.

**Ev tapşırığı:** Dərslikdəki 20-ci tapşırığın hazırlanma qaydası şagirdlərə izah olunduqdan sonra evə verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun dörd çətinlik səviyyəsində müəyyənləşdirilmiş meyarlar əsasında dərsin sonunda və ya intervallarla mərhələli şəkildə aparıla bilər. Verilmiş meyar cədvəlinə əsaslanaraq şagirdləri simvol və ballarla qiymətləndirmək tövsiyə olunur. Bu zaman şərhetmə və dəqiqləşdirmə bacarıqları qiymətləndirmənin əsas meyarlarıdır.

***Qeyd.*** 19-cu tapşırığın cavabı:

| | |
|---|---|
| 1) Xalqın, vətənin taleyi ... | yalnız zəhmətlə qazanmaq olar. |
| 2) Eyiblərin ən böyüyü ... | ruhun zindanıdır. |
| 3) Böyük sevinci ... | hər bir insanın taleyinə çevrilməlidir. |
| 4) Paxıllıq ... | öz eybini görməməkdir. |
| 5) Xoşbəxtlik ... | insanlara hörmət və sevgidir. |

(1 → hər bir insanın taleyinə çevrilməlidir; 2 → öz eybini görməməkdir; 3 → yalnız zəhmətlə qazanmaq olar; 4 → ruhun zindanıdır; 5 → insanlara hörmət və sevgidir.)

| I | II | III | IV |
|---|---|---|---|
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etmir. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirmir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirməkdə çətinlik çəkir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını müəyyən düzəlişlərlə dəqiqləşdirir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirir. |

## Mövzu 5

### Mətn (dərslik səh. 15)

**Məzmun standartları:**

**1.1.1., 1.2.1., 3.1.3.**

**Məqsəd:**

- Tədqiqat xarakterli suallar verir.
- Dil vahidlərindən istifadə əsasında mətnlər qurur.
- Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.2.1. Əsas insan hüquqlarının Beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır.
Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.
Azərbaycan tarixi – 1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

**İş formaları:**

böyük qruplarla iş

**İş üsulları:**

beyin həmləsi, müzakirə, suallar

**Resurslar:**

xəritə, beynəlxalq hüquq normaları, dillə bağlı qanunlarımız, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə beynəlxalq insan hüquqlarının bizə verdiyi haqlarla bağlı müzakirə ilə başlaya bilər. Hər bir vətəndaşın öz ana dilində danışmaq hüququnun və dilin zənginliyinin qorunmasının bir vəzifə olması şagirdlərin diqqətinə çatdırılmalıdır. Motivasiya məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsindən (I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir; II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir) istifadə etmək olar. Müəllim uyğun və məqsədəmüvafiq hesab etdiyi digər mənbələrdən də motivasiya məqsədilə istifadə edə bilər.

**Tədqiqat sualı:** *Dil nə üçün qorunmalıdır?*

**Tədqiqatın aparılması:** Müəllim sinfi 2 böyük qrupa bölür (sinif 4 qrupa da bölünə bilər). I qrupa dərslikdəki 21-ci, II qrupa 22-ci tapşırıq verilir. Bu tapşırığın icrası üçün şagirdlərə 20-25 dəq. kifayət edər. Sadəcə, qruplarda şagirdlər arasında vəzifə bölgüsü düzgün aparılmalıdır, yəni hər bir şagirdin görəcəyi iş düzgün müəyyənləşdirilməlidir. Müəllim çalışmalıdır ki, şagirdlər hazırladıqları mətnin həcminə deyil, daha çox məzmunun dolğun olmasına və lazımi fikirlərin çatdırılmasına diqqət yetirsinlər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Tapşırıq bu mərhələdə yerinə yetirilir. Dillə bağlı mətn oxudulur, fikirlər dinlənilir. Şa-

girdlərin gəldiyi qənaətlə mətndə ifadə olunan fikirlər tutuşdurulur. Mətnaltı suallar cavablandırılır. Sağ sütundakı cümlələr üzərində iş aparılır. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır.

**Nəticələrin çıxarılması:** Şagirdlər bu nəticəyə gəlirlər ki, dil fikirlərimizin, duyğu və düşüncələrimizin ifadə vasitəsi olmaqla yanaşı, həm də müstəqilliyimizin, milli kimliyimizin, varlığımızın təsdiqidir. Dilimiz keçmişimizi öyrənmək, bu günümüzü yaradıb gələcəyə ötürmək, milləti yaşatmaq üçün vacib və əhəmiyyətli ünsiyyət vasitəsidir. Şagirdlər yeri gəldikcə görkəmli şəxslərin dillə bağlı kəlamlarından, şeirlərdən və s. misallar göstərməklə öz fikirlərini təsdiqləyə bilərlər.

Dərsin sonunda müəllim "Gəlin dilimizi qoruyaq" (ad dəyişdirilə bilər) adlı dəyirmi masanın təşkli ilə bağlı müzakirə apara, şagirdlərə bununla bağlı tövsiyələr verə bilər. Dəyirmi masanın (yaxud hər hansı bir tədbirin) keçirilməsi üçün gün müəyyənləşdirilir, dərsdən sonrakı vaxtda hazırlıq işləri görülür.

**Yaradıcı tətbiqetmə:** "Gəlin dilimizi qoruyaq" adlı dəyirmi masanın elanını yazmaq tapşırılır.

**Ev tapşırığı:** Evə dilimizin qorunması ilə bağlı tədbirlər planı və ya tövsiyələr hazırlamaq verilə bilər.

**Müəllimin nəzərinə:** Dərsliyin 21-ci səhifəsində verilən tapşırıqlarda əsas məqsəd şagirdlərdə ana dilinin saflığının keşiyində durmaq, onu sevmək kimi hisslər aşılamaqdır. Bu səhifədə verilən tapşırıqların yerinə yetirilməsi üçün sinfin səviyyəsi imkan verirsə, o zaman müəllim əlavə dərs saatı da ayıra bilər.

**Qiymətləndirmə:** Dərsin təlim məqsədinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən aparılır. Sualvermə, mətnqurma, təkmilləşdirmə bacarıqları diqqətdə saxlanmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Tədqiqat xarakterli suallar verməyi bacarmır. | Tədqiqat xarakterli suallar verməkdə çətinlik çəkir. | Tədqiqat aparmağa kömək edən suallar verir. | Məzmuna uyğun tədqiqat xarakterli suallar verir. |
| Dil vahidlərindən istifadə əsasında mətnlər qurmağı bacarmır. | Dil vahidlərindən istifadə əsasında mətnlər qurmaqda çətinlik çəkir. | Dil vahidlərindən istifadə əsasında mətn qurur. | Dil vahidlərindən məqsədli istifadə əsasında mətnlər qurur. |
| Mətnin hissələri, abzasları və cümlələri arasında əlaqə tapmağı bacarmır. | Mətnin cümlələri arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir. | Mətnin hissələri, abzasları arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir. | Mətnin hissələri, abzasları və cümlələri arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir. |

## Mövzu 6

### Üçüncü il

### Məzmun standartları:

**1.1.1., 1.1.2., 1.2.4., 2.2.1.**

### Məqsəd:

- Tədqiqat xarakterli suallar verir.
- Səslənən fikirlərə münasibət bildirir.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Mətni tələb olunan intonasiya ilə oxuyur.

### İnteqrasiya:

Azərbaycan tarixi – 3.1.1. Müstəmləkə rejimi və müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.
Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

### İş formaları:

qrupla və fərdi iş

### İş üsulları:

müzakirə, beyin həmləsi, tənqidi oxu

### Resurslar:

lüğət, iş vərəqləri, C.Məmmədquluzadənin seçilmiş əsərləri (IV cild)

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə C.Məmmədquluzadənin "Meymunlar" və ya "Mini-mini masallar" felyetonlarının oxusu ilə başlamaq olar. Şagirdlərə bu felyetonlardakı dilimizin saflığının qorunması ilə bağlı çağırışlar çatdırıldıqdan sonra dövrün xarakterik xüsusiyyətləri ilə bağlı fikirləri soruşula bilər. Dilimizin qorunması ilə bağlı tədris olunan əsərlərin adları auksionla soruşulduqdan sonra mətnin fasilələrlə oxusuna keçid almaq olar. Mətnin oxusu zamanı müəllim "Yazıçı "nə üçün bu bizim dil deyil" – deyir?", "Mətnin sonuncu cümləsində hansı fikir təbliğ edilir?" və s. suallarla sinfə müraciət edir.

**Tədqiqat sualı:** *Mətndə müəllifin çatdırmaq istədiyi əsas fikir nədən ibarətdir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları yerinə yetirirlər. I qrupa dərslikdəki 1 və 6-cı, II qrupa 2 və 3-cü, III qrupa 4-cü, IV qrupa 5-ci tapşırıq verilir. Müəllim qruplara tapşırıqları təqdim edərkən şagirdlərin səviyyəsini nəzərə almalıdır. 4 və 5-ci tapşırıqlar çətin olduğu üçün müəllim onları səviyyələri daha yüksək olan şagirdlərə təqdim etməlidir.

4-cü və 5-ci tapşırıqların şagirdlər tərəfindən icrası üçün müəllim onları resurslarla təmin etməlidir (C.Məmmədquluzadənin "Bizim obrazovannılar" mətni, XIX əsrin sonu və XX əsrin əvvəllərində dövrü xarakterizə edən materiallarla, "O olmasın, bu olsun" filmi, M.Ə.Sabirin ana dili ilə bağlı şeirləri və s.).

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəl-

lim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə mərhələsində 8-ci tapşırıq istifadə oluna bilər. Müəllim Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” əsəri əsasında çəkilmiş filmdən Rüstəm bəyin evindəki qonaqlıq məclisini nümayiş etdirməklə “Danışıq dili necə olmalıdır?” mövzusunda müzakirəni davam etdirə bilər. Daha sonra 8-ci tapşırıq icra edilir.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətndə müəllifin çatdırmaq istədiyi əsas fikir dilimizi yad təsirlərdən qorumaq üçün səfərbər olmağımızdır. Yad ünsürlərin dilimizi istila etməsi sonda məhvə gətirib çıxara bilər.

**Yaradıcı tətbiqetmə:** 7-ci tapşırıq əsasında aparılır.

**Ev tapşırığı:** 9-cu tapşırıq verilir. Müəllim dərs dediyi sinifdə IV səviyyəyə uyğun hesab etdiyi şagirdinə (şagirdlərə) hər hansı bir dərslik haqqında təqdimat hazırlamağı tapşıra bilər. Bunun üçün şagirdə aşağıdakı məzmunda plan təqdim edilir:

1. Hər hansı bir dərsliyin seçilməsi (şagird seçimdə sərbəstdir);
2. Dərsliyin məzmunu haqqında yığcam məlumat;
3. Dərslikdə əks olunan materiallarla bağlı yığcam məlumat;
4. Dərsliyin müasir dövrə uyğunluğu;
5. Dərsliyin şagird maraqlarına uyğunluğu;
6. Rəsm və illüstrasiyaların, sxemlərin, cədvəllərin məzmuna uyğunluğu;
7. Dərslikdə milliliyin nəzərə alınması;
8. Təkliflər.

***Qeyd.*** Müəllim planı dəyişə bilər.

**Qiymətləndirmə:** Dərsin təlim məqsədinə uyğun dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən aparılır. Sualvermə, münasibətbildirmə, yığcam təqdimetmə, intonasiya ilə oxuma bacarıqlarının qiymətləndirilməsi diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Tədqiqat xarakterli suallar verməyi bacarmır. | Tədqiqat xarakterli suallar verməkdə çətinlik çəkir. | Tədqiqat aparmağa kömək edən suallar verir. | Məzmuna uyğun tədqiqat xarakterli suallar verir. |
| Mətndəki fikirləri dəyərləndirmir. | Mətndəki fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Mətndəki fikirlərə qismən münasibət bildirir. | Mətndə səslənən fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirləri yığcam şəkildə təqdim etmir. | Fikirləri yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirləri yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Mətni tələb olunan intonasiya ilə oxumağı bacarmır. | Mətni tələb olunan intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətnin əksər hissələrini intonasiya ilə oxuyur. | Mətni tələb olunan intonasiya ilə oxuyur. |

# Mövzu 7

## Üçüncü il

### Məzmun standartları:

**1.2.1., 2.1.1., 3.1.3., 4.1.2.**

### Məqsəd:

- Dil vahidlərindən istifadə edərək mətn qurur.
- Tanış olmayan sözlərin mənasını şərh edir.
- Mətndə cümlələr arasında əlaqəni gözləyərək yazısını təkmilləşdirir.
- Söz və söz birləşmələrini tamamlıq vəzifəsində işlədir.

### İnteqrasiya:

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.
Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

beyin həmləsi, müzakirə, suallar

### Resurslar:

sxemlər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları 9-cu tapşırığı təqdim edirlər.

Müəllim dərsliklə bağlı evə verdiyi təqdimatı dinləyib müzakirəsini təşkil etməklə dərsi davam etdirir. Daha sonra "Üçüncü il" mətninin dil xüsusiyyətlərini müəyyənləşdirmək üçün tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Mətnin hansı özünəməxsus cəhətləri var?*

**Tədqiqatın aparılması:** Bu mətn tamamlıqların təkrarı üçün kifayət qədər material verir. Ona görə də mətn vasitəsilə təkcə onun lüğət tərkibi deyil, sintaksisinə də diqqət yetirilməlidir. Müəllim tamamlıqla bağlı şagirdlərin biliklərini yada salmaqdan ötrü frontal sorğu aparmaq üçün 26-cı səhifədə verilmiş suallardan istifadə edə bilər. Şagirdlər 3 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 10 və 15-ci, II qrupa 12 və 16-cı, III qrupa 13 və 14-cü tapşırıq verilir. 18-ci tapşırığın 2 yerə bölünməsi şərtilə 2 şagirdə fərdi qaydada verilməsi də məqsədəuyğundur.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq tapşırıqlara əsasən hazırlanan təqdimatlar dinlənilir. Tamamlıq haqqında öyrənilənlər təkrarlana bilər (dərslik səh. 26).

**Nəticələrin çıxarılması:** Mətn şagirdlərin söz ehtiyatının artırılması baxımından dəyərlidir. Sinonim və antonimlərin işlənməsi mətni daha da zənginləşdirir. Tamam-

lığın cümlədəki rolunun araşdırılması baxımından əlverişli mətndir.

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki 17-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı:** Dərslikdəki 19-cu tapşırıq evə verilir.

***Qeyd.*** 14-cü tapşırığın cavabı:




**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Bu zaman şagirdin mətnqurma, şərhetmə, təkmilləşdirmə, cümlədə işlətmə bacarıqlarının qiymətləndirilməsi aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Dil vahidlərindən istifadə əsasında mətnlər qurmağı bacarmır. | Dil vahidlərindən istifadə əsasında mətnlər qurmaqda çətinlik çəkir. | Dil vahidlərindən istifadə əsasında mətn qurur. | Dil vahidlərindən məqsədli istifadə əsasında mətnlər qurur. |
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Mətndəki cümlələr arasında əlaqə tapmaqda çətinlik çəkir. | Mətndəki cümlələr arasında əlaqə tapmaqda müəllimin köməyindən istifadə edir. | Mətndəki cümlələr arasında əlaqəni gözləməklə yazını təkmilləşdirərkən cüzi səhvlərə yol verir. | Mətndəki cümlələr arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir. |
| Söz və söz birləşmələrini tamamlıq vəzifəsində işlədə bilmir. | Söz və söz birləşmələrini tamamlıq vəzifəsində işlətməkdə çətinlik çəkir. | Söz və söz birləşmələrini tamamlıq vəzifəsində işlədərkən müəyyən səhvlərə yol verir. | Söz və söz birləşmələrini tamamlıq vəzifəsində işlədir. |

# Mövzu 8

## "Amalım millətimi səadətə qovuşdurmaqdır"

### Məzmun standartları:

**1.1.2., 1.2.4., 2.2.3., 3.1.3.**

### Məqsəd:

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Mətndəki fikirləri dəyərləndirir.
- Mətnin hissələri arasında əlaqəni gözləməklə başqasının yazısını təkmilləşdirir.

### İnteqrasiya:

Coğrafiya – 3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.
Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

### İş formaları:

fərdi, kollektiv və qrupla iş

### İş üsulları:

BİBÖ, interaktiv mühazirə, müzakirə

### Resurslar:

sxem, H.Z.Tağıyevin həyatına aid sənədli film, "Neft və milyonlar səltənətində" filmindən fraqment, tarixi şəkillər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə BİBÖ üsulundan istifadə etməklə başlamaq olar. "Bilirəm" xanasına şagirdlərin H.Z.Tağıyevlə, onun xeyriyyəçilik fəaliyyəti ilə bağlı bildiyi məlumatlar qeyd olunur. Yaxud xeyriyyəçinin fəaliyyətini əks etdirən hər hansı bir sənədli film nümayiş oluna bilər.

Müəllim lövhəyə arzu, məqsəd, amal sözlərini yazmaqla həmin sözlərin məna yükünü müəyyənləşdirmək üçün şagirdlərə müxtəlif suallarla müraciət edə bilər. Diqqət *amal* sözünə yönəldilir. Şagirdlərin cavabları ümumiləşdirilir və mətn oxunur. Mətnin oxusu zamanı müəllim 1-ci tapşırığın icrasını diqqətdə saxlamalıdır. Bu tipli tapşırıqlar şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə zəmin yaradır. Mətnin oxusu zamanı mətndaxili suallar cavablandırılır və 28-ci səhifədə çərçivədəki tapşırıq yerinə yetirilir. Sualın cavabı 2-ci fikirdir. "İstəyirəm bilim" xanasına uyğun olaraq tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Tağıyevin xeyriyyəçilik fəaliyyəti Azərbaycan mühitində nəyə səbəb oldu?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünürlər və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 4 və 5-ci, II qrupa 7 və 9-cu, III qrupa 6 və 8-ci, IV qrupa 10-cu tapşırıqlar verilir.

2-ci tapşırığın fərdi qaydada 2 ayrı-ayrı şagirdə verilməsi məqsədəuyğundur. Əgər müəllim bu tapşırığı fərdlərə təqdim etməzsə, yaradıcı tətbiqetmə mərhələsində həmin tapşırıqdan istifadə edə bilər. Bu tapşırıqda əsas məqsəd H.Z.Tağıyevin təhsillə bağlı fəaliyyəti üzərində dayanmaq və geniş şərhini verməkdir.

Hər qrupdan 1 şagird seçməklə müəllim 2 cüt yarada bilər. Həmin cütləri material və resurslarla təmin etmək şərtilə I cütə 3.1, II cütə 3.2-ci tapşırıq verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq mətnin məzmunu barədə təqdimatlar dinlənilir. Müzakirələr zamanı şagirdlərə, ilk növbədə, "Xeyriyyəçilik nədir?" sualı ilə müraciət olunur. Cavablar ümumiləşdirilir və şagird təqdimatları dinlənilir. Əsası Ulu öndər tərəfindən qoyulan təhsil islahatlarının müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, təhsilə olan qayğı, Birinci vitse-prezident Mehriban Əliyevanın əlil və xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqət ön plana çəkilir. Bütün dövrlərdə təhsilə olan diqqət və qayğı vurğulanır. 3 və 11-ci tapşırıqlar icra edilir. 3-cü tapşırıqda əsas məqsəd diqqəti ana dilinə çəkmək və çalışdığı sahədən asılı olmayaraq, hər bir vətəndaşın ana dilinə olan sevgisini vurğulamaqdır. Müzakirədən sonra yekun nəticəyə gəlinir.

**Nəticələrin çıxarılması:** Şagirdlər belə qənaətə gəlirlər ki, Tağıyev millətinin xeyrinə böyük işlər görmüş, yeniyetmə, gənc və qocalara əl tutmuş, istedadlı uşaqları oxutmuş, xeyli yeni məktəb, teatr, xəstəxana tikdirmişdir. Nəticədə, BİBÖ-nün sonuncu xanası doldurulur.

**Yaradıcı tətbiqetmə:** 11-ci tapşırığın 2-ci hissəsi tapşırıla bilər.

**Ev tapşırığı:** 21-ci tapşırıq verilə bilər.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Bu zaman münasibətbildirmə, təqdimetmə, dəyərləndirmə, təkmilləşdirmə bacarıqlarının qiymətləndirilməsi aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirə bilmir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini çətinliklə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini ətrafın köməkliyi ilə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki fikirləri, əsasən, dəyərləndirir. | Mətndə səslənən fikirləri əsaslı şəkildə dəyərləndirir. |
| Mətnin hissələri arasında əlaqə tapmağı bacarmır. | Mətnin hissələri arasında əlaqəni gözləməklə yazını təkmilləşdirərkən müəllimin köməyindən istifadə edir. | Mətnin hissələri arasındakı əlaqəni gözləməklə başqasının yazısını təkmilləşdirərkən müəyyən səhvlərə yol verir. | Mətnin hissələri arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir. |

## Mövzu 9

## "Amalım millətimi səadətə qovuşdurmaqdır"

**Məzmun standartları:**

**2.1.1., 3.1.1., 4.1.2.**

**Məqsəd:**

- Söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir.
- Nəqli xarakterli təqdimat hazırlayır.
- Sözləri və söz birləşmələrini cümlədə mübtəda və xəbər vəzifələrində işlədir.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.
Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

**İş formaları:**

kollektiv, fərdi və qrupla iş

**İş üsulları:**

beyin həmləsi, müzakirə

**Resurslar:**

iş vərəqləri, cədvəl və sxemlər

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Ötən dərsə əsasən şagirdlərin hazırladıqları təqdimatlar dinlənilir. Daha sonra 12-ci tapşırıq kollektiv şəkildə şagirdlərlə işlənir. Mətnin dil xüsusiyyətinə diqqət çəkilir və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətnin dil xüsusiyyətinin hansı özünəməxsus cəhətləri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər 5 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 13, 17-ci, II qrupa 16-cı, III qrupa 14, 18-ci, IV qrupa 15-ci, V qrupa 20-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** Təqdimatlar dinlənilir və çalışmalarla bağlı qrammatik qaydalar təkrarlanır.

**Nəticələrin çıxarılması:** Şagirdlər mətndə xeyli sayda yeni söz müəyyənləşdirirlər. Mətn şagirdlərin söz ehtiyatının artırılması baxımından dəyərlidir. Sinonimlərin, alınma sözlərin işlənməsi baxımından zəngin mətndir.

**Yaradıcı tətbiqetmə:** Dərsliyin 31-ci səhifəsindəki çərçivədə verilmiş "Dildə sinonimlərdən istifadə etmənin hansı praktik əhəmiyyəti vardır?" sualı ətrafında müzakirə təşkil etmək və ya yığcam təqdimatın hazırlanmasını tapşırmaq olar.

**Ev tapşırığı:** "Mətnlərdə sinonim sözlərdən istifadə" adlı təqdimat hazırlamaq tapşırıla bilər.

Təqdimatın hazırlanması üçün müəllim şagirdə plan və tövsiyələr verməsi məsləhətdir.

Plan:

1. Sinonimlər nədir?
2. Sinonimlərin funksiyası
3. Sinonimlərin mətnlərdə funksiyası
4. Sinonimlərin praktik əhəmiyyəti
5. Nəticə

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Bu zaman şərhetmə, təkmilləşdirmə, cümlədə işlətmə bacarıqlarının qiymətləndirilməsi aparıla bilər.

***Qeyd.*** 16-cı tapşırığın cavabı:

məram — Xalqın maariflənməsi onun fəaliyyətinin əsas məramı idi.

↓

amal — Heç bir çətinlik bizi Azərbaycanın səadəti yolunda böyük ...... döndərə bilməz.

↓

məqsəd — Üzeyir Hacıbəylinin “Leyli və Məcnun”a muğam parçaları daxil etməkdə ...... xalqa operanı sevdirmək idi. (*B.Nəbiyev*)

↓

arzu — Mən də bir insanam, mən də canlıyam.
Mənim də qəlbimin ...... var. (*S.Vurğun*)

↓

dilək — Quş qanadla uçar, insan ...... (*B.Vahabzadə*)

↓

istək — ...... gözdə olar. (*Atalar sözü*)

| I | II | III | IV |
|---|---|---|---|
| Söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Sözlərin mənasını şərh edir. | Söz və ifadələrin mənasını şərh edir. | Söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Nəqli xarakterli təqdimat hazırlayarkən çətinlik çəkir. | Nəqli xarakterli təqdimat hazırlayarkən müəllimin köməyindən istifadə edir. | Nəqli xarakterli təqdimat hazırlayarkən müəyyən səhvlərə yol verir. | Nəqli xarakterli şəkilli təqdimat hazırlaya bilir. |
| Söz və söz birləşmələrini mübtəda və xəbər vəzifəsində işlədərkən çətinlik çəkir. | Söz və söz birləşmələrini mübtəda və xəbər vəzifəsində işlədərkən müəllimin köməyindən istifadə edir. | Söz və söz birləşmələrini mübtəda və xəbər vəzifəsində işlədərkən müəyyən səhvlərə yol verir. | Söz və söz birləşmələrini mübtəda və xəbər vəzifəsində işlədir. |

# Mövzu 10

## "Sizi təbrik edirəm, qızlar!" (jest və mimika)

## Məzmun standartları:

**1.1.2., 1.2.3., 1.2.4., 2.2.1.**

## Məqsəd:

- Səslənən fikirlərə münasibət bildirir.
- Səs seçimini və səsin ucalığını jest və mimika ilə uzlaşdırır.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Mətni intonasiya ilə oxuyur.

## İnteqrasiya:

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.
Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.
3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.
Həyat bilgisi – 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

## İş formaları:

kollektiv və qrupla iş

## İş üsulları:

auksion, müzakirə, təqdimat, proqnozlaşdırılmış oxu

## Resurslar:

C.Cabbarlının seçilmiş əsərləri, "Babayi-Əmir" jurnalından seçmələr, lüğət, iş vərəqləri, təhsilimizin tarixinə aid nəzəri nümunələr, təhsil haqqında qəbul olunmuş qanun və sərəncamlar

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə auksion üsulu ilə başlaya bilər. C.Cabbarlının bu günə qədər keçilmiş və sinifdənxaric ədəbiyyatdan oxunmuş əsərlərini soruşmaqla idrak fəallığı oyatmaq mümkündür. Daha sonra diqqəti Cabbarlının qadınların təhsili uğrundakı mübarizəsinə cəlb edərək mövzuya keçid almaq mümkündür. Mətn proqnozlaşdırılmış oxu ilə oxunur. Mətnin oxusundan əvvəl "Şəklə əsasən mətndə nədən danışılacağı barədə fikir yürüdün" tapşırığı üzərində, daha sonra mətnə çəkilən rəsmin təhlili üzərində iş aparılır. Şagirdlərin proqnozları lövhədə qeyd olunur.

"Axı cavan oğlan bu balaca qızların….. nail olmamışdı" cümləsindən sonra şagirdlərin fikirləri soruşulur. Mətnin oxusundan sonra 1-ci tapşırıq icra edilir. Səh. 34-də cümlələrin ardıcıllığı belədir: 2, 4, 3, 1.

Səh. 36-da göy çərçivədə verilmiş mətn 35-ci səhifədə "Heydəri razı salmaq bütün məhəlləni razı salmaqdan çətindir" cümləsindən sonra yerləşdirilməlidir. Həmin hissədə "məxluq" sözü "camaat" sözü ilə əvəz edilməlidir.

**Tədqiqat sualı:** *Cəfərin əsas istəyi nə idi?*

**Tədqiqatın aparılması:** Şagirdlər 5 qrupa bölünürlər. I qrupa dərslikdəki 1, 2-ci, II qrupa 4, 5, 8-ci, III qrupa 7-ci, IV qrupa 9, 10-cu, V qrupa 11 və 12-ci tapşırıqlar verilə bilər.

7-ci tapşırığın cavabı: *intəhasız* sözünün sinonimləri *nəhayətsiz* və *sonsuz* sözləridir.

8-ci tapşırığın cavabı: 34-cü səhifədə tünd şriftlə verilmiş cümlədə *şiddətli* sözünün yerinə *şiddətlə* sözü yazılmalıdır. Tapşı-

rıqda əsas məqsəd sözlərin qrammatik mənasını müəyyənləşdirməklə yanaşı, onların düzgün işlənmə məqamlarını şagirdin diqqətinə çatdırmaqdır.

10-cu tapşırığın cavabı:




**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirədə 6-cı tapşırığı vermək olar.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, Cəfərin fikrincə, təhsil ən mühüm özünütəsdiq vasitəsidir. Cabbarlının qadınların təhsil alması, savadlanması, dünyagörüşünü artırması uğrundakı çarpışmaları mətnin əsas məzmununu təşkil edir.

**Yaradıcı tətbiqetmə:** Şəkil haqqında təsviri xarakterli kiçik inşanın yazılması tapşırılır.

**Ev tapşırığı:** 13-cü tapşırıq əsasında cütlərlə dialoq qurmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, uzlaşdırma, təqdimetmə, oxuma bacarıqları diqqətdə saxlanmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Səslənən fikirlərə münasibət bildirməyi bacarmır. | Səslənən fikirlərə çətinliklə münasibət bildirir. | Səslənən fikirlərə münasibətini müəllimin köməyi ilə bildirir. | Səslənən fikirlərə sərbəst münasibət bildirir. |
| Səs seçimini və səsin ucalığını jest və mimika ilə uzlaşdırmaqda çətinlik çəkir. | Səs seçimini və səsin ucalığını jest və mimika ilə uzlaşdırarkən müəllimin köməyindən istifadə edir. | Səs seçimini və səsin ucalığını jest və mimika ilə uzlaşdırarkən müəyyən səhvlərə yol verir. | Səs seçimini və səsin ucalığını jest və mimika ilə uzlaşdırır. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Mətni düzgün intonasiya ilə oxumağı bacarmır. | Mətni düzgün intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni qismən düzgün intonasiya ilə oxuyur. | Mətni tələb olunan düzgün intonasiya ilə oxuyur. |

## Mövzu 11

### "Sizi təbrik edirəm, qızlar!"

**Məzmun standartları:**

**1.2.2., 1.2.3., 3.1.1., 3.1.2.**

**Məqsəd:**

- Fikirlərini həyat hadisələri ilə əlaqələndirir.
- Jest və mimikadan düzgün istifadə edir.
- Verilmiş mövzuya uyğun mühakimə xarakterli mətn yazır.
- Mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İnteqrasiya:**

Ədəbiyyat – 3.1.3. 2,5-3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.
Azərbaycan tarixi – 1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.
Xarici dil – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.

**İş formaları:**

kollektiv, cütlərlə və qrupla iş

**İş üsulları:**

fasiləli oxu, müzakirə, Venn diaqramı

**Resurslar:**

nitq prosesinə aid sxemlər, qrammatik qaydanın izahına dair plakat, müxtəlif jest və mimikalara aid şəkillər

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Ötən dərsdən şagirdlərin 13-cü tapşırıq əsasında cütlərdə hazırladıqları dialoqlar dinlənilir. Diqqət dialoq zamanı istifadə olunan üz, əl və qol hərəkətlərinə yönəldilir. Şagirdlərə bununla bağlı dərslikdə verilmiş qayda oxudulur. Jest və mimikanın şifahi nitqin bir ünsürü olmasını vurğulayan müəllim daha sonra səh. 40-da rabitəli mətnlə bağlı verilmiş məlumatlara keçid ala bilər. 14 və 16-cı tapşırıqlar kollektivlə şifahi şəkildə icra olunur.

**Tədqiqat:** 17-ci tapşırıq üzərində aparılır. Tapşırığın icrası üçün şagirdlərə 20 dəqiqə vaxt verilir. İlk növbədə, şagirdlərlə birgə plan, sonra həmin plan əsasında təqdimat hazırlanır. Müəllim açar sözlər də təqdim edə bilər. Mətnin giriş, əsas hissə və nəticəsini qruplar arasında paylaşdırmaqla təqdimatı hazırlamaq mümkündür.

**Məlumat mübadiləsi və müzakirə:** Qruplar işlərini təqdim edir. Təqdimatlar əsasında müzakirələr aparılır. Vahid mətnin tərtib edilməsi üçün giriş, əsas hissə və nə-

ticə müəyyənləşdirilir. Kiçik mətnlərin vahid bir mətn halına salınması, rabitəli mətnin formalaşdırılması məqsədilə əlaqələndirici cümlələrin yazılması şagirdlərin diqqətinə çatdırılır.

**Ev tapşırığı:** 18-ci tapşırıq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Rabitəli nitqqurma, yazma, əlaqələndirmə bacarıqlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Fikirlərini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Fikirlərini həyat hadisələri ilə əlaqələndirərkən müəllimin köməyindən istifadə edir. | Fikirlərini həyat hadisələri ilə əlaqələndirərkən müəyyən səhvlərə yol verir. | Fikirlərini həyat hadisələri ilə əlaqələndirir. |
| Jest və mimikanı nitqi ilə çətinliklə uzlaşdırır. | Jest və mimikadan istifadə edərkən müəyyən səhvlərə yol verir. | Jest və mimikadan istifadə edərkən bəzən çətinlik çəkir. | Jest və mimikadan düzgün istifadə edir. |
| Mühakimə xarakterli mətn yazmağı bacarmır. | Mühakimə xarakterli mətn yazmaqda çətinlik çəkir. | Mühakimə xarakterli mətn yazarkən müəllimin köməyindən istifadə edir. | Verilmiş mövzuya uyğun mühakimə xarakterli mətn yazır. |
| Mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Mülahizələrini həyat hadisələri ilə əlaqələndirərkən müəyyən səhvlərə yol verir. | Öz mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

# Mövzu 13

## Məhəmməd Sadıq bəy Ağabəyzadə

**Məzmun standartları:**

**1.1.2., 1.2.4., 2.1.1., 2.2.2., 2.2.3.**

**Məqsəd:**

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Tanış olmayan sözlərin mənasını şərh edir.
- Mətni genişləndirir.
- Mətndəki fikirləri dəyərləndirir.

**İnteqrasiya:**

Coğrafiya – 3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.
Azərbaycan tarixi – 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.
Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.
Həyat bilgisi – 2.1.2. Vətəndaş cəmiyyətinin formalaşması və inkişafında demokratik dəyərlərin rolunu qiymətləndirir.

**İş formaları:**

kollektiv və cütlərlə iş

**İş üsulları:**

klaster, İNSERT, müzakirə

**Resurslar:**

generallarımızın şəkilləri, hərb tariximizə aid müxtəlif faktlar, Məhəmməd Sadıq bəy Ağabəyzadə haqqında əlavə məlumatlar, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə klaster üsulu ilə başlaya bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




Generallarımızın adlarını çəkəndən sonra Məhəmməd Sadıq bəy Ağabəyzadə ilə bağlı mətnə keçid etmək mümkündür. Mətn oxunmamışdan əvvəl 1-ci tapşırıq icra edilir. Anlayış alındıqdan sonra mətnin İNSERT üsulu əsasında oxudulması fayda verə bilər. Oxu zamanı səh. 42-də çərçivədəki tapşırıq yerinə yetirilir. Sualın cavabı 3-cü fikirdir. Mətnin oxusundan sonra müəllim şagirdlərlə ümumi şəkildə, tarixdən bu barədə biliklərinin nə dərəcədə olması ilə bağlı sorğu keçirməlidir. Bu həm şagirdlərin əvvəlki siniflərdə öyrəndiklərinin təkrarına nail olmağa, həm də fənlərarası inteqrasiyanın uğurla reallaşmasına şərait yaradacaq. Bu yolla tədqiqatı istiqamətləndirmək üçün sual formalaşdırmaq mümkündür.

**Tədqiqat sualı:** *Azərbaycan generallarının fəaliyyəti nə dərəcədə əhəmiyyətlidir?*

**Tədqiqatın aparılması:** Şagirdlər cütlərə bölünür və onlara tədqiqat xarakterli suallar ünvanlanır. I cütə dərslikdəki 4-cü, II cütə 5-ci, III cütə 6-cı, IV cütə 7, 8-ci, V cütə

9-cu, VI cütə 10, 11-ci, VII cütə 12-ci, VIII cütə 13-cü, IX cütə 14-cü, X cütə 15, 16-cı, XI cütə 17, 18-ci, XII cütə 19 və 20-ci tapşırıqlar verilərək birlikdə işləmələri tapşırılır. 20-ci tapşırığın cavabı: *azad, müstəqil, sərbəst, suveren.*

**Məlumat mübadiləsi və müzakirə:** Şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün 2-ci tapşırıqdan istifadə edə bilər. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır.

**Nəticələrin çıxarılması:** Nəticədə müəyyən olunur ki, mətndə görkəmli generalın həyat və fəaliyyətindən bəhs edilir. Onun keçdiyi həyat yolu təqdirəlayiqdir. Bu da deməyə əsas verir ki, Azərbaycan generalları hərb sahəsində daha çox bacarığa malik olmaqla yanaşı, digər sahələrdə də fəaliyyət göstəriblər.

**Yaradıcı tətbiqetmə:** 3-cü tapşırıq verilir. Tapşırığın cavabı belədir: 42-ci səhifədə "...Fransaya getmişdir" cümləsindən sonra olmalıdır. Həmin hissədə "dəhşət" sözünü "ağlasığmaz" sözü ilə əvəz etmək olar.

**Ev tapşırığı:** Şagirdlərə 22-ci tapşırığı hazırlamaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, təqdimetmə, genişləndirmə, dəyərləndirmə, şərhetmə bacarıqları nəzərdən qaçmamalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirə bilmir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini çətinliklə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini ətrafın köməkliyi ilə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirməyi bacarmır. | Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirməkdə çətinlik çəkir. | Tərkib hissələri arasında əlaqəni gözləməklə müəllimin köməyi ilə mətni genişləndirir. | Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki fikirləri dəyərləndirir. | Mətndə səslənən fikirləri əsaslı dəyərləndirir. |

# Mövzu 14

## Məhəmməd Sadıq bəy Ağabəyzadə

### Məzmun standartları:

**1.2.4., 4.1.2.**

### Məqsəd:

- Fikirləri yığcam şəkildə təqdim edir.
- Sözləri və söz birləşmələrini zərflik vəzifəsində işlədir.

### İnteqrasiya:

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 2.1.3. Fikirlərini müqayisələr aparmaqla şərh edir.

### İş forması:

qrupla iş

### İş üsulları:

müzakirə, klaster, təqdimat

### Resurslar:

lüğət, iş vərəqləri, zərfin mənaca növləri ilə bağlı nümunələr

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları 22-ci tapşırıq üzrə cədvəli təqdim etdikdən sonra müəllim zərflə bağlı verilmiş qaydanı oxuyur və izahını verir. Daha sonra tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətndə zərfin hansı növlərindən istifadə olunmuşdur?*

**Tədqiqatın aparılması:** Şagirdlər 5 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 23-cü, II qrupa 24-cü, III qrupa 25-ci, IV qrupa 26-cı, V qrupa 27-ci tapşırıq verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Nəticəni asan müəyyənləşdirmək üçün klasterdən istifadə məqsədəuyğundur.

**Nəticələrin çıxarılması:** Mətndə zərfliyin müxtəlif növlərindən istifadə olunmuşdur. Bu isə şagirdlərin söz ehtiyatının artırılması baxımından əlverişlidir. Zərfliyin mənaca növlərinin işlənməsi mətni zənginləşdirmişdir.

**Yaradıcı tətbiqetmə:** 21 və 28-ci tapşırıqlar əsasında aparılır.

**Ev tapşırığı:** 29 və 30-cu tapşırıqlar əsasında aparılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Təqdimetmə, fərqləndirmə, cümlədə işlətmə bacarıqları nəzərə alınmalıdır.

1-ci bölmə üzrə izahlı lüğət hazırlamaq işi diqqətdə saxlanılmalıdır.

***Qeyd.*** 25-ci tapşırığın cavabı:

| | bədii təyin | təyin | tərzi-hərəkət zərfliyi |
|---|---|---|---|
| Bu soyuq, qara daş nə günəş şüası ilə qızır, nə də insan hənirtisi ilə isinirdi. (*F.Kərimzadə*) | ☐ | ✓ | ☐ |
| Şahinlə Gülyanaq arasındakı soyuq münasibət Dədə Bəhmənin gözündən yayınmadı. (*Əfqan*) | ✓ | ☐ | ☐ |
| Anasının otağında babası ilə rastlaşan Seyid Əzim onunla soyuq davrandı. (*Ə.Cəfərzadə*) | ☐ | ☐ | ✓ |
| Oturmuş palanın üstündə hambal,<br>Dərin düşüncəyə qərq olmuş yazıq. (*S.Vurğun*) | ✓ | ☐ | ☐ |
| Quyunu gen qaz, dərin qaz, özün düşərsən. (*Atalar sözü*) | ☐ | ☐ | ✓ |
| Bolu bəy Koroğlunu dərin bir quyuya saldırıb ağzını möhkəm bağladı. (*"Koroğlu" dastanı*) | ☐ | ✓ | ☐ |

***Qeyd.*** Müəllim lüğət üzərində iş aparmağı (layihə işi) diqqət mərkəzində saxlamalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Sözləri və söz birləşmələrini zərflik vəzifəsində işlədərkən çətinlik çəkir. | Sözləri və söz birləşmələrini zərflik vəzifəsində müəllimin köməyi ilə işlədə bilir. | Sözləri və söz birləşmələrini zərflik vəzifəsində işlədərkən müəyyən səhvlərə yol verir. | Sözləri və söz birləşmələrini zərflik vəzifəsində işlədir. |

# Mövzu 15

## Maarifçi fədailər – Aşurbəylilər

**Məzmun standartları:**

**2.2.1., 2.2.2., 2.2.3., 3.1.2.**

**Məqsəd:**

- Mətni düzgün intonasiya ilə oxuyur.
- Hissələri əlaqələndirməklə mətni genişləndirir.
- Mətndəki fikirləri dəyərləndirir.
- Mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.
Azərbaycan tarixi – 1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.
Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.
Həyat bilgisi – 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

**İş forması:**

fərdi və qrupla iş

**İş üsulları:**

beyin həmləsi, auksion, sual ünvanlayaraq oxu

**Resurslar:**

Aşurbəylilərin portretləri, yaxud şəkilləri, nəslin sərmayəsi ilə tikilən məktəb, məscid və s. abidələrin tarixi şəkilləri, Ə.Çingizoğlunun “Avşarlar” sənədli filmi, tarixi məlumatlar, lüğət, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim ötən il keçilmiş “Zivər bəy Əhmədbəyov” mətnini şagirdlərə xatırlatmaqla dərsə başlaya bilər. Daha sonra “Mətndə adı qeyd olunan Nabat xanım – Təzə Pir məscidinin sərmayədarı hansı nəsildən idi?” sualı soruşula bilər. Şagirdlər əvvəldən bu barədə məlumatlı olduqları üçün sualı asanlıqla cavablandıracaqlar. “Aşurbəylilər” adı alındıqdan sonra tarixdən bəzi məlumatlar verilir, auksionla onların nə işlər görməsi uşaqlardan soruşulur. Mətn oxudulduqdan sonra tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Aşurbəylilərin xeyriyyəçiliyi özünü nədə büruzə verirdi?*

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünürlər və onlara aşağıdakı iş vərəqləri paylanır: I qrupa 1, 2-ci, II qrupa 3, 4, 7-ci, III qrupa 8 və 9-cu tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır.

**Nəticələrin çıxarılması:** Təqdimatlardan sonra məlum olur ki, mətn Aşurbəylilərin xeyriyyəçilik fəaliyyətinin vurğulanması üçün tam uyğundur. Onların xeyirxah fəaliyyətlərinin nəticələri hələ uzun illər xalqa xidmət göstərəcəkdir.

**Yaradıcı tətbiqetmə:** 5-ci tapşırığa əsasən aparılır.

**Ev tapşırığı:** Dərslikdəki 6-cı tapşırığa əsasən təqdimat hazırlamaq tapşırılır. (St. 3.1.2.)

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Oxuma, mətni genişləndirmə, dəyərləndirmə, əlaqələndirmə bacarıqları əsas götürülür.

***Qeyd.*** 9-cu tapşırığın cavabı belədir: 4-cü mətndəki boşluğa "əl tutmaq" ifadəsi uyğun gəlir.

*ianə, kömək, sponsorluq, əl tutmaq, yardım*

- "Canavar var!" – deyə bağırdı yenə,
  Qəryə əhlin köməyə çağırdı yenə. (*M.Ə.Sabir*)
- M.Ə.Sabir ağır xəstə yatarkən "Molla Nəsrəddin" jurnalı ianə toplanışı elan edir.
- Son gücündən istifadə etmədən başqalarından əsla yardım istəmə. (*B.Rassel*)
- ... sponsorluq ... . (Bu sözdən istifadə edərək şagird özü cümlə qurur.)

| I | II | III | IV |
|---|---|---|---|
| Mətni düzgün intonasiya ilə oxumağı bacarmır. | Mətni düzgün intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni düzgün intonasiya ilə oxuyur. | Mətni tələb olunan düzgün intonasiya ilə oxuyur. |
| Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirməyi bacarmır. | Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirməkdə çətinlik çəkir. | Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir. | Tərkib hissələri və cümlələr arasında əlaqəni gözləməklə mətni genişləndirir. |
| Mətndəki fikirləri dəyərləndirməyi bacarmır. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki irəli sürülmüş fikirləri dəyərləndirir. | Mətndə irəli sürülmüş fikirləri öz mövqeyindən çıxış edərək dəyərləndirir. |
| Mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Mülahizələrini həyat hadisələri ilə müəllimin köməyindən istifadə edərək əlaqələndirir. | Mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

# Mövzu 16

## Maarifçi fədailər – Aşurbəylilər

### Məzmun standartları:

**1.2.4., 3.1.1., 4.1.2.**

### Məqsəd:

- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Mövzuya uyğun hekayə yazır.
- Sözləri müxtəlif sintaktik vəzifələrdə işlədir.

### İnteqrasiya:

Təsviri incəsənət – 1.3.1. Azərbaycanın görkəmli təsviri incəsənət nümayəndələri və onların əsərləri haqqında təqdimatlar edir.
İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.
Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

### İş forması:

qrupla iş

### İş üsulları:

təqdimat, müzakirə

### Resurslar:

Avşarlara aid audio və videolentlər, lüğət, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Evdə baxılmış “Avşarlar” filmi müzakirə oluna bilər. Daha sonra mətnin dil xüsusiyyətləri ilə bağlı araşdırma aparmaq məqsədilə tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Mətnin dil xüsusiyyətlərinin hansı xarakterik cəhətləri var?*

**Tədqiqatın aparılması:** İş qruplarda davam etdirilir. I qrupa 10, 11-ci, II qrupa 12, 13-cü, III qrupa 14-cü, IV qrupa 15-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər.

**Nəticələrin çıxarılması:** Mətn faktlarla zəngindir. Dil xüsusiyyətləri rəngarəngdir.

**Yaradıcı tətbiqetmə:** 16-cı tapşırıq əsasında aparılır. Bu tapşırığın cavabı *E* variantıdır.

**Ev tapşırığı:** 17-ci tapşırıq əsasında aparılır. (St. 3.1.1.)

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Təqdimetmə, fərqləndirmə, cümlədə işlətmə bacarıqları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Verilmiş mövzuya uyğun hekayə yazmağı bacarmır. | Verilmiş mövzuya uyğun hekayə yazmaqda çətinlik çəkir. | Verilmiş mövzuya uyğun hekayə yazır. | Verilmiş mövzuya uyğun təsviri tipli hekayə yazır. |
| Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədə bilmir. | Sözləri müxtəlif sintaktik vəzifələrdə çətinliklə işlədir. | Sözləri müxtəlif sintaktik vəzifələrdə işlədir. | Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir. |

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

**KSQ №1**

## ÇÖVKƏN – SAĞLAMLIQ VƏ SEVGİ OYUNU

Çövkən atla oynanan qədim türk oyunlarından biridir. Fiziki qüvvə tələb edən çövkən oyununda yüksək bacarığa, manevretmə qabiliyyətinə malik olmaq oyunda iştirak edənlər üçün ən əsas keyfiyyətlərdən sayılır. Oyunun yaxşı alınması üçün həm minici, həm də at vəhdət təşkil etməlidir.

Oyunun qaydalarına görə iştirakçılar iki dəstəyə ayrılırlar. İki tərəfdə qoyulan dirəklərdən ibarət rəqib qapılarından topu keçirmək tələb olunur. Seçilmək üçün bir dəstənin üzvləri mütləq o biri dəstəninkindən fərqli geyimdə oyuna qatılırlar. Bu oyunların özəlliyi ondan ibarətdir ki, yaş (həddi, müddəti) tələb olunmur. Fiziki cəhətdən sağlam olan şəxs hər vaxt çövkənlə məşğul ola bilər.

**2** Çövkənin qaydalarına görə oyunda iştirak edən hər komandanın tərkibi 7 nəfərdən ibarətdir. **3** Atların sayı 6 olmalıdır. **6** Oyun ikihissəli olmaqla 30 dəqiqə davam edir. 10 dəqiqə fasilə olur. **7** Oyunçunun xüsusi geyim formasına papaq, çuxa, at minmək üçün gen şalvar daxildir. **1** Oyunçular eyni formada, eyni uzunluqda olan çomaqdan istifadə edirlər. **4** Bu oyunda istifadə edilən top girdə, diametri isə 38–41 sm arasında olur. **5** Qapı çərçivəsindən cərimə meydançasına daxil olub topu qapıya vurmaq hesaba alınmır.

Çövkən oyunlarının hakimi isə, adətən, meydanı at (üstündə, üzərində) müşayiət edir. Ona yan xətlərdə duran iki hakim də köməklik göstərir. Oyunçu geyim qaydalarına əməl etməyəndə, kobudluq edəndə meydandan birdəfəlik və ya 2 dəqiqəlik qovula bilər.

Maraqlıdır ki, "Kitabi-Dədə Qorqud" dastanında (qədim, antik) tarixə malik atüstü milli oyunlarımızdan biri olan və bu gün ölkəmizdə bərpa edilən çövkənin də adı çəkilir. Qeyd edək ki, həddindən artıq mürəkkəb, eyni zamanda maraqlı olan bu oyun insanın atı (ram etməsindən, təslim etməsindən) sonra meydana gəlib.

Nizami, Xaqani Şirvani, Xətai və başqa şairlərin əsərlərində, eyni zamanda qədim miniatür sənətimizdə çövkənlə bağlı maraqlı məlumatlar verilir. Qədim miniatürlərdə kişilərlə bərabər qadınlarımızın da çövkən oynamaları bu oyuna olan böyük maraqdan xəbər verir.

Britaniyalı səyyah M.Braun 1842-ci ildə çövkən oyununu yüksək qiymətləndirirdi.

Görkəmli özbək şairi Ə.Nəvai bu oyunu "çavqan" (fars dilində əlağacı), azərbaycanlılar "çövkən", əfqanlar "çovqan", taciklər "çavqonbozi" adlandırırlar. Firdovsi, Ömər Xəyyam, Hafiz, İbn Sina, Xosrov Dəhləvinin əsərlərində də çövkənin adı xatırlanır. Orta əsr müəlliflərinin yazdıqlarından isə bəlli olur ki, o zamanlar çövkənlə məşğul olan məşhur oyunçular hətta sərhədlərdən kənarda da (məşhur, tanınmış) idilər.

Azərbaycana gəlincə, ölkəmizdə 10-dan çox atüstü oyun növü var və bu oyunların tarixinin min ildən çox olduğu bildirilir. Onlardan ən çox tanınanı və seviləni məhz çövkəndir. Azərbaycan 1922-ci ildə SSRİ-nin tərkibinə daxil edildikdən sonra ittifaqın digər respublikaları arasında bu növ də daxil olmaqla, atüstü xalq oyunları üzrə mütəmadi yarışlar keçirilirdisə də, respublikamız bu yarışlarda iştirak etmirdi. 1000 il əvvəl həvəslə oynanılan "Çövkən", "Sürpapaq", "Baharbənd", "Yaylıq", "Gərdək qaçırmaq" və s. oyunlar haqqında əhalinin əksəriyyətinin, xüsusən də gənclərin heç bir anlayışı yox idi.

1000 il keçdikdən sonra milli atüstü oyunların bərpası gərgin axtarış və (əmək, zəhmət) tələb edirdi. Nəhayət, 1958-ci ildə Gəncənin Bağmanlar qəsəbəsinin çıxacağında kiçicik Cıdır düzü təşkil edilir. Müəllimlərdən biri 4 kolxozdan atları yığır və gəncləri öz ətrafına toplayır. Bu dövrə qədər Azərbaycan milli atüstü oyunlar üzrə ittifaqmiqyaslı yarışlarda iştirak edə bilmirdi. *Bunu aradan qaldırmaq üçün Gəncə ətrafındakı 4 kolxozda 10-a yaxın xüsusi komandalar yaradıldı, məşqlər başlandı.* O, Azərbaycan atüstü milli oyunlarının qaydaları haqqında məlumatları çap edərək Cıdır meydanlarının rəhbərlərinə payladı ki, ona müvafiq hazırlıq işləri görülsün və bizim komandalar bu yarışa qatıla bilsinlər.

Azərbaycan komandası 1961-ci ildə Moskvaya dəvət alır. İlk yarış Azərbaycan və erməni çaparları arasında keçirilməli olur. Azərbaycan idmançılarının yarışa qatıldığını görən ermənilər çövkən oynamaq üçün ərizə verirlər. <u>Məqsəd Azərbaycan komandasını məğlub etmək idi</u>. Lakin onlar buna nail ola bilmir və uduzurlar.

**1. Çövkən oyunçusunun xüsusi geyim formasına aid deyil:**

1. Çuxa
2. Gen şalvar
3. Çəkmə
4. Arxalıq
5. Əba
6. Şalvar
7. Papaq

A) 1, 5, 6, 7  B) 4, 5, 6  C) 2, 5, 6  D) 2, 3, 5, 6  E) 1, 3, 4, 7

**2. Hansı ədibin əsərində çövkən oyununun təsvirinə rast gəlinmir?**

A) Nizami Gəncəvi
B) Əfzələddin Xaqani
C) Məhəmməd Füzuli
D) Şah İsmayıl Xətai
E) Əmir Xosrov Dəhləvi

**3. Mətndən çövkənlə bağlı düzgün məlumatları seçin.**

1. Oyunu at üstündə müşayiət edən hakim meydandan kənarda olurdu.
2. Qadınlar bu oyuna böyük maraq göstərsələr də, onu oynaya bilməzdilər.
3. “Kitabi-Dədə Qorqud” dastanında çövkən oyununun neçə minillik tarixə malik olması barədə məlumat vardır.
4. Oyunun hər hissəsi 15 dəq. çəkir.
5. Azərbaycan SSRİ-nin tərkibinə daxil edildikdən 39 il sonra ölkəmizin komandası Moskvaya atüstü oyunlara dəvət alır.

**4. İdman növünü yenidən bərpa etmək üçün görülən tədbirlərdən hansı mətndə verilməyib?**

A) Cıdır düzü təşkil edildi.
B) Kolxozdan atlar yığıldı.
C) Moskvaya müraciət edildi.
D) Gənclər toplandı.
E) 10 kolxozdan 4 komanda yığıldı.

**5. Mətndə bu suallardan birinə cavab tapmaq olmaz:**

A) Nə üçün çövkən qədim türk oyunlarından biri hesab edilir?
B) Rəqib komandalar nə üçün eyni geyimdə olurdular?
C) Çövkənin adları hansılardır?
D) Mətndə hansı oyunlar haqqında danışılır?
E) Nə üçün SSRİ Azərbaycanı yarışlara qatılmağa qoymurdu?

**6. Ermənilər ərizəni nə məqsədlə verir?**

A) çövkən oynamaq üçün
B) yarışmaq üçün
C) atları mənimsəmək üçün
D) azərbaycanlıları məğlub etmək üçün
E) oyunun keçirilməsinə mane olmaq üçün

**7. Verilmiş məlumatların abzaslara uyğunluğunu müəyyənləşdirin:**

| məlumat | abzas |
|---|---|
| 1. Çövkən qədim türk oyunu kimi<br>2. Çövkənin qaydaları<br>3. Çövkən Azərbaycan və dünya sənətkarlarının əsərlərində<br>4. Qadağadan sonra yarışlara dəvət | |

**8. Venn diaqramında çövkən və hokkeyin oxşar və fərqli cəhətlərini qeyd edin.**



**9. Bu faktlardan biri mətndə yoxdur:**

A) Klassiklərimizin əsərlərində çövkən oyunu haqqında maraqlı məlumatlar verilir.
B) Mütəxəssislər bildirirlər ki, çövkən oyununda qaydalara düzgün riayət edilir.
C) Yaş həddinin tələb olunmaması oyunların özəlliyidir.
D) Bir çox milli oyunlarımızdan gənclərimiz xəbərsizdir.
E) 1958-ci ilə qədər milli oyunlardan bəziləri keçirilmirdi.

**10. "Bu oyun əsl hokkey oyununa bənzəyir. Çox gözəl oyun növüdür və düşünürəm ki, qərblilər üçün də bu, faydalı olardı" cümləsini mətndə hansı abzasa yerləşdirsəniz, ardıcıllıq pozulmaz?**

**11. Hansı abzasda təkrar cümlələr vardır? Həmin cümlələri seçib yazın.**

✓ *Nə üçün həmin cümlələri təkrar hesab edirsiniz?*

**12. Mətn aşağıdakı meyarlardan hansına uyğundur?**

| | | | |
|---|---|---|---|
| dəqiq | ☐ | qeyri-dəqiq | ☐ |
| mücərrəd | ☐ | konkret | ☐ |
| sadə | ☐ | mürəkkəb | ☐ |

**13. 3-cü abzasda nömrələnmiş cümlələrin ardıcıllığını bərpa edin.**

**14. Mətndə qırmızı rəngdə verilmiş ifadəni hansı sözlə əvəz etsəniz, daha etik səslənə bilər?**

**15. Aşağıdakı sözlərin leksik mənalarını yazın.**

miniatür ________________

məlumat ________________

meydan ________________

**16. Sxemi tamamlayın.**




**17. Mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?**

**18. "Böyük maraqdan" söz birləşməsində hər iki tərəfin tələffüz formasını yazın.**

______________________________________________________________

**19. 1-ci abzasda səhv yazılmış sözü müəyyənləşdirin.**

______________________________________________________________

**20. Mətndə altından xətt çəkilmiş cümlədə cümlə üzvlərini və onların ifadə vasitələrini yazın.**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

**21. Mətndə fərqləndirilmiş cümlədə hansı qrammatik qayda pozulmuşdur?**

A) Saydan sonra gələn isim cəm şəkilçisi qəbul etmişdir.
B) *Yaradıldı* sözündən sonra vergül işlənmişdir.
C) Saydan sonra şəkilçi işlənmişdir.
D) *Məşqlər* sözü cəmdə işlənmişdir.
E) *Başlandı* sözü təkdə işlənmişdir.

**22. Mətndən ismi xəbərli iki cümlə seçib yazın.**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

**23. Mətndən cümlə üzvlərinin hamısının iştirak etdiyi iki cümlə seçib yazın.**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

## Mövzu 1

## Uğur

**Məzmun standartları:**

**1.2.2., 2.1.1., 2.2.3., 3.1.2.**

**Məqsəd:**

- Müxtəlif formalı rabitəli nitq nümunələri qurur.
- Sözlərin kontekstə uyğun mənasını izah edir.
- İrəli sürülmüş fikirləri dəyərləndirir.
- Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:**

kollektiv, fərdi və qrupla iş

**İş üsulları:**

fasiləli oxu, müzakirə, karusel

**Resurslar:**

müdrik kəlamlar, uğur qazanmış insanların həyatından faktlar, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** *Müvəffəqiyyət* sözü olan mətn fasiləli oxunun tələblərinə uyğun oxudulur. Oxu zamanı daha sonra mətnin məzmununun aydınlaşdırılması üçün tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Uğur necə əldə olunur? Onun insan həyatında rolu nədən ibarətdir?*

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Təqdimatların xarakterinin açılması nəticəsində şagirdlərlə uğur qazanan insanların ortaq cəhətləri barədə mətndən sonra verilmiş xüsusiyyətlər müzakirə olunur. Müzakirələri davam etdirmək olar.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, insanlar zəhmət nəticəsində nailiyyət əldə edirlər və bu heç də təsadüflərlə bağlı deyil. Müvəffəqiyyət, uğur heç də asan əldə edilmir. Onun qazanılmasında gərgin əmək, zehni və fiziki fəaliyyət vacibdir. Əldə edilən hər bir uğur insan üçün zirvəyə qalxmağın növbəti pilləsidir.

**Yaradıcı tətbiqetmə:** 1-ci tapşırığa əsasən aparılır. 8-ci tapşırığın fərdi qaydada verilməsi məqsədəuyğundur.

**Ev tapşırığı:** 9-cu tapşırıq evə verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Nitqqurma, şərhetmə, dəyərləndirmə, əlaqələndirmə bacarıqları diqqətdə saxlanmalıdır.

***Qeyd.*** 8-ci tapşırığın cavabı aşağıdakı kimidir:




- Ən böyük **zəfər** insanın özünə qalib gəlməsidir. (*Platon*)
- Başqalarının **uğurlarına** qibtə edirik, ancaq bunun nəyin bahasına başa gəlməsi barədə düşünmürük. (*S.Smayls*)
- Fəal həyatın hər dəqiqəsi qazanılmış **qələbəyə** oxşayır. (*S.Smayls*)
- Hər məğlubiyyət gələcək **nailiyyətlər** yolunda qazanılan təcrübədir. (*D.Lourens*)

| I | II | III | IV |
|---|---|---|---|
| Rabitəli nitq nümunələri qurmağı bacarmır. | Rabitəli nitq nümunələri qurmaqda çətinlik çəkir. | Rabitəli nitq nümunələri qurur. | Müxtəlif formalı rabitəli nitq nümunələri qurur. |
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki fikirləri, əsasən, dəyərləndirir. | Mətndə səslənən fikirləri dəyərləndirir. |
| Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Fikir və mülahizələrini həyat hadisələri ilə müəllimin köməyi ilə əlaqələndirir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

# Mövzu 2

## Uğur

**Məzmun standartları:**

**3.1.2., 4.1.2.**

**Məqsəd:**

- Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.
- Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş forması:**

kollektiv və fərdi iş

**İş üsulları:**

müzakirə, karusel

**Resurslar:**

cümlə quruluşu ilə bağlı sxemlər

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Ev tapşırığı seçmə yolla oxudulur. Mətnin lüğət tərkibi və həmin sözlərin mətndə sintaktik vəzifələri ilə bağlı şagirdlərə suallar ünvanlanır. Dərslikdəki 10 və 12-ci tapşırıq kollektiv şəkildə icra olunur. 12-ci tapşırıq sadə cümlə ilə bağlı əvvəlki siniflərdə öyrədilmiş materialın yada salınması üçün motivasiya xarakteri daşıyır. Dərslikdə sadə cümlə ilə bağlı verilmiş suallar üzərində iş aparılır. Şagirdlərə cavablarını nümunələrlə əsaslandırmaq təklif olunur. Sonra mətnin dil xüsusiyyətləri araşdırılır.

**Tədqiqat sualı:** *Mətndə hansı cümlə növlərindən istifadə olunub?*

**Tədqiqatın aparılması:** Müəllim mətni bərabər hissələrə bölüb onun dil xüsusiyyətlərinin araşdırılması üçün tapşırıq verə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin dil xüsusiyyətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Təhlilin nəticəsində mətnin xarakterik cəhətləri ilə bağlı nəticə çıxarılır.

**Nəticələrin çıxarılması:** Mətndə sadə cümlənin müxtəlif növlərindən istifadə olunması əsas nəticə hesab olunur.

**Yaradıcı tətbiqetmə:** Şagirdlər 14-cü tapşırığı fərdi şəkildə, 13-cü tapşırığı qrupda karusel üsulu ilə yerinə yetirirlər.

**Ev tapşırığı:** 15-ci tapşırıq əsasında inşa yazmaq tapşırılır. Dərslikdə (səh. 59) şagirdə istiqamət verilmişdir. İnşanın planı müəllim tərəfindən verilə bilər. Yaxud dərsin sonunda şagirdlərlə birgə inşa yazmaq üçün planı tərtib edilə bilər.

**Qeyd.** Müəllim şagirdlərə eyni mövzuda təqdimat hazırlamağı da tapşıra bilər. Bu şagirddən daha çox yaradıcılıq tələb edir. Təqdimatda hansı materialın verilməsi, onun yeri gəldikcə müvafiq şəkillərlə və ya qrafik simvollarla müşayiət edilməsi şagirddən bacarıq tələb edir. Yaxşı olar ki, II bölmənin əvvəlində verilmiş "Müvəffəqiyyətin cəmiyyətlə nə kimi əlaqəsi vardır?" sualına şagird təqdimatlarında cavab axtarılsın.

**Qiymətləndirmə:** Özünüqiymətləndirmədən istifadə məqsədəuyğundur. Şagirdlər meyarlar əsasında özlərini qiymətləndirə bilərlər.

| **Ballar** / **Meyarlar** | **5** | **4** | **3** | **2** |
|---|---|---|---|---|
| Formalaşmış mülahizələrimi həyat hadisələri ilə əlaqələndirdim. | | | | |
| Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlətdim. | | | | |

## Mövzu 4

## Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim

### Məzmun standartları:

**1.1.2., 1.2.4., 2.1.1., 2.2.3.**

### Məqsəd:

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Mətndəki fikirləri dəyərləndirir.
- Yeni sözlərin mənasını şərh edir.

### İnteqrasiya:

Kimya – 4.3.1. Qeyri-üzvi kimya sahəsində görkəmli alimlər haqqında məlumatlar toplayır, təqdimatlar edir.

Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

Azərbaycan tarixi – 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

### İş forması:

kollektiv və böyük qrupla iş

### İş üsulları:

anlayışın çıxarılması, auksion, səsli oxu

### Resurslar:

lüğət, iş vərəqləri, məşhur kimyaçılarımızın şəkilləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə ev tapşırığının seçmə yolla oxudulması ilə başlaya bilər. Daha sonra anlayışın çıxarılması üsulundan istifadə etməklə dərsi davam etdirə bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




Kimyaçı alimlər anlayışı alındıqdan sonra şagirdlərdən auksion üsulu ilə daha hansı alimləri tanımaları soruşulur. Daha sonra yeni bir alimlə tanış olmaq üçün mətn səsli oxu ilə oxunur və 60-cı səhifədəki sualın cavabı tapılır. 4-cü fikir suala cavabdır. Səh. 61-də nöqtələrin yerinə Həsən bəy Zərdabinin adı yazılmalıdır. 9-cu tapşırıq da mətnin oxusu zamanı icra edilir. 9-cu tapşırığın cavabı "yeri gəlmişkən qeyd edək ki" ifadəsidir. Sonra tədqiqat sualı formalaşdırılır.

Dərsliyə bu mətnin salınmasının səbəbi insanın çəkdiyi zəhmətin, sərf etdiyi əməyin onun uğur əldə etməsində rolunu göstərməkdir.

**Tədqiqat sualı:** *Mövsüm bəy Xanlarovun əldə etdiyi nailiyyətlərin əsas səbəbi nə idi?*

**Tədqiqatın aparılması:** Müəllim sinfi 2 böyük qrupa bölür. Hər iki qrup ayrı-ayrılıqda 1 və 3-cü tapşırıqları icra edirlər. 2, 5, 8 və 10-cu tapşırıqlar hər qrupdan iki şagird seçilməklə fərdi qaydada verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. 6 və 12-ci tapşırıqlar icra edilir. 6-cı tapşırıq təlimdə yüksək nəticə göstərən şagirdlərə fərdi qaydada təqdimat hazırlamaq üçün də verilə bilər.

Müzakirədə təlimdə nisbətən zəif nəticə göstərən şagirdlərə 4-cü tapşırıq ətrafında danışmaq təklif olunur.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, kimyaçı alimin əldə etdiyi nailiyyətlərin əsas səbəbi onun zəhmət çəkməsi, diqqətini elmə və təhsilə ayırması, hədəflərini və məqsədlərini düzgün müəyyənləşdirməsi idi.

**Yaradıcı tətbiqetmə:** 7-ci və 11-ci tapşırıq üzrə aparılır.

**Ev tapşırığı:** 1-ci tapşırıqda öz əksini tapan "Cədvələ əsasən özünüzün uğur pillənizi müəyyən edin" cümləsi əsasında sxem hazırlamağı tapşırmaq olar.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, təqdimetmə, dəyərləndirmə bacarıqları nəzərdən qaçmamalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirə bilmir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini çətinliklə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini ətrafın köməkliyi ilə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirləri yığcam şəkildə təqdim edə bilmir. | Fikirləri yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirləri yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki fikirləri, əsasən, dəyərləndirir. | Mətndə səslənən fikirləri dəyərləndirir. |
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |

## Mövzu 5

## Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim

**Məzmun standartları:**

**1.2.1., 4.1.1.**

**Məqsəd:**

- Dil vahidlərindən istifadə etməklə müxtəlif formalı mətnlər qurur.
- Mürəkkəb cümləni sadə cümlədən fərqləndirir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:**

kollektiv və fərdi iş

**İş üsulları:**

interaktiv mühazirə, klaster

**Resurslar:**

mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə 14-cü tapşırığın kollektiv şəkildə icrası ilə başlaya bilər. Bu tapşırıq mürəkkəb cümlənin izahı üçün zəmin yaradacaqdır. Daha sonra dərslikdə mürəkkəb cümlə ilə bağlı verilmiş qayda (səh. 64) izah olunmalıdır.

**Tədqiqat sualı:** *Mürəkkəb cümlələrin dildəki rolu nədən ibarətdir?*

**Tədqiqatın aparılması:** Şagirdlər fərdi qaydada 15 və 16-cı tapşırığı icra edirlər.

***Qeyd.*** 15-ci tapşırığın cavabı: 1-ci cümlə quruluşuna görə sadə, 2-ci cümlə həmcins üzvlü cümlə, 3, 4-cü cümlələr tabeli mürəkkəb cümlələr, 5-ci cümlə tabesiz mürəkkəb cümlədir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq mürəkkəb cümlələrin növləri və yaranma yolları barədə təqdimatlar dinlənilir. Müzakirədən sonra yekun nəticəyə gəlinir.

**Nəticələrin çıxarılması:** Mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin birləşməsindən yaranır. Mürəkkəb cümlələr yazılı və şifahi nitqdə fikri daha geniş, əhatəli, dolğun və dəqiq ifadə etməyə xidmət edir. Mürəkkəb cümlələrdən şifahi nitqdə daha çox isti-

fadə olunur. Belə cümlələr fikri daha dəqiq çatdırmağa xidmət edir.

**Yaradıcı tətbiqetmə:** 17-ci tapşırıq üzrə iş aparılır.

**Ev tapşırığı:** Şagirdlərə zəhməti, biliyi və ağlı sayəsində həyatda uğur qazanmış hər hansı bir şəxs (şagirdlər seçimdə sərbəstdirlər. Belə ki bu şəxs musiqiçi, tarixçi, etnoqraf, rəssam, aktyor və s. ola bilər) haqqında təqdimat hazırlamaq (inşa, esse və ya hekayə yazmaq) tapşırıla bilər.

13-cü tapşırıq təlimdə I və II səviyyəyə uyğun şagirdlərə verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Mətnqurma, fərqləndirmə bacarıqları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Müxtəlif formalı mətnlər qurmağı bacarmır. | Müxtəlif formalı mətnlər qurmaqda çətinlik çəkir. | Müxtəlif formalı mətnlər qurur. | Dil vahidlərindən istifadə etməklə müxtəlif formalı mətnlər qurur. |
| Mürəkkəb cümləni sadə cümlədən fərqləndirməyi bacarmır. | Mürəkkəb cümləni sadə cümlədən fərqləndirməkdə çətinlik çəkir. | Mürəkkəb cümləni sadə cümlədən fərqləndirərkən müəllimin köməyindən istifadə edir. | Mürəkkəb cümləni sadə cümlədən fərqləndirir. |

## Mövzu 6

### Bir ağacın hekayəsi

**Məzmun standartları:**

**1.2.4., 2.2.1., 2.2.3., 3.1.2.**

**Məqsəd:**

- Dinlədiyi fikirləri ümumiləşdirərək yığcam təqdim edir.
- Mətni düzgün intonasiya ilə oxuyur.
- Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
- Fikirlərini həyat hadisələri ilə əlaqələndirir.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.
Biologiya – 4.1.1. Ekoloji amillərin canlıların həyatında rolunu şərh edir, təqdimatlar hazırlayır.
Coğrafiya – 3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir.

**İş forması:**

kollektiv və qrupla iş

**İş üsulları:**

interaktiv mühazirə, müzakirə

**Resurslar:**

iş vərəqləri, biologiyadan toxumun cücərməsinə aid şəkil və ya video

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Şagirdlərə aşağıdakı tapşırıq verilir və nöqtələrin yerində hansı sözün olması soruşulur:

....... qurd içindən yeyər.

....... dibindən su içər.

........ bar verdikcə başını aşağı salar.

*Ağac* sözü alındıqdan sonra Ulu öndərin kəlamı oxunur və tərbiyəvi əhəmiyyəti barədə şagirdlərin fikirləri soruşulur. Biologiya və coğrafiyadan müvafiq biliklər şagirdlərə xatırladılır. Daha sonra 1-ci tapşırığa uyğun mətn oxunur, mətndaxili suallar üzərində iş aparılır və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Ağacın "dilə gəlməsi"nin səbəbi nə ilə bağlıdır?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür. I qrupa dərslikdəki 2, 3-cü, II qrupa 5, 6-cı, III qrupa 7, 8-ci, IV qrupa 9, 10-cu tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirədə 4, 11, 12-ci tapşırıq üzərində iş aparılır.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətndə təbiətə, insana sevgi aşılanır. İnsanlararası münasibətlərin tənzimlənməsi, insanın təbiətin qayğısına qalması kimi fikirlər ön plana çəkilir. Ağacı "dilə gətirən" məhz bu problemlər və onların həllini tapmamasıdır.

İnsan üçün ən böyük dəyər onu sevmək, ona diqqət yetirməkdir. Bəşəriyyət insanların sevgi ocağıdır. Təbiət bəşəriyyətin ən ülvi varlığıdır. Onu qorumaq lazımdır.

**Yaradıcı tətbiqetmə:** 11-ci tapşırıqda verilmiş sual üzərində (Siz dünyanı gözəlləşdirmək üçün hansı təklifləri verərdiniz?) iş aparılır. Təkliflərin müqayisəsi əsasında tətbiqetmə aparıla bilər.

**Ev tapşırığı:** 13-cü tapşırıq verilir. Bu tapşırığın verilməsində əsas məqsəd şagirdlərin ad və hərəkət bildirən sözləri dəqiq uzlaşdırmaq, nitqini düzgün qura bilmək bacarıqlarını formalaşdırmaqdır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Oxuma, dəyərləndirmə, təqdimetmə, əlaqələndirmə bacarıqları əsas götürülür.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirləri yığcam şəkildə təqdim edə bilmir. | Dinlədiyi fikirləri yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Dinlədiyi fikirləri yığcam şəkildə təqdim edir. | Dinlədiyi fikirləri ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Mətni düzgün intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni düzgün intonasiya ilə oxuyarkən müəyyən səhvlərə yol verir. | Mətni düzgün intonasiya ilə oxuyur. | Mətni tələb olunan düzgün intonasiya ilə oxuyur. |
| Mətndə irəli sürülmüş fikirləri dəyərləndirməyi bacarmır. | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. | Mətndə irəli sürülmüş fikirləri öz mövqeyindən çıxış edərək dəyərləndirir. |
| Fikirlərini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Fikirlərini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Fikirlərini həyat hadisələri ilə əlaqələndirir. | Fikirlərini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

## Mövzu 7

### Bir ağacın hekayəsi

**Məzmun standartları:**

**3.1.1., 4.1.1., 4.1.3.**

**Məqsəd:**

- Mövzuya uyğun təsviri esse yazır.
- Tabesiz və tabeli mürəkkəb cümləları bir-birindən fərqləndirir.
- Tabesiz və tabeli mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş forması:**

qrupla və fərdi iş

**İş üsulları:**

beyin həmləsi, Venn diaqramı, müzakirə

**Resurslar:**

mürəkkəb cümlənin növlərinə aid sxemlər, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə icrası evə verilmiş 13-cü tapşırığın oxunması ilə başlanıla bilər. Uyğunluq müəyyənləşdirildikdən sonra hansı sözlərin iki feilə aid olması dəqiqləşdirilir.

13-cü tapşırığın cavabı: *qırmaq 2, 4, 8, 11, 16; kəsmək 3, 5, 6, 17; doğramaq 1, 7, 12, 13; sındırmaq 11, 14, 16; parçalamaq 2, 8, 10; yarmaq 7, 15, 18.*

Müəllim 13-cü tapşırıqda işlənmiş söz birləşmələrindən ikisini seçib həmin ifadələri həm sadə, həm də mürəkkəb cümlənin tərkibində işlətməyi şagirdlərə təklif edir. Həmin cümlələr lövhəyə yazılır. Əgər şagirdlərin söylədiyi cümlələr tabesiz mürəkkəb cümlə olarsa, müəllim lövhəyə həmin ifadələrdən birinin işləndiyi tabeli mürəkkəb cümlə yaza və cümlələrin müqayisəsini apara bilər. Yaxşı olar ki, müəllim tabeli və tabesiz ifadələrini səsləndirmədən şagirdlərdə bərabərhüquqluluq və tabelilik haqqında fikir formalaşdırsın və bunu həmin cümlələr üzərindən etsin. Şagirdlər fərqi özləri müəyyənləşdirsinlər.

Daha sonra dərslikdəki qayda (səh. 71) şagirdlərə izah olunur. Tədqiqat sualı formalaşdırılır:

**Tədqiqat sualı:** *Mürəkkəb cümlənin xüsusiyyətləri hansılardır?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 14-cü, II qrupa 16-cı, III qrupa 17-ci, IV qrupa 18-ci tapşırıq verilə bilər. 15-ci tapşırıq hər qrupdan bir nəfər şagird seçilməklə təqdim olunur. Həmin sözlərdən 1-2-ni mürəkkəb cümlənin tərkibində işlətməyi təklif etmək məqsədəuyğundur. Bu tapşırıq aşağı sinifdə öyrənilmiş biliklərin təkrarlanmasına xidmət edir. Müzakirə zamanı tapşırığın səsləndirilməsi digər şagirdlər üçün də təkrar xarakteri daşıyır.

**Məlumat mübadiləsi və müzakirə:** Qrupların təqdimatı dinlənilir. Müzakirə üçün əlavə suallar verilir. Venn diaqramı ilə mürəkkəb cümlənin növləri fərqləndirilir.

**Nəticələrin çıxarılması:** Tədqiqat nəticəsində müəyyənləşir ki, mürəkkəb cümlə tabeli və tabesiz olur. Hər iki növ sadə cümlələrin əsasında yaranır. Tabeli və tabesiz mürəkkəb cümlələrdən nitqdə geniş istifadə olunur.

**Yaradıcı tətbiqetmə:** 19-cu tapşırıq verilir. 19-cu tapşırıqda ifadə olunan fikirlər "Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim", "Bir ağacın hekayəsi" mətnlərində ifadə olunan fikirlərlə əlaqələndirilir.

**Ev tapşırığı:** 20-ci tapşırıq verilir. 20-ci tapşırığın icrası üçün müəllim şagirdə aşağıdakı plan nümunəsini təqdim edə bilər:

1. Ekoloji tarazlıq nədir?
2. Ekoloji tarazlığın pozulmasına səbəb nədir?
3. Ekoloji tarazlığın qorunması üçün hansı tədbirlər görülür?
   3.1. dünyada
   3.2. ölkəmizdə
4. Ekoloji tarazlığın qorunması üçün nə təklif edirəm?
5. Nəticə.

**Qeyd.** Şagirdlərə təqdimatda əks etdirdikləri məlumatı təsdiqləyən şəkillərin, sxemlərin, cədvəllərin, sorğuların nəticələrinin (əgər keçirəcəklərsə) əlavə edilməsi üçün tövsiyələr verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Fərqləndirmə, istifadəetmə bacarıqlarına əsaslanmaq olar.

***Qeyd.*** 19-cu tapşırığın cavabı:

| | |
|---|---|
| Məqsədə çatmaq üçün bir böyük addım atmaqdansa | yersiz bədbinliyə qapılıb həyatınızı zəhərləməyin. (*Ç.Pirs*) |
| Dünya gözəldir | yükü sizi üzər. (*Ç.Pirs*) |
| Ürəyinizdə ədavət və kin saxlamayın | yüz kiçik addım atmaq yaxşıdır. (*H.Kol*) |

"Dünya gözəldir, ... zəhərləməyin" cümləsi tabesiz mürəkkəb cümlə, digər ikisi tabeli mürəkkəb cümlədir.

| I | II | III | IV |
|---|---|---|---|
| Təsviri esse yazmaqda çətinlik çəkir. | Təsviri esseni müəllimin köməyi ilə yazır. | Təsviri esseni yazarkən səhvlərə yol verir. | Təsviri esse yazır. |
| Tabesiz və tabeli mürəkkəb cümlələri bir-birindən fərqləndirə bilmir. | Tabesiz və tabeli mürəkkəb cümlələri çətinliklə bir-birindən fərqləndirir. | Tabesiz və tabeli mürəkkəb cümlələri bir-birindən fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabesiz və tabeli mürəkkəb cümlələri asanlıqla bir-birindən fərqləndirir. |
| Tabesiz və tabeli mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Tabesiz və tabeli mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Tabesiz və tabeli mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edərkən müəyyən səhvlərə yol verir. | Tabesiz və tabeli mürəkkəb cümlələrdə durğu işarələrindən düzgün istifadə edir. |

## Mövzu 8

## Məndə ixtiyar olsa idi

**Məzmun standartları:**

**1.1.2., 2.1.2., 2.2.1., 4.1.1.**

**Məqsəd:**

- Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir.
- Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirir.
- Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur.
- Tabesiz mürəkkəb cümlələri bir-birindən fərqləndirir.

**İnteqrasiya:**

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur. 1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

**İş formaları:**

kollektiv, qrupla və fərdi iş

**İş üsulları:**

anlayışın çıxarılması, klaster, beyin həmləsi

**Resurslar:**

R.Rzanın seçilmiş əsərləri, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə aşağıda verilmiş məlumatın oxusu ilə başlaya bilər.

Bu şairin "Bu gün" adlı ilk şeiri 1927-ci ildə "Qığılcım" almanaxında (Tiflis) dərc olunmuşdur. İlk şeirlərindən müasirlik ruhu ilə seçilən lirik şair kimi diqqəti cəlb etmişdir. Böyük Vətən müharibəsi illərində hərbi müxbir olan bu şair xalqın qəhrəmanlıq mübarizəsini, qələbəyə inamını, humanizmini əks etdirən əsərlər yaratmışdır. O həm də gözəl ailə başçısı idi. Həyat yoldaşı Nigar xanım Rəfibəyli də şair idi. Oğlu Anar da ata-anasının yolu ilə gedərək həyatını yaradıcılığa bağladı. O, Yazıçılar İttifaqının sədri olub.

Söhbətin kimdən getdiyi aydınlaşandan sonra şeir oxunur və qrammatik qayda izah olunur. Mətnə uyğun olaraq tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətnin xarakterik xüsusiyyətləri nədir?*

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünür və onlara tədqiqat xarakterli suallar ünvanlanır. I qrupa dərslikdəki 1–3-cü, II qrupa 4–6-cı, III qrupa 7, 8-ci, IV qrupa 9, 10-cu, V qrupa 11–13-cü tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə:** Şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün mətnin daxilində verilmiş sualdan istifadə edir. Müzakirənin sonunda dərsin nəticəsini klasterlə formalaşdıra bilər. 17-ci tapşırıq kollektivlə birgə işlənir.

**Nəticələrin çıxarılması:** Nəticədə müəyyən olunur ki, mətn dərin fəlsəfi yükə malikdir. Cümlə quruluşu baxımından rəngarəngdir. Bədii təsvir və ifadə vasitələri də zəngindir.

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə fərdi şəkildə 12-ci tapşırığı hazırlamaq tapşırılır.

**Ev tapşırığı:** Mövzu ilə bağlı təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, oxuma, fərqləndirmə, istifadəetmə bacarıqlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlənilən fikirlərə şəxsi münasibətini bildirmir. | Dinlənilən fikirlərə şəxsi münasibətini bildirməkdə çətinlik çəkir. | Dinlənilən fikirlərə münasibət bildirir. | Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir. |
| Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirməyi bacarmır. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirməkdə çətinlik çəkir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını müəyyən düzəlişlərlə dəqiqləşdirir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirir. |
| Mətni müəyyən olunmuş intonasiya ilə oxumağı bacarmır. | Mətni müəyyən olunmuş intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni intonasiya ilə oxuyur. | Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur. |
| Tabesiz mürəkkəb cümlələri bir-birindən fərqləndirməkdə çətinlik çəkir. | Tabesiz mürəkkəb cümləni fərqləndirərkən müəllimin köməyindən istifadə edir. | Tabesiz mürəkkəb cümləni fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabesiz mürəkkəb cümləni asanlıqla fərqləndirir. |

# Mövzu 9

## Məndə ixtiyar olsa idi

**Məzmun standartları:**

**3.1.4., 4.1.1., 4.1.3.**

**Məqsəd:**

- Müxtəlif mövzularda hesabat yazır.
- Tabesiz mürəkkəb cümlələri bir-birindən fərqləndirir.
- Mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

**İş forması:**

fərdi iş

**İş üsulları:**

beyin həmləsi, müzakirə

**Resurslar:**

müxtəlif hesabat formaları, əməli yazı nümunələri kitabı

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərs 14-cü tapşırığın icrası ilə başlanır. Tapşırığın icrasından sonra tabesiz mürəkkəb cümlə haqqında məlumat verilir. 15, 16-cı tapşırıqlar yerinə yetirilir. 18-ci tapşırığa əsasən verilmiş nümunə şagirdlərlə fərdi şəkildə işlənilir. Hesabat haqqında qayda izah olunur və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Məktəbdə "Sağlam həftə" layihəsinin iştirakçısı olsanız, hesabatınızı necə hazırlayardınız?*

**Tədqiqatın aparılması:** Şagirdlər fərdi şəkildə hesabatlar hazırlayırlar.

**Məlumat mübadiləsi və müzakirə:** Müxtəlif işlərə görə özlərini məsul bilən şagirdlər gördükləri işlərin hesabatını verirlər. Hesabatın xarakterik xüsusiyyətləri müzakirə olunur.

**Nəticələrin çıxarılması:** Şagirdlər hesabatın özünəməxsus cəhətlərinin olmasını aydınlaşdırırlar.

**Yaradıcı tətbiqetmə:** "Hər hansı bir işin hesabatının verilməsində məqsəd nədən ibarətdir?" sualına cavab vermək tapşırığı verilir.

**Qiymətləndirmə:** Şagird özünüqiymətləndirməsi ilə aparıla bilər. Şagird uyğun xanada qeyd işarəsini qoymalıdır.

***Qeyd.*** Müəllim şagirdlərə aşağıdakı məzmunda hesabat forması yazmağı öyrədə bilər. İstənilən mövzuda hesabat yazdırmaq olar.

Uşaq birliyinin rəhbəri Nigar Ceyhun qızının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı keçirdiyi tədbirlərə dair

**HESABATI**

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi üçün noyabr ayında məktəb fəallarının iştirakı ilə tədbirlər planı işlənib hazırlanmış, siniflər arasında vəzifə bölgüsü aparılmışdır.

Ədəbi-bədii gecənin keçirilməsi üçün ssenari yazılmış, həmin ssenari əsasında hazırlanmış tədbir dekabrın 26-da məktəb kollektivi qarşısında nümayiş etdirilmişdir.

Bu münasibətlə məktəbdə inşa müsabiqəsi keçirilmiş, şagirdlərin əl işlərindən ibarət sərgi təşkil edilmişdir.

Tədbirin yekununda müsabiqənin qalibləri diplomla təltif edilmiş, daha fəal iştirak edən siniflər fəxri fərmana layiq görülmüşdür.

29.12.2015-ci il

| I | II | III | IV |
|---|---|---|---|
| Tabesiz mürəkkəb cümləni fərqləndirmirəm. | Tabesiz mürəkkəb cümləni fərqləndirməkdə çətinlik çəkirəm. | Tabesiz mürəkkəb cümləni fərqləndirərkən səhvlərə yol verirəm. | Tabesiz mürəkkəb cümləni fərqləndirirəm. |
| | | | ✶ |
| Natamam hesabatlar yazıram. | Hesabatda fikirlərimi ümumiləşdirməkdə çətinlik çəkirəm. | Hesabatlar hazırlayan zaman səhvlərə yol verirəm. | Müxtəlif mövzularda hesabatlar yazıram. |
| Durğu işarələrindən istifadə etməyi bacarmıram. | Durğu işarələrindən bəzən düzgün istifadə edirəm. | Durğu işarələrindən istifadə edirəm. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən düzgün istifadə edirəm. |
| Şagirdin adı, soyadı, ata adı: İmran İlham oğlu Cavadov | | | |

## Mövzu 10

## Mətn (dərslik səh. 78)

### Məzmun standartları:

**1.2.2., 2.1.1., 2.2.3., 3.1.2.**

### Məqsəd:

- Təqdim olunmuş mətnin ardını yazır.
- Tanış olmayan sözlərin mənasını şərh edir.
- Müxtəlif fikirləri dəyərləndirir.
- Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

### İnteqrasiya:

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
Azərbaycan tarixi – 1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

### İş formaları:

qrupla və fərdi iş

### İş üsulları:

anlayışın çıxarılması, beyin həmləsi, rollu oxu

### Resurslar:

Elxan Elatlı haqqında məlumat, əsərlərindən xülasələr, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




Şagirdlərdən bu əsərlərin müasir detektiv mövzuda yazan yazıçılardan kimə məxsus olması soruşulur. Elxan Elatlının daha bir əsəri ilə tanış olmaq üçün mətn oxudulur, mətndaxili suallar üzərində iş aparılır. Mətn oxunandan sonra 1-ci tapşırığa uyğun olaraq ona ad qoyulur. Bu tapşırıq müzakirə əsasında da icra edilə bilər. Müəllim özü də şagirdlərə bir neçə variant təklif edə bilər. Məzmunu aydınlaşdırmaq üçün tədqiqat sualı verilir.

**Tədqiqat sualı:** *Müəllif oxucuya hansı fikirləri çatdırmaq istəyir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür, onlara iş vərəqləri paylanır və aşağıdakı tapşırıqların icrası tapşırılır: I qrupa

2, 3-cü, II qrupa 4, 5-ci, III qrupa 6, 7-ci, IV qrupa 11-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı müəllim özü hazırladığı suallardan istifadə edə bilər. Verilmiş suallardan istifadə etmək tədqiqatın xarakterinin açılması üçün faydalı ola bilər.

**Nəticələrin çıxarılması:** Təqdimatlardan sonra məlum olur ki, mətndə fizik-alim Aqşinin vətənpərvərliyinin verilməsi, onun timsalında digərlərinə də örnək ola biləcək surətin yaradılması müəllifin əsas məqsədi olmuşdur. "Heç nəyə baxmayaraq, birinci növbədə, vətənə sadiq olmalıyıq" fikri mətnin əsas ideyasını təşkil edir.

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki 8-ci tapşırığın üzərində işləmək tapşırılır.

11-ci tapşırığın cavabı: Nöqtələrin yerinə 1-ci cümlədə *kəşf,* 2-ci cümlədə *ixtira,* 3-cü cümlədə *icad,* 4-cü cümlədə *düzəltmişdir* sözləri yazılmalıdır. Şagirdlər müəyyənləşdirməlidirlər ki, *ixtira, icad, kəşf* sözləri sinonimdir, *düzəltmişdir* sözü feil olduğu üçün həmin sözlərlə sinonim ola bilmir.

**Ev tapşırığı:** 9 və 10-cu tapşırıqlar verilə bilər.

**Qiymətləndirmə:** Meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Nitqqurma, əsaslandırma, şərhetmə, dəyərləndirmə bacarıqları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Təqdim olunmuş mətnin ardını yazmaqda çətinlik çəkir. | Təqdim olunmuş mətnin ardını yazarkən müəllimin köməyindən istifadə edir. | Təqdim olunmuş mətnin ardını yazarkən müəyyən səhvlərə yol verir. | Təqdim olunmuş mətnin ardını sərbəst yazır. |
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Müxtəlif fikirləri dəyərləndirməyi bacarmır. | Müxtəlif fikirləri çətinliklə dəyərləndirir. | Səslənən müxtəlif fikirləri dəyərləndirir. | Müxtəlif fikirləri öz mövqeyindən çıxış edərək dəyərləndirir. |
| Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

# Mövzu 11

## Mətn (dərslik səh. 78)

### Məzmun standartları:

**4.1.1., 4.1.3.**

### Məqsəd:

- Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında qrammatik mənanı fərqləndirir.
- Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

### İnteqrasiya:

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

anlayışın çıxarılması, interaktiv mühazirə, müzakirə

### Resurslar:

tabesiz mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə anlayışın çıxarılması üsulu ilə başlamaq olar.




Diqqət “Tabesiz mürəkkəb cümlə” anlayışına yönəldilir və dərslikdəki qayda izah olunur. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Tabesizlik anlayışı dedikdə nə başa düşürsünüz? Tabesiz mürəkkəb cümlələrin dilimizdə rolu nədən ibarətdir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunur: I qrupa 12, 13-cü, II qrupa 14, 15-ci, III qrupa 16-cı, IV qrupa 17-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq tabesiz mürəkkəb cümlənin dilimizdə oynadığı rol barədə təqdimatlar dinlənilir.

**Nəticələrin çıxarılması:** Tabesiz mürəkkəb cümlələr dilimizdə böyük rol oynayır. Fikrin təfərrüatlı ifadəsinə xidmət edir. Bu cümlələrin köməyi ilə fikri dolğun çatdırmaq mümkün olur.

**Yaradıcı tətbiqetmə:** Müəllim hər hansı bir bədii və ya elmi mətni şagirdlərə təqdim etməklə tabesiz mürəkkəb cümlələrin müəyyənləşdirilməsini, yaxud sadə cümlələrin tabesiz mürəkkəb cümləyə çevrilməsini tapşıra bilər.

**Ev tapşırığı:** Müxtəlif növ bağlayıcılarla əlaqələnən 10 tabesiz mürəkkəb cümlə yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Fərqləndirmə, istifadəetmə bacarıqlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında qrammatik mənanı fərqləndirərkən çətinlik çəkir. | Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında qrammatik mənanı fərqləndirərkən müəllimin köməyindən istifadə edir. | Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında qrammatik mənanı fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında qrammatik mənanı fərqləndirir. |
| Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməyi bacarmır. | Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir. | Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən düzgün istifadə edir. |

# Mövzu 12

## Qeyri-adi zəka sahibi – Robert Oppenheymer

### Məzmun standartları:

**1.1.1., 1.2.1., 3.1.1., 3.1.3.**

### Məqsəd:

- Tədqiqat xarakterli suallar verir.
- Mürəkkəb cümlələrdən istifadə əsasında mətnlər qurur.
- Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir.
- Təsviri xarakterli esse yazır.

### İnteqrasiya:

Həyat bilgisi – 2.2.1. Əsas insan hüquqlarının Beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır.
Fizika – 3.2.2. Müxtəlif fiziki hadisələrin inkişafında fizika elminin roluna dair təqdimatlar edir.
Kimya – 4.3.1. Qeyri-üzvi kimya sahəsində görkəmli alimlər haqqında məlumatlar toplayır, təqdimatlar edir.

### İş formaları:

qrupla və fərdi iş

### İş üsulları:

beyin həmləsi, debat, tənqidi oxu

### Resurslar:

Robert Oppenheymer və Mariya Küri ilə bağlı məlumatlar, fotoşəkillər, Xirosima və Naqasakiyə aid faciəvi faktlar, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə Xirosima və Naqasakidə baş vermiş bombardmanın xatırlanması ilə başlana bilər. Tarixə qayıdaraq bu bombalanmanın səbəbi araşdırılmalıdır. Səbəbkarın adı açıqlanaraq mətn tənqidi oxu əsasında oxudula bilər. Mövzuya uyğun olaraq tədqiqat sualı formalaşdırılmalıdır.

**Tədqiqat sualı:** *İnsanlar dünyanı hansı yollarla "dağıda" bilərlər?*

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünürlər. Hər üç qrupa eyni tapşırıqlar (tapşırıq 1–5) verilir. Məqsəd şagirdlərin eyni mövzuya yanaşma tərzlərini və abzasları əlaqələndirmək bacarığını yoxlamaqdır (səh. 84). Hər 3 qrupun təqdimatları dinlənilir, müzakirə edilir, daha mükəmməl qrup işi müəyyənləşdirilir. Həmin işin mükəmməl olmasının səbəbləri müzakirə edilir.

**Məlumat mübadiləsi və müzakirə:** Robert Oppenheymerlə Mariya Kürinin elmə verdiyi töhfələr müqayisə edilə bilər. Debat üçün arqument dərslikdə (səh. 89) verilmişdir.

**Nəticələrin çıxarılması:** Mətndə verilmiş faktlar olduqca maraqlıdır.

İnsan zəkası ilə qazanılan uğur da dünyanı dağıda bilər. İnsan öz biliyini, bacarı-

ğını xeyirxah işlərə, dünyanın gözəlləşdirilməsinə sərf etməlidir.

**Müəllimin nəzərinə:** Mətnin müəllifi B.Yusifoğlu öz məqaləsini "Dünyanı dağıdan adam" adlandırmışdır. Əgər şagirdlərin seçimi fərqli olarsa, müəllim onların fikirlərini əsaslandırmalarına çalışmalıdır.

Dərsliyin 87-ci səhifəsində verilmiş birinci sualın cavabı: 1-ci mətni 86-cı səhifədəki "...o müdhiş partlayış baş verəcək" cümləsindən sonra yerləşdirmək lazımdır.

Üçüncü sualın cavabı: mətni 85-ci səhifədə birinci abzasdan sonra əlavə etmək məqsədəuyğundur.

**Ev tapşırığı:** Atom bombasının gətirdiyi bəlalarla bağlı bir səhifə həcmində esse yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Özünüqiymətləndirmədən istifadə məqsədəuyğundur. Şagirdlər meyarlar əsasında qrupu qiymətləndirə bilərlər.

| **Ballar** / **Meyarlar** | **5** | **4** | **3** | **2** |
|---|---|---|---|---|
| Tədqiqat xarakterli suallar verdik. | ✶ | | | |
| Mürəkkəb cümlələrdən istifadə əsasında mətn qurduq. | ✶ | | | |
| Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazını təkmilləşdirdik. | ✶ | | | |

# Mövzu 13

## Qeyri-adi zəka sahibi – Robert Oppenheymer

**Məzmun standartları:**

**3.1.1., 4.1.1., 4.1.2., 4.1.3.**

**Məqsəd:**

- Verilmiş mövzuya uyğun esse yazır.
- Tabesiz mürəkkəb cümləni fərqləndirir.
- Sözləri və söz birləşmələrini sintaktik vəzifələrdə işlədir.
- Tabesiz mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş formaları:**

kollektiv və qrupla iş

**İş üsulları:**

beyin həmləsi, müzakirə

**Resurslar:**

tabesiz mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə ev tapşırığı kimi verilmiş essenin yoxlanılması ilə başlanılır. Essedə istifadə olunan cümlələrin quruluşuna diqqət yönəldilir. Bu cümlələrin hansı vasitələrlə bağlanması müəllimin əsas diqqət mərkəzində olmalıdır. Dərslikdəki 12-ci tapşırıq qrammatik qaydanın öyrədilməsi üçün başlanğıc rolunu oynaya bilər. Tapşırıq yerinə yetirildikdən sonra tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Tabesiz mürəkkəb cümlələr hansı vasitələrlə bağlanır?*

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş qaydalara əsasən müvafiq tapşırıqlar qrup işi kimi verilir. I qrupa 11, 13-cü, II qrupa 14-cü, III qrupa 15 və 17-ci tapşırıqlar verilir.

**Müəllimin nəzərinə:** 7, 8, 9 və 10-cu tapşırıqlarda verilən sözlərdən istifadə etməklə tabesiz mürəkkəb cümlə yazmaq qrup tapşırığına əlavə edilə bilər.

9-cu tapşırıqda nöqtələrin yerinə ardıcıl olaraq *dərk, ağıl* və *dərrakə* sözləri yazılmalıdır.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq cavablar dinlənilir və müzakirə edilir. I qrup gəldiyi qənaət əsasında tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr, II qrup tabesiz mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən qarşılaşdırma bağlayıcıları, III qrup tabesiz mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən aydınlaşdırma, bölüşdürmə və iştirak bağlayıcılarında durğu işarələrinin işlənməsi qaydaları haqqında məlumat verir. Bu, şagirdlər üçün o qədər də çətinlik törətməyəcək, çünki onlar aşağı siniflərdə bu bağlayıcılardan əvvəl və sonra durğu işarələrinin işlənməsi qaydaları ilə tanışdırlar. Müzakirələr zamanı ehtiyac olarsa, müəllim şagirdlərin izahlarına aydınlıq gətirə bilər.

**Nəticələrin çıxarılması:** Tabesiz mürəkkəb cümlələrin iki əlaqələnmə yolu var – birinci yolu intonasiya ilə, ikinci yolu bağlayıcılarla.

**Yaradıcı tətbiqetmə:** 16-cı tapşırıq yerinə yetirilir.

**Ev tapşırığı:** 18-ci tapşırığa əsasən yerinə yetirilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Esseyazma, fərqləndirmə, istifadəetmə bacarıqlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Verilmiş mövzuya uyğun esse yazmağı bacarmır. | Verilmiş mövzuya uyğun esse yazmaqda çətinlik çəkir. | Verilmiş mövzuya uyğun esseni natamam yazır. | Verilmiş mövzuya uyğun esse yazır. |
| Tabesiz mürəkkəb cümləni fərqləndirməyi bacarmır. | Tabesiz mürəkkəb cümləni fərqləndirməkdə çətinlik çəkir. | Tabesiz mürəkkəb cümləni fərqləndirir. | Tabesiz mürəkkəb cümləni asanlıqla fərqləndirir. |
| Sözləri sintaktik vəzifələrdə işlədə bilmir. | Sözləri sintaktik vəzifələrdə işlətməkdə çətinlik çəkir. | Sözləri sintaktik vəzifələrdə işlədir. | Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir. |
| Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən istifadə edərkən müəllimin köməyinə əsaslanır. | Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir. | Tabesiz mürəkkəb cümlədə durğu işarələrindən düzgün istifadə edir. |

## Mövzu 14

### Ağ göyərçin

**Məzmun standartları:**

**1.1.2., 1.2.3., 1.2.4., 2.2.1.**

**Məqsəd:**

- Səslənən fikirlərə münasibət bildirir.
- Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Mətni düzgün intonasiya ilə oxuyur.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir. 4.1.1. Sağlam ailənin qurulmasında sağlam həyat tərzinin əhəmiyyətini dəyərləndirir. Biologiya – 3.1.1. İnsanın formalaşmasında sosial amillərin roluna və əhəmiyyətinə dair təqdimatlar hazırlayır. 4.1.1. Ekoloji amillərin canlıların həyatında rolunu şərh edir, təqdimatlar hazırlayır.

**İş formaları:**

kollektiv və cütlərlə iş

**İş üsulları:**

fasiləli oxu, auksion, diskussiyalı oxu

**Resurslar:**

"Göyərçin əfsanəsi", müxtəlif quş rəsmləri, ibrətamiz fikirlərdən seçmələr, lüğət, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə quşların kütləvi şəkildə qırılmasını əks etdirən filmin nümayişi ilə başlaya bilər. O, *"Quşlar nə üçün kütləvi şəkildə qırılır?"*, *"Quşların tələf olmasının təbiətə və insanlara nə kimi ziyanı ola bilər?"* və s. suallarla şagirdlərə müraciət edə bilər. Daha sonra əsər oxunaraq insanların canlıların həyatındakı rolu barədə müzakirə aparmaq olar. Şagirdlərdən "Qırmızı kitab"a düşən quşların adı auksionla soruşulmalıdır. Sonda mətnə uyğun olan tədqiqat sualı çıxarılmalıdır.

**Tədqiqat sualı:** *Canlı təbiətin məhvi nəyə səbəb olar?*

**Tədqiqatın aparılması:** Əvvəlcə mətn oxunur, mətndaxili suallar üzərində iş aparılır. Daha sonra dərsliyin 97-ci səhifəsindəki rəvayət oxunur, hər iki mətnin məzmunu müqayisə edilir. Bu rəvayətin verilməsində məqsəd həm də diqqəti ailədaxili ayrı-seçkiliyə yönəltməkdir. Ailədəki ayrı-seçkilik daha sonra böyüyüb yetişən nəsil vasitəsilə cəmiyyətə də sirayət edə bilər. Müəllim çalışmalıdır ki, bu xüsusiyyətin insanlığa ziyan gətirdiyini şagirdlərə təlqin edə bilsin. Bu rəvayət "Ağ göyərçin" mətnində 96-cı səhifədəki birinci abzasla müqayisə edilə bilər.

Rəvayətdə (səh. 97) nöqtələrin yerinə bu cavab olmalıdır: "Mən qardaşımı seçirəm. Çünki bundan sonra mənə qardaş verə biləcək ananı tapa bilmərəm".

Sonra tədqiqatı davam etdirmək üçün şagirdlər cütlərə bölünürlər. I cütə dərslikdəki 1, 2-ci, II cütə 3, 4-cü, III cütə 5-ci, IV cütə 6, 7-ci, V cütə 8, 9-cu, VI cütə 10-cu, VII cütə 11, 12-ci, VIII cütə 13-cü, IX cütə 14-cü, X cütə 15-ci tapşırıq verilərək birlikdə işləmələri tapşırılır.

12-ci tapşırığın izahı: "iztirablı" və "narahat" sözləri sifət olduğu üçün digər sözlərlə (isimlərlə) sinonimlik yarada bilməz.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün yönəldici əlavə suallardan da istifadə edə bilər. 99-cu səhifədə birinci çərçivədə verilən məsələlər də müzakirə edilməlidir.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətn insanları canlıları qorumağa səsləyir. Bütün varlıqlar dəyərlidir. Bu mərhələdə dərsliyin 96-cı səhifədəki şəkilaltı sual üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə:** 16-cı tapşırıq verilir.

**Ev tapşırığı:** Tədbirlər planı (səh. 99) hazırlamaq tapşırılır.

Şagirdlər aşağı siniflərdən 20 Yanvar faciəsi ilə bağlı məlumatlı olduqlarına görə bu dəfə onlara hazır mətn yox, yaradıcılıq bacarıqlarını formalaşdırmaları və bu faciəni diqqət mərkəzində saxlamaları üçün dərslikdə xüsusi tapşırıq verilmişdir.

**Qiymətləndirmə:** Meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Münasibətbildirmə, uzlaşdırma, təqdimetmə, oxuma bacarıqları əsasdır.

| Cütlər / Meyarlar | I | II | III | IV | V | VI | VII | VIII | IX | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Səslənən fikirlərə münasibət bildirir. | | | | | | | | | | |
| Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır. | | | | | | | | | | |
| Fikirlərini yığcam şəkildə təqdim edir. | | | | | | | | | | |
| Mətni düzgün intonasiya ilə oxuyur. | | | | | | | | | | |
| Cəmi | | | | | | | | | | |

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

**KSQ №2**

## AZƏRBAYCANIN MİLLİ GEYİMLƏRİ

Geyimlər hər bir xalqın tarixi ilə (sıx, kip) bağlıdır. Xalqın maddi mədəniyyətini, özünəxas xüsusiyyətləri əks etdirir geyimlər. Adət-ənənələr, milli təfəkkür, xalq yaradıcılığı geyimlərin müxtəlifliyində, rəngarəngliyində, hətta naxışlarda, ayrı-ayrı detallarda üzə çıxır. Yüzilliklər ərzində formalaşan, milli dəyərlərə söykənərək uzun inkişaf prosesi keçən geyimlərimiz özünəməxsusluğu ilə seçilir. Bugün həmin geyimlər aktuallığını itirsə də, tariximizin, milliliyimizin təcəsümü olan dəyərli xəznə kimi yaşadılır.

Ən qədim insan geyimləri insanların ov zamanı əldə etdikləri heyvan dəriləri idi. İbtidai insanlar ucu sivri daşlarla bu dəriləri üzüb geyim kimi istifadə edirdilər. Bu geyimlərin əyinlərinə ola bilməsi üçün heyvanların sümüklərini nazikləşdirərək dəriyə keçirib sap əvəzi istifadə edirdilər. (Həmçinin, habelə) gil və quş lələkləri də bəşər tarixinin ilkin geyimləridir.

İnsanlar həşəratlardan qorunmaq məqsədilə öz bədənlərini gil və quş lələkləri ilə bəzəyirdilər. Sonradan ibtidai insan otdan parçalar (hörməyə, tikməyə) başlamış, beləliklə də, ilk parçalar meydana gəlmişdir. Sonrakı dövrlərdə Hindistanda istehsal olunmuş ilk kətan parça ilə dəbin tarixində çevriliş oldu.

Qədim Misirdə geyim insanın cəmiyyətdəki mövqeyinin göstəricisi idi. Belə ki Qədim Misirdə qulları bel ətrafında bağlanmış parçadan, kəndliləri sadə, quldarları isə bəzəkli geyimlərindən və qızıl zinət əşyalarından tanımaq olardı.

İlk olaraq ətəklər meydana gəlib. Ətəklərdən həm qadınlar, həm də kişilər istifadə edirdilər. Lakin kişilər, xüsusilə də vavilonlular, assuriyalılar və digər xalqların nümayəndələri əksər vaxtlarını at üzərində, qonşu torpaqları ələ keçirmək uğrunda mübarizədə və daim müharibədə keçirdiklərinə görə ətəklər onlar üçün əlverişli deyildi. Beləliklə də, ilk hərbi geyimlər kimi şalvarlar meydana gəldi. 1

Orta əsrlərin sonrakı dövrlərinin estetik idealı səlibçilər idi. Yenidən ətəklər kişilər arasında populyarlıq qazandı. Elə səlib yürüşlərinin nəticəsində bir çox Şərq geyim üslubları, parçalar və bəzək əşyaları Qərbə yol tapdı.

Azərbaycanda aparılan arxeoloji qazıntılar zamanı tunç dövrünün əvvəlinə aid (eradan əvvəl III minillik) tunçdan hazırranmış iynə və biz tapılmışdır. Bu tapıntılar sübut edir ki, Azərbaycanın qədim sakinləri özlərinə paltar tikməyi bacarırdılar.

Azərbaycanda istehsal olunub geniş işlənən və başqa yerlərə ixrac olunan parçalar sırasında zərbafta, xara, atlas, tafta, qanovuz, məxmər, darayı, mahud, şal, tirmə, mid-

qal, bez və s. göstərmək olar. Bu parçalardan bəziləri xalq arasında "Hacı, mənə bax", "gecə-gündüz", "gendə dur", "alışdım-yandım", "küçə mənə dar gəlir" və s. adlarla məşhur idi. Qadın paltarları əsas etibarilə ipək parça və məxmərdən tikildiyi halda, kişi geyimləri əksər hallarda mahuddan və evdə toxunan şal parçadan hazırlanırdı. 2

XVI–XVII yüzilliklərdə Azərbaycan geyimləri zəngin inkişaf yolu keçmiş, milli geyim məktəbi yaradılmışdır. Geyimlə şəxsin yaşını, peşəsini, hətta hansı təbəqəyə mənsub olmasını bilmək olurdu. Geyimin forması onun sahibinin ailə vəziyyətini də əks etdirirdi. Subay qızların geyimləri evli qadınlardan fərqlənirdi. Cavan qızlar daha parlaq və qəşəng geyinərdilər.

Bu dövrdə Azərbaycanda ənənəvi libas sayılan üst geyimi – əba çox yayılmışdı. Qabaqkı dövr əbalarından fərqli olaraq, bunlar bədəndə kip oturur, qollar nisbətən dar olurdu. 3

Kişilər ayaqları dar, yuxarı getdikcə enlənən şalvar geyinirdilər. Şalvarların rəngi çox vaxt göy və ya tünd-sarı olurdu. Bu dövrdə qadınlar da dabana qədər uzanan şalvarlar geyinirdilər. Kişilərdə olduğu kimi, qadınların da şalvarları ayaq tərəfdən çox dar, yuxarısı enli olurdu.

XVIII əsrdə qadın geyimləri – üst köynəyi, çəpkən, arxalıq, kürdü, küləcə, ləbbadə, eşmək və baharıdan ibarət idi. 4 Qızlar və yaşlı qadınlar bəzək şeylərindən az istifadə edirdilər, (cavan, gənc) gəlinlər isə daha gözəl və zəngin geyinirdilər.

Kişi geyimləri isə köynək, arxalıq, çuxa və şalvardan ibarət olurdu. Qeyd etmək lazımdır ki, xalq geyimlərinin çox geniş yayılmış olan bu dəsti cüzi fərqlər nəzərə alınmazsa, bütün Azərbaycan ərazisi üçün səciyyəvi idi. Bir sözlə, geyimlər onu geyən şəxsin yaşını, ailə və ictimai vəziyyətini də büruzə verirdi.

Qadınların baş geyimləri rənginə, gözəlliyinə və rəngarəngliyinə görə seçilirdi. Bura ipək kəlağayılar, çalmalar, naznazı, təsək, ləçək, örpək, çadra və s. daxil idi. 5

Kişilərin isə əsas baş geyimi qoyun xəzi və ya qaragüldən hazırlanan papaqlar idi. Azərbaycanlılarda papaq cəsarət, ləyaqət və şərəf rəmzi hesab olunurdu. Onu itirmək böyük rüsvayçılıq sayılırdı.

**1. Dəbin tarixindəki çevriliş nəyin icadı ilə bağlı idi?**

A) İlk parçanın
B) İlk xəzin
C) İlk sapın
D) İlk iynənin

**2. Şalvarı ilk vaxtlarda ancaq:**

A) Qadınlar geyinirdi.

B) Kişilər geyinirdi.
C) Hərbçilər geyinirdi.
D) Hökmdarlar geyinirdi.

**3. Milli geyim nümunələri ilə şəxs barədə hansı məlumatı almaq olmazdı?**

A) Yaşını
B) Peşəsini
C) Təbəqəsini
D) Mədəniyyətini

**4. Kişi geyimlərinin hissələrindən biri mətnə aid deyil:**

A) Arxalıq
C) Şalvar
B) Çuxa
D) Ləbbadə

**5. İnsanlar nəyə görə bədənlərini quş lələyi ilə bəzəyirdilər?**

A) Soyuqdan qorunmağa
B) Həşəratların hücumundan qorunmağa
C) Vəhşi heyvanlardan gizlənməyə
D) Gözəllik hesab olunduğuna görə

**6. Subay qız evli qadına nisbətən:**

A) Daha parlaq geyinirdi.
B) Daha uzun geyinirdi.
C) Daha tünd geyinirdi.
D) Daha bəzəksiz geyinirdi.

**7. Şərq geyimləri Qərbə nə zaman ayaq açdı?**

A) Səlib yürüşlərindən sonra
B) İntibah dövrünün sonlarında
C) İslam geniş yayılandan sonra
D) Bizansın süqutu nəticəsində

**8. Bunlardan biri müəllifin oxuculara çatdırmaq istədiyi fikir sayıla bilməz:**

A) Milli geyim nümunələri ilə tanış etmək
B) Dəbin tarixinə səyahətə aparmaq
C) Şərqlilərin daha dəbdəbəli geyinməsini vurğulamaq
D) Adətlərdən xəbərdar etmək

**9. Mətn xarakterinə görə:**

A) Nəqlidir  C) Mühakiməedicidir

B) Təsviridir  D) Tərbiyəedicidir

**10. Mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?**

______________________________________________

______________________________________________

**11.** ***Yaşlarından asılı olaraq qadınların geydikləri köynəklərin rəngi də müxtəlif olurdu, qızlar və gəlinlər sarı, qırmızı, yaşıl, qoca qadınlar isə ağ və ya qara rəngdə köynək geyərdilər*** **cümləsini mətndə hansı rəqəmin yerinə yazsaq, uyğunluq yaranar?**

______________________________________________

______________________________________________

**12. Mətnin tam, bitkin olması üçün daha hansı cümlələrdən istifadə edərdiniz?**

______________________________________________

______________________________________________

______________________________________________

**13. Mətndən aşağıdakı faktları öyrəndim. (4 vacib fakt seçib yazın.)**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**14. Milli geyimlərimizin aktuallığını itirməsinin ən azı 3 səbəbini yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**15. 1-ci abzasın hansı cümləsində söz sırası pozulmuşdur? Həmin cümlənin qrammatik ardıcıllığını bərpa edin.**

______________________________________________

______________________________________________

**16. Altından xətt çəkilmiş cümlələrdə hansı sözlər səhv yazılmışdır? Həmin sözləri seçib düzgün yazın.**

______________________________________________

______________________________________________

**17. Mətndə çərçivəyə alınmış sözü hansı sözlə əvəz etsəniz, məzmun dəyişməz?**

______________________________________________

**18. Sxemi tamamlayın.**

ƏTƏK

| Omonimliyi | Çoxmənalılığı |
| --- | --- |
| 1. ...................... | 1. ...................... |
| 2. ...................... | 2. ...................... |
| 3. ...................... | 3. ...................... |

✓ *Fikrinizi nümunələrlə əsaslandırın.*

______________________________________________

______________________________________________

______________________________________________

**19. Qırmızı rəngdə verilmiş cümlədə *dar* və *enlənən* sözlərinin antonim olub-olmadığını ya təsdiq, ya da inkar edin. Fikrinizi əsaslandırın.**

______________________________________________

______________________________________________

**20. Mətndən tabesiz mürəkkəb cümlələrə aid iki cümlə seçib yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**21. Mətndə tərkibində qarşılaşdırma bağlayıcı olan sadə cümləni müəyyən edin və onu müvafiq cümlə ilə əlaqələndirib tabesiz mürəkkəb cümlə yaradın.**

______________________________________________

______________________________________________

______________________________________________

**22. Mətndə bağlayıcı işlənən, ancaq durğu işarəsi tələb etməyən tabesiz mürəkkəb cümləni müəyyənləşdirin.**

______________________________________________

**23. Mətndə tabesiz mürəkkəb cümlələrin tərəflərini əlaqələndirən bağlayıcıların növünü müəyyən edin.**

______________________________________________

______________________________________________

______________________________________________

**24. Mətndəki sadə cümlələrdən istifadə edərək iki tabesiz mürəkkəb cümlə yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**Müəllimin nəzərinə**

1) *Çəpkən* – qolları açıq, kənarları bəzəkli (baftalı) olan astarlı qadın geyimi
2) *Qanovuz* – al-əlvan olan zərif ipək parça
3) *Küləcə, kürdü* – boynuna, ətəyinə, yaxasına və qol yerlərinin kənarına xəz və s. tikilmiş qolsuz üst geyimi
4) *Darayı* – qırmızı-bənövşəyi rəngli zərif ipək parça
5) *Midqal* – bezə nisbətən cod, lakin xeyli nazik pambıq parça
6) *Təsək* – adətən, gecə başa qoyulan toxunmuş və ya parçadan tikilmiş papaq
7) *Naznazı* – təntənəli günlərdə taxılan baş geyim növü
8) *Baharı* – keçmişdə geyinilən qısaqollu don, arxalıq
9) *Eşmək* – yaxası xəzli, gödəkqollu qadın üst geyimi

## Mövzu 1

## Xoşbəxtliyin 9 yolu

**Məzmun standartları:**

**1.1.2., 1.2.4., 2.2.1., 3.1.1.**

**Məqsəd:**

- Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir.
- Ümumiləşdirdiyi fikirləri yığcam şəkildə təqdim edir.
- Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur.
- Mövzuya uyğun mühakimə xarakterli esse yazır.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir. 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

**İş formaları:**

cütlərlə və fərdi iş

**İş üsulları:**

beyin həmləsi, cəld yazı, tənqidi oxu

**Resurslar:**

Mark Tvenin seçilmiş əsərləri, videolent

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim motivasiya mərhələsində bölmənin əvvəlində verilən epiqraf və suallar ətrafında iş apara bilər.

Müəllim dərsə ingilis siyasətçisi Cefri Fentonun "Səhər oyananda bu günüm dünənimdən yaxşı olacaq deyən adam xoşbəxtdir" kəlamının mənasını soruşmaqla başlaya bilər. Şagirdlərin fikirləri öyrənilir, müzakirə edilir. Sonra Mark Tvenin "Xoşbəxtliyin 9 yolu" mətni şagirdlərə oxudulur və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *İnsan xoşbəxt olmaq üçün nə etməlidir?*

**Tədqiqatın aparılması:** Şagirdlər cütlərə bölünürlər və onlara tədqiqat xarakterli suallar ünvanlanır. Bu suallar müəllim tərəfindən işlənib hazırlanmalıdır. Məsələn, *Daxilən azad olmaq fikrini necə başa düşürsünüz? Məhdudiyyətin insana xeyirli və zərərli cəhətləri ola bilərmi? Əsəbi vəziyyətdən necə çıxış yolu tapmaq olar?* və s. Bütün cütlər nəsihətlər arasındakı oxşar cəhətləri araşdırır.

Müəllim nəsihətlər əsasında tədqiqat xarakterli sualların hazırlanmasını qrup işi kimi də verə bilər. Bu halda dərs planına 1.1.1. (Dinlədiyi mövzuya münasibətini mü-

əyyənləşdirmək üçün tədqiqat xarakterli suallar verir) alt standartını əlavə edə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** Cütlərin təqdimatları dinlənilir. Hansı nəsihəti düzgün hesab etməmələri, hər zaman bu nəsihətlərə riayət etməli olub-olmadıqları barədə müzakirə aparılır.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətndə Mark Tvenin həyat fəlsəfəsi öz əksini tapır. Onun nikbin ruhu hər nəsihətdə özünü qoruyur. Nəsihətlər insanı müsbət fəaliyyətə səsləyir.

**Yaradıcı tətbiqetmə:** "Mənim həyat fəlsəfəm" adlı esse hazırlamaq tapşırılır.

**Ev tapşırığı:** Mark Tvenin "Şahzadə və dilənçi" əsərinin tamaşasına və ya filminə baxmaq, əsərlə yazıçının dərslikdə verilən fikirləri arasındakı əlaqəni müəyyənləşdirmək tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Meyar cədvəlinə əsaslanmaq olar. Münasibətbildirmə, fikri yığcam ifadəetmə, düzgünoxuma və yazma, esseyazma meyarlarına əsaslanmaq olar.

**Qeyd.** III bölmədə Mark Tvenin göstərdiyi yolların hər birini təsdiqləyən mətnlər verilmişdir. Həmin mətnlər tədris olunduqca müəllim mətnlərin ideyasını M.Tvenin aforizmləri ilə əlaqələndirməli, şagirdləri müzakirəyə cəlb etməli, onları nəticə çıxarmağa yönəltməlidir.

| Cütlər / Meyarlar | I | II | III | IV | V | VI | VII | VIII | IX | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Münasibətbildirmə | | | | | | | | | | |
| Yığcam təqdimetmə | | | | | | | | | | |
| İntonasiya ilə oxuma | | | | | | | | | | |
| Esseyazma | | | | | | | | | | |
| Cəmi | | | | | | | | | | |

## Mövzu 2

### “Ətrafsız həyat”

**Məzmun standartları:**

**1.1.2., 2.1.1., 3.1.1., 3.1.2.**

**Məqsəd:**

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Tanış olmayan sözlərin mənasını şərh edir.
- Mövzuya uyğun nəqli hekayə yazır.
- Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İnteqrasiya:**

Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir. 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.
Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur. 1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

**İş formaları:**

kollektiv, cütlərlə və fərdi iş

**İş üsulları:**

beyin həmləsi, müzakirə, fasilələrlə oxu

**Resurslar:**

BMT-nin “Əlillərin hüquqları haqqında” Konvensiyası, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə beyin həmləsi üsulundan istifadə etməklə başlayıb şagirdlərə aşağıdakı suallarla müraciət edə bilər: *“Məhdudiyyətsiz həyat” dedikdə nə başa düşürsünüz, insan azadlığı ancaq mənəvi cəhətdənmi məhdudlaşa bilər?*

Müzakirə fiziki cəhətdən məhdudluğu olan, xüsusi qayğıya ehtiyac duyan insanlara aid edilir. Mətn şagirdlərdən biri tərəfindən oxunur. 1-ci tapşırıq icra edilir. Mətndaxili suallar üzərində iş aparılır. Cütlərlə 7–10-cu tapşırıqlar üzərində iş aparılır. 10-cu tapşırığın cavabı *b* bəndidir. Sonra məzmunun necə qavranılmasını aydınlaşdırmaq üçün tədqiqat sualı lövhədə qeyd olunur.

**Tədqiqat sualı:** *Mətndə nədən bəhs olunur?*

**Tədqiqatın aparılması:** Şagirdlər kollektiv şəkildə 2–5-ci sualları cavablandırırlar. Daha sonra 6-cı tapşırığa əsasən şagirdlərə fərdi qaydada yığcam mətn hazırlamaq tapşırılır.

**Məlumat mübadiləsi və müzakirə:** Müəllimin seçimi əsasında şagirdlərin bəzilərinə yazdıqları mətn oxudulur.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətndə Nikin mübarizliyindən, həyat eşqindən, inamından bəhs olunur. Bu həyat bütün qüsurlu insanlara nümunə ola bilər.

**Yaradıcı tətbiqetmə:** “Xüsusi qayğıya ehtiyacı olan insanların cəmiyyətə adaptasiyası üçün nə etmək lazımdır?” sualı ətrafında aparılır və tövsiyələr hazırlamaq tapşırılır.

**Ev tapşırığı:** Dərslikdəki 18-ci tapşırıq verilə bilər. Məlumatlardan hər hansı birini seçmək şagirdin ixtiyarına buraxılır.

**Qiymətləndirmə:** Özünüqiymətləndirmədən istifadə məqsədəuyğundur. Şagirdlər meyarlar əsasında özlərini qiymətləndirə bilərlər.

***Qeyd.*** 9-cu tapşırığın cavabı:

- Ağıllı adam başqasının **qüsurunu** görərək öz **qüsurunu** düzəldər.

  (*F.Laroşfuko*)
- Düşməndən öyrənər **eybini** insan,
  Çünki dost gözündə görünməz **nöqsan**.
  Xəstəyə qənd vermək xoş deyil, inan,
  Xəstə fayda görər acı dərmandan. (*S.Şirazi*)
- Hər gecə özümlə üzbəüz durub,
  Hesab istəyirəm ötən günümdən.
  Vicdan cavab verir, ədalət sorur:
  Bu gün bir **günaha** batmışammı mən? (*B.Vahabzadə*)
- **Qəbahətim** böyükdür, ay ellər, dünən axşam,
  Büllur kimi bir ürək, bir könül sındırmışam. (*İ.Səfərli*)

| Ballar / Meyarlar | 5 | 4 | 3 | 2 |
|---|---|---|---|---|
| Dinlədiyim fikirlərə şəxsi münasibətimi bildirdim. | | | | |
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını izah etdim. | | | | |
| Mövzuya uyğun nəqli hekayə yazdım. | | | | |
| Fikir və mülahizələrimi həyat hadisələri ilə əlaqələndirərək əsaslandırdım. | | | | |

## Mövzu 3

### "Ətrafsız həyat"

**Məzmun standartları:**

**1.1.2., 2.1.2., 4.1.1.**

**Məqsəd:**

- Dinlədiyi fikirlərə münasibət bildirir.
- Həqiqi və məcazi mənalı sözlərin mənasını dəqiqləşdirir.
- Tabeli mürəkkəb cümlənin tərkib hissələrini fərqləndirir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş formaları:**

kollektiv və qrupla iş

**İş üsulları:**

müzakirə, suallar, klaster

**Resurslar:**

lüğət, iş vərəqləri, sxemlər

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları 18-ci tapşırığı oxuyurlar. Yeni mövzuya keçmək üçün 11-ci tapşırıq üzərində iş aparılır. Mövzu tabeli mürəkkəb cümlələrə yönəldilir və qrammatik qayda izah olunur. Tabeli mürəkkəb cümlələrin özünəməxsus cəhətlərini aydınlaşdırmaq məqsədilə tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Tabeli mürəkkəb cümlələrin hansı xüsusiyyətləri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünüb tədqiqat xarakterli sualları aydınlaşdırırlar. I qrupa 12-ci, II qrupa 13-cü, III qrupa 14-cü, IV qrupa 15-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** Qrupların təqdimatı dinlənilir. Tabeli mürəkkəb cümlələrin xüsusiyyətləri cədvəldə qeyd olunur. Klaster üsulu ilə nəticə çıxarılır.

**Nəticələrin çıxarılması:** Tədqiqat nəticəsində müəyyənləşir ki, tabeli mürəkkəb cümlələrin tərkibindəki sadə cümlələrin biri digərinə tabe olur. Müstəqil cümlə baş, asılı cümlə budaq cümlə olur. 17-ci tapşırıq baca-

rıqların formalaşması məqsədilə yerinə yetirilir.

**Yaradıcı tətbiqetmə:** Müəllim şagirdlərə sadə cümlələr verib onları tabeli mürəkkəb cümlə şəklində yazmağı tapşıra bilər.

**Ev tapşırığı:** Budaq cümlənin baş cümlədən əvvəl işlənməsinə aid 10 cümlə yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Verilmiş meyar cədvəlinə əsaslanaraq şagirdləri simvol və ballarla qiymətləndirmək tövsiyə olunur. Şərhetmə, dəqiqləşdirmə, fərqləndirmə qiymətləndirilən əsas bacarıqlardır.

| I | II | III | IV |
|---|---|---|---|
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Mətndəki fikirlərə, əsasən, münasibət bildirir. | Mətndə səslənən fikirlərə şəxsi münasibətini bildirir. |
| Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirməyi bacarmır. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirməkdə çətinlik çəkir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını müəyyən düzəlişlərlə dəqiqləşdirir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirir. |
| Tabeli mürəkkəb cümlənin tərkib hissələrini fərqləndirə bilmir. | Tabeli mürəkkəb cümlənin tərkib hissələrini fərqləndirməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlənin tərkib hissələrini fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümlənin tərkib hissələrini fərqləndirir. |

# Mövzu 4

## Oğlum Məhəmmədə nəsihət

### Məzmun standartları:

**1.1.1., 1.1.2., 1.2.4., 2.1.1., 2.2.1.**

### Məqsəd:

- Tədqiqat xarakterli suallar verir.
- Səslənən fikirlərə münasibət bildirir.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Tanış olmayan sözlərin mənasını şərh edir.
- Mətni tələb olunan intonasiya ilə oxuyur.

### İnteqrasiya:

Ədəbiyyat – 1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.
2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

### İş formaları:

qrupla və fərdi iş

### İş üsulları:

anlayışın çıxarılması, auksion, diskussiyalı oxu

### Resurslar:

lüğət, iş vərəqləri, N.Gəncəvinin seçilmiş əsərləri, "Leyli və Məcnun" poeması, poemadan miniatürlər

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə N.Gəncəvi haqqında anlayışın çıxarılması üsulu ilə başlamaq olar. Daha sonra əsərlərin adları auksionla soruşula bilər.

"Bu şəxs ilk təhsilini mədrəsədə almış, daha sonra şəxsi mütaliə yolu ilə o dövrün elmlərini mükəmməl öyrənmiş, xüsusən də Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. Ana dilindən başqa ərəb və fars dillərini də mükəmməl bilən şairin yunan dili ilə də tanış olduğu, həmçinin qədim yunan tarixi və fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı mənimsədiyi əsərlərindən aydın görünür. Təqribən 1169–1170-ci illərdə Dərbənd hökmdarı Seyfəddin Müzəffərin kəniz kimi hədiyyə göndərdiyi qıpçaq qızı Afaqla evlənmiş, 1174-cü ildə oğlu Məhəmməd anadan olmuşdur".

Sonuncu cümləyə xüsusi diqqət yönəldilərək mövzuya keçid alınır. Əsər ifadəli oxudulur və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Əsərdə müəllifin çatdırmaq istədiyi əsas fikir nədən ibarətdir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları yerinə yetirirlər. I qrupa dərslikdəki 1, 7-ci, II qrupa 2, 6-cı, III qrupa 3, 4-cü, IV qrupa 5 və 8-ci tapşırıqlar verilə bilər.

***Qeyd.*** 3-cü tapşırıq Venn diaqramı vasitəsilə yerinə yetirilə bilər. 6-cı tapşırığın

cavabı belədir: Sual işarəsinin yerinə *sinonim* sözü yazılmalıdır.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətn müəllifin oğluna nəsihətlərindən ibarətdir. Şair oğlunu kamil, bacarıqlı, fərasətli görmək istəyir. Onun timsalında bütün gənclərə də bu nəsihətləri ünvanlayır.

**Yaradıcı tətbiqetmə:** 9-cu tapşırıq əsasında aparılır. Bu mətnin verilməsində əsas məqsəd müəllimin şagirdin şəxsiyyətinin formalaşdırılmasında əvəzsiz rolunu qabartmaqdır. Müəllim A.Linkolnun oğlunun müəllimi qarşısında qoyduğu tələblərlə, “Ana qucağı” mətnində ananın müəllim haqqındakı sözləri ilə müqayisəsini apara bilər.

**Ev tapşırığı:** 10-cu tapşırıq verilir. Bu tapşırıq keçmiş biliklərin təkrarına xidmət etməklə yanaşı, növbəti dərs üçün (tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən bağlayıcılar) zəmin rolunu oynayır.

**Qiymətləndirmə:** Meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Təqdimetmə, sualvermə, dəyərləndirmə, oxuma bacarıqları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Tədqiqat xarakterli suallar verməyi bacarmır. | Tədqiqat xarakterli suallar verməkdə çətinlik çəkir. | Tədqiqat aparmağa kömək edən suallar verir. | Məzmuna uyğun tədqiqat xarakterli suallar verir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Mətndəki fikirlərə qismən münasibət bildirir. | Mətndə səslənən fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müəllimin köməyi ilə şərh edir. | Tanış olmayan sözlərin mənasını kontekstə uyğun şərh edərkən kiçik səhvlərə yol verir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müstəqil şərh edir. |
| Mətni tələb olunan intonasiya ilə oxumağı bacarmır. | Mətni tələb olunan intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətnin əksər hissələrini intonasiya ilə oxuyur. | Mətni tələb olunan intonasiya ilə oxuyur. |

# Mövzu 5

## Oğlum Məhəmmədə nəsihət

### Məzmun standartları:

**1.2.1., 3.1.3., 4.1.1., 4.1.3.**

### Məqsəd:

- Dil vahidlərindən istifadə edərək mətn qurur.
- Mətnin hissələrini əlaqələndirir.
- Tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələri fərqləndirir.
- Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

### İnteqrasiya:

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.
Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

beyin həmləsi, müzakirə, suallar

### Resurslar:

tabeli mürəkkəb cümləyə aid sxemlər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları 10-cu tapşırığı oxuyur, müzakirə edirlər. Yeni dərsin izahına keçid üçün 11-ci tapşırıq yerinə yetirilir. Dərslikdəki qrammatik qaydalar izah edilir və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Tabeli mürəkkəb cümlələrin hansı bağlanma vasitələri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 12, 13-cü, II qrupa 14-cü, III qrupa 15-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq tapşırıqlara əsasən hazırlanan təqdimatlar dinlənilir. Bağlayıcı vasitələr müzakirə edilir. 16-cı tapşırıq da bu mərhələdə yerinə yetirilir.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, tabeli mürəkkəb cümlələr həm intonasiya, həm də tabelilik bağlayıcıları ilə bağlana bilər.

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki 17-ci tapşırıq üzrə mətnqurma verilə bilər.

Tapşırığın cavabı: 5, 1, 2, 4, 6, 7, 3.

**Ev tapşırığı:** Nizaminin əsərlərindən bağlayıcılar vasitəsilə bağlanan 10 cümlə seçib yazmaq tapşırılır.

***Qeyd.*** Xüsusi istedadı olan şagirdlərə səh. 118-də verilən “Qəzəb hissini boğmaq olarmı?” sualına əsaslandırılmış cavab yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Mətnqurma, fərqləndirmə, istifadəetmə bacarıqları üzrə qiymətləndirmə aparılır.

***Qeyd.*** 13-cü tapşırığın cavabı:

| | |
|---|---|
| Bəzi ideallar o qədər dəyərlidir ki, | ona çata bilməsən, məğlub olarsan. |
| Həyat irəliləyir, | onun qarşısında zəncirlər belə əriyir. |
| Milli müstəqillik elə bir nurdur ki, | o yolda məğlub olmaq belə zəfər sayılır. |

| I | II | III | IV |
|---|---|---|---|
| Dil vahidlərindən istifadə edərək mətn qurmağı bacarmır. | Dil vahidlərindən istifadə edərək mətn qurmaqda çətinlik çəkir. | Dil vahidlərindən istifadə edərək mətnləri qurarkən müəyyən səhvlərə yol verir. | Dil vahidlərindən istifadə edərək mətn qurur. |
| Mətnin hissələrini əlaqələndirərkən çətinlik çəkir. | Mətnin hissələrini əlaqələndirərkən müəllimin köməyindən istifadə edir. | Mətnin hissələrini əlaqələndirərkən müəyyən səhvlərə yol verir. | Mətnin hissələrini əlaqələndirir. |
| Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirməyi bacarmır. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirir. |
| Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməyi bacarmır. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir. |

# Mövzu 6

## Bir şahidin beş şahidi

**Məzmun standartları:**

**1.1.2., 1.2.3., 2.2.2., 3.1.3.**

**Məqsəd:**

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Nitq prosesində səs tonu ilə jest və mimikasını uzlaşdırır.
- Əlaqəni gözləməklə mətni genişləndirir.
- Əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.

**İnteqrasiya:**

Ədəbiyyat – 1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.
Azərbaycan tarixi – 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

**İş formaları:**

qruplarla və fərdi iş

**İş üsulları:**

BİBÖ, tənqidi oxu

**Resurslar:**

sxem, Qarabağ müharibəsinə aid şəkillər, faktlar, tarixi şəkillər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə 1-ci tapşırığa əsasən başlamaq olar. Təqdim olunan fikirlər şərh edilir. “Mətnin adına münasibət bildirin” tapşırığı üzərində iş aparılır. Müəllim yönəldici suallardan (“Şəhid kimə deyilir?”, “Şəhidliyə necə şahid olmaq olar?”, “Bir şahidin beş şəhidi dedikdə nə nəzərdə tutulur?” və s.) istifadə edə bilər. Sonra mətn oxunur.

Oxu zamanı səh. 120-dəki mətndaxili sualın cavabı belədir: *“Nöqtələrin yerinə “Xocalı” sözü yazılmalıdır.*

*Mətndəki hansı cümlə fikirlərinizi təsdiq edə bilər?”* sualının cavabı səh. 121-də ikinci abzasın birinci cümləsidir. Oxu zamanı səh. 120-dəki şəklə də münasibət bildirilir. Diqqət 120-ci səhifədəki “Bu necə müharibədir? Axı müharibənin də, düşmənçiliyin də bir qaydası var...” cümləsinə yönəldilir. Şagirdlərə “Sizcə, müharibəni aparmağın qaydası varmı?” sualı ilə müraciət olunur. “Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin əsas prinsipləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı” barədə məlumat verilə bilər. Yaxud sənəd şagirdlərə təqdim olunmaqla ətrafında müzakirə təşkil edilə bilər.

BİBÖ cədvəlinin ilk xanası doldurulur. “İstəyirəm bilim” xanasına uyğun olaraq tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Qəzəb hissi insanı nəyə sövq edir?*

**Tədqiqatın aparılması:** Tədqiqat 2-ci tapşırıq üzərində aparılır. 4–8-ci tapşırıqlar icra olunur.

**Məlumat mübadiləsi və müzakirə:** Müəllim yönəldici suallardan ("Qəzəb hissi nə zaman yanlış ola bilər?", "Qəzəbi necə cilovlamaq olar?", "Qəzəb hissini idarə etmək olarmı?" və s.) istifadə edə bilər. Müəllim çalışmalıdır ki, düşmənə olan qəzəb hissi ilə şəraitə uyğun olaraq yaranan qəzəb hissini fərqləndirə bilsin. Müzakirədən sonra yekun nəticəyə gəlinir.

**Nəticələrin çıxarılması:** Şagirdlər belə qənaətə gəlirlər ki, qəzəb hissi insanlara düzgün qərar verməyə mane olur, ağlı başdan çıxarır, insanı səhv yola istiqamətləndirir. Lakin Vətən torpaqları istila və talan ediləndə, günahsız insanlar düşmən gülləsinə tuş gələndə istər-istəməz düşmənə qəzəb hissi yaranır. Ancaq bu zaman insan yenə sayıqlığını əldən verməməli, ağılla hərəkət etməli, yanlışlığa yuvarlanmamaq və hər hansı faciəyə, uğursuzluğa səbəb olacaq addım atmamaq üçün qəzəb hissini boğub düzgün qərar verməlidir. Sülh naminə çalışmaq daha faydalıdır. Nəticədə, BİBÖ-nün sonuncu xanası doldurulur. 122-ci səhifədəki 9-cu tapşırıqdakı şəkil üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki 22-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı:** 20-ci tapşırıq yerinə yetirilir. Bu tapşırıq cütlər və ya qruplar şəklində də verilə bilər.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, uzlaşdırma, genişləndirmə, təkmilləşdirmə bacarıqları özünüqiymətləndirmə əsasında simvollarla qiymətləndirilə bilər.

| ⬆ | ⟷ | ⬇ | **Meyarlar** |
|---|---|---|---|
| ✶ | | | Dinlədiyim fikirlərə şəxsi münasibətimi bildirdim. |
| | | ✶ | Nitq prosesində səs tonumla jest və mimikamı uzlaşdırdım. |
| | ✶ | | Əlaqəni gözləməklə mətni genişləndirdim. |
| | ✶ | | Əlaqəni gözləməklə başqasının yazısını təkmilləşdirdim. |
| Şagirdin adı, soyadı | Lətifə Şahbazlı | | |

# Mövzu 7

## Bir şahidin beş şahidi

### Məzmun standartları:

**1.2.2., 1.2.4., 2.1.1., 2.2.3.**

### Məqsəd:

- Şəkil üzrə rabitəli nitq nümunələri qurur.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh edir.
- Mətndəki fikirləri dəyərləndirir.

### İnteqrasiya:

Azərbaycan tarixi – 3.1.1. Müstəmləkə rejimi və müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir. 3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir. Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

beyin həmləsi, müzakirə

### Resurslar:

iş vərəqləri, "Fəryad" və ya "Xoca" filmindən fraqment

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Ötən dərsə əsasən şagirdlərin hazırladıqları mətn dinlənilir, "Fəryad" və ya "Xoca" filmindən müvafiq fraqmentə baxılır.

**Tədqiqat sualı:** *Müharibələr nə məqsədlə törədilir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 2 qrupa bölünür. Mətnin məzmunu (şagidlərin hazırladıqları mətn də buraya daxildir) ilə filmin məzmunu arasında uyğun məqamlar müqayisə edilir, şagirdlərin fikirləri dinlənilir. Mətnin lüğət tərkibi üzərində iş aparılır, 10–14-cü tapşırıqlar üzərində işlənilir.

I qrupa 19-cu, II qrupa 21-ci tapşırığı icra etmək tapşırılır. Bu tapşırıqları icra etmək üçün müəllim özü də dərsə əlavə resurslar gətirə, texniki imkanlar varsa, internetdən lazımi materiallar əldə etməklə şagirdləri həmin mətnlərin hazırlanmasına sövq edə bilər. Mətnlərin genişhəcmli yazılması vacib deyil. Əsas məqsəd şagirdlərin baş vermiş faciə ilə bağlı fikirlərini aydın və yığcam, dolğun ifadə etmələri, həmin məsələyə münasibət bildirmələri və tədqiqat sualına cavab axtarmalarıdır.

**Məlumat mübadiləsi və müzakirə:** Təqdimatlar dinlənilir və yönəldici suallar əsasında müzakirə aparılır. 23-cü tapşırıq icra edilir, mətndən sonra verilmiş 1 və 2-ci tapşırıqlar istisna olmaqla (tabeli mürəkkəb

cümlələrin müəyyənləşdirilməsinin növbəti dərsdə icrası məqsədəmüvafiqdir) digər tapşırıqlar yerinə yetirilir.

**Nəticələrin çıxarılması:** Şagirdlər belə nəticəyə gəlirlər ki, müharibələr müxtəlif məqsədlərlə: ərazi işğal etmək, varlanmaq, torpaqlarını genişləndirmək, dünyaya ağalıq etmək və s. məqsədlərlə törədilir.

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki 2-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı:** 3 may 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının Qanununun müddəaları ilə tanış olmaq tapşırılır.

"Şəfqət insanlığın məhək daşıdır" devizli aksiyanı hazırlamaq və həyata keçirmək üçün işçi qrup yaradılır, qrup üzvləri arasında vəzifə bölgüsü aparılır, konkret tapşırıqlar verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Mətnqurma, təqdimetmə, uzlaşdırma, dəyərləndirmə bacarıqları üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Şəkil üzrə rabitəli nitq nümunələri qurmağı bacarmır. | Şəkil üzrə nitq nümunələri qurmaqda çətinlik çəkir. | Şəkil üzrə nitq nümunələri qurur. | Şəkil üzrə rabitəli nitq nümunələri qurur. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müəllimin köməyi ilə şərh edir. | Tanış olmayan sözlərin mənasını kontekstə uyğun şərh edərkən kiçik səhvlərə yol verir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müstəqil şərh edir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki fikirləri dəyərləndirir. | Mətndə səslənən fikirləri asanlıqla dəyərləndirir. |

## Mövzu 8

# Bir şahidin beş şəhidi

**Məzmun standartları:**

**4.1.1., 4.1.2.**

**Məqsəd:**

- Fikirlərini ümumiləşdirərək həyat hadisələri ilə əlaqələndirir.
- Tabeli mürəkkəb cümləni bağlayan vasitələri fərqləndirir.
- Sözləri və söz birləşmələrini cümlədə müxtəlif sintaktik vəzifələrdə işlədir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş formaları:**

kollektiv və fərdi iş

**İş üsulları:**

beyin həmləsi, müzakirə

**Resurslar:**

iş vərəqləri, cədvəl və sxemlər

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** 15-ci tapşırıq kollektiv, daha sonra 20-ci tapşırıq şifahi şəkildə icra edilir. Diqqət tabeli mürəkkəb cümlənin tərkib hissələri arasındakı əlaqəyə yönəldilir və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Tabeli mürəkkəb cümlənin tərkib hissələri arasında daha hansı əlaqələndirici vasitələr var?*

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərə mətndən daha bir neçə tabeli mürəkkəb cümlənin seçilməsini tapşırır və diqqəti cümlələrin tərkib hissələrini bağlayan vasitələrə yönəldir. Daha sonra səhifə 132–133-də verilən qayda izah olunur. 16-cı, 17-ci tapşırıq fərdi qaydada, 18-ci tapşırıq kollektiv şəkildə icra olunur.

**Məlumat mübadiləsi və müzakirə:** Tapşırıqlar oxunur. Müəllim lövhəyə tabesiz və tabeli mürəkkəb cümlələr yazmaqla diqqəti hər iki cümləni bağlayan vasitələrə yönəldə bilər. Bu kimi tapşırıqların verilməsində əsas məqsəd şagirdin diqqətini daha çox qaydanın mahiyyətinə yönəltmək, mürəkkəb cümlənin nitqdə praktik əhəmiyyətini dərk etdirməkdir.

**Nəticələrin çıxarılması:** Şagirdlər qeyd edirlər ki, tabeli mürəkkəb cümlənin tərkib hissələri şərt şəkilçisi (-sa$^2$), şərt şəkilçisi və ədat (-sa$^2$ da$^2$), -mı$^4$ sual ədatı vasitəsilə bağlanır.

**Yaradıcı tətbiqetmə:** Müəllim şagirdlərə (Bu forma fərdi, cütlər və qruplara təqdim edilməklə həyta keçirilə bilər. Formanın müəyyənləşdirilməsi müəllimin qurduğu dərsə əsasən müəyyənləşdirilir.) istənilən mövzuda (Məsələn: "Yağış", "Dostluq necə yaranır?", "Qalaktika" və s.) şərt budaq cümlələrinin iştirak etdiyi yığcam mətn yazmağı tapşıra bilər. Bu tapşırıq üçün 10 dəq. ayırmaq kifayətdir.

**Ev tapşırığı:** Hər hansı bir bədii və ya elmi ədəbiyyatdan şərt budaq cümlələrini (10 cümlə) seçib yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Mətnqurma, şərhetmə, təkmilləşdirmə, cümlədə işlətmək bacarıqları üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Fikirlərini ümumiləşdirsə də, həyat hadisələri ilə əlaqələndirə bilmir. | Fikirlərini ümumiləşdirərkən müəllimin köməyindən istifadə edir. | Fikirlərini ümumiləşdirib həyat hadisələri ilə əlaqələndirərkən müəyyən səhvlərə yol verir. | Fikirlərini ümumiləşdirərək həyat hadisələri ilə əlaqələndirir. |
| Tabeli mürəkkəb cümləni bağlayan vasitələri çətinliklə fərqləndirir. | Tabeli mürəkkəb cümləni bağlayan vasitələri fərqləndirərkən müəllimin köməyindən istifadə edir. | Tabeli mürəkkəb cümləni bağlayan vasitələri fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümləni bağlayan vasitələri fərqləndirir. |
| Söz və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədə bilmir. | Söz və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlətməkdə çətinlik çəkir. | Sözləri müxtəlif sintaktik vəzifələrdə işlədir. | Söz və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir. |

## Mövzu 9

## Səyahət mənə yaşamaq stimulu verir

### Məzmun standartları:

**1.1.2., 1.2.3., 1.2.4., 2.1.1., 2.2.1.**

### Məqsəd:

- Səslənən fikirlərə münasibət bildirir.
- Danışığını ifadə tərzi ilə uzlaşdırır.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Tanış olmayan sözlərin mənasını şərh edir.
- Mətni düzgün intonasiya ilə oxuyur.

### İnteqrasiya:

Biologiya – 2.1.2. Maddələr mübadiləsinin pozulma səbəblərini faktlarla izah edir və təqdimatlar hazırlayır.
3.1.1. İnsanın formalaşmasında sosial amillərin rolu və əhəmiyyətinə dair təqdimatlar hazırlayır.
Coğrafiya – 3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.
3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

anlayışın çıxarılması, auksion, səsli oxu

### Resursları:

lüğət, iş vərəqləri, xəritə, səyyahların şəkilləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlayır. Aşağıdakı sxem nümayiş olunur:




*Səyyahlar* sözü alındıqdan sonra şagirdlərdən auksion üsulu ilə tanıdıqları digər səyyah adları soruşulur. Adları soruşmaqla idrak fəallığı oyatmaq mümkündür. Daha sonra hansı vasitələrlə səyahət etməyin mümkünlüyü araşdırılır. Velosipedlə səyahət anlayışı üzərində dayanaraq diqqət mətnə yönəldilir. Mətn səsli oxu üsulu ilə oxunduqdan sonra velosiped sürməyin ekoloji təmizliyə, bioloji sağlamlığa təsiri müzakirə olunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətn insanları nəyə səsləyir?*

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünürlər. I qrupa dərslikdəki 2, 12, 16-cı, II qrupa 4, 13-cü, III qrupa 6 və 18-ci, IV qrupa 8, 15, 17-ci tapşırıqlar verilə bilər. 19-cu tapşırıq hər qrupdan bir şagirdə təqdim olunmaqla fərdi qaydada həyata keçirilə bilər. 12-ci tapşırığa əlavə: *prospekt* sözünün ikinci mənası

*gələcək elmi əsərin, dərsliyin, məcmuənin və s. müfəssəl planı deməkdir.*

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. 1, 3, 5, 7-ci tapşırıqlar icra olunur. 10-cu tapşırıq üzərində kollektiv şəkildə iş aparılır.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətndə müəllif insanları səyahət etməyə, məqsədinə doğru addımlamağa səsləyir. Səyahətin insanlara xeyri böyükdür. Bu həm fiziki, həm də mənəvi inkişafa zəmin yaradır. İnsan dünyanı görməklə dərk edir.

**Yaradıcı tətbiqetmə:** 9-cu tapşırıq üzrə işləmək tapşırıla bilər.

**Ev tapşırığı:** 20-ci tapşırıq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, uzlaşdırma, təqdimetmə, oxuma bacarıqları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Səslənən fikirlərə münasibət bildirməyi bacarmır. | Səslənən fikirlərə çətinliklə münasibət bildirir. | Səslənən fikirlərə münasibət bildirərkən müəyyən səhvlərə yol verir. | Səslənən fikirlərə sərbəst münasibət bildirir. |
| Danışığı ilə ifadə tərzini uzlaşdırmağı bacarmır. | Danışığı ilə ifadə tərzini çətinliklə uzlaşdırır. | Danışığı (səs seçimi, səsin ucalığı) ilə ifadə tərzini (jest, mimika) uzlaşdırır. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müəllimin köməyi ilə şərh edir. | Tanış olmayan sözlərin mənasını kontekstə uyğun şərh edərkən kiçik səhvlərə yol verir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müstəqil şərh edir. |
| Mətni düzgün intonasiya ilə oxumağı bacarmır. | Mətni düzgün intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni düzgün intonasiya ilə oxuyarkən müəyyən səhvlərə yol verir. | Mətni tələb olunan düzgün intonasiya ilə oxuyur. |

# Mövzu 10

## Səyahət mənə yaşamaq stimulu verir

### Məzmun standartları:

**1.2.2., 3.1.1., 4.1.1., 4.1.3., 4.1.4.**

### Məqsəd:

- Rabitəli nitq nümunələri qurur.
- Təsviri xarakterli esse yazır.
- Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirir.
- Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.
- Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir.

### İnteqrasiya:

Ədəbiyyat – 3.1.3. 2,5-3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.
Xarici dil – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.

### İş formaları:

cütlərlə, qrupla və fərdi iş

### İş üsulları:

müzakirə, Venn diaqramı

### Resurslar:

dialoq nümunələri, qarşılıq-güzəşt və səbəb bağlayıcıları ilə bağlı sxemlər, qrammatik qaydanın izahına dair plakat, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Ev tapşırığı yoxlanılır. Müəllim həmin tapşırıqda verilən bir neçə sözü şagirdlərə təqdim edərək onların iştirakı ilə tabeli mürəkkəb cümlə qurmağı təklif edir.

Mətndən sonrakı 1-ci tapşırıq yerinə yetirilir.

Mətndən sonrakı 3 tapşırıq fərdi və ya cütlər şəklində icra edilir. Diqqət dialoqların cümlə quruluşuna yönəldilir. Şagirdlərə qarşılıq-güzəşt və səbəb bağlayıcıları ilə bağlı dərslikdə verilmiş qayda izah olunduqdan sonra mətnin dil quruluşu ilə bağlı sual formalaşdırılır.

**Tədqiqat sualı:** *Mətnin xarakterik cəhətləri hansılardır?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünürlər. I qrupa 21-ci, II qrupa 24-cü, III qrupa 22, 23 və 25-ci, IV qrupa 26-cı tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** Qrupların təqdimatları dinlənilir və əlavə müzakirə sualları verilir. Bu sualları müəllim özü  tərtib edə bilər. 27-ci tapşırıq yerinə yetirilir.

**Nəticələrin çıxarılması:** Tədqiqat nəticəsində müəyyənləşir ki, mətn dil baxımından rəngarəngdir. Qarşılıq-güzəşt və səbəb bağlayıcılarının öyrənilməsi üçün yararlıdır. Çox sayda yeni söz və ifadələrlə zəngindir.

**Yaradıcı tətbiqetmə:** Mətndən sonrakı 3 tapşırıq fərdi və ya cütlər şəklində icra edilir.

**Ev tapşırığı:** 28-ci tapşırığa uyğun olaraq esse yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Rabitəli nitqqurma, fərqləndirmə, istifadəetmə, əməletmə bacarıqlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Rabitəli nitq nümunələri qurmağı bacarmır. | Rabitəli nitq nümunələri qurmaqda çətinlik çəkir. | Sadə rabitəli nitq nümunələri qurur. | Müxtəlif formalı rabitəli nitq nümunələri qurur. |
| Mövzuya uyğun təsviri xarakterli esse yazmaqda çətinlik çəkir. | Mövzuya uyğun təsviri xarakterli esse yazarkən müəllimin köməyindən istifadə edir. | Mövzuya uyğun təsviri xarakterli esse yazarkən müəyyən səhvlərə yol verir. | Mövzuya uyğun təsviri xarakterli esse yazır. |
| Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirməyi bacarmır. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirir. |
| Mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməyi bacarmır. | Mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Mürəkkəb cümlədə durğu işarələrindən qismən istifadə edir. | Mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir. |
| Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etməyi bacarmır. | Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etməkdə çətinlik çəkir. | Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarında müəyyən səhvlərə yol verir. | Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir. |

# Mövzu 11

## Mətn (dərslik səh. 135)

### Məzmun standartları:

**1.1.2., 1.2.4., 2.1.1., 2.2.3.**

### Məqsəd:

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh edir.
- Mətndəki fikirləri dəyərləndirir.

### İnteqrasiya:

Azərbaycan tarixi – 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.
Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

### İş formaları:

kollektiv, qrupla və fərdi iş

### İş üsulları:

söz assosiasiyası, müzakirə, tənqidi oxu

### Resurslar:

"Rəvayətli ifadələr" kitabı, Şah Abbas haqqında məlumat və faktlar, şəkillər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə aşağıda sadalanan fikirləri oxumaqla başlayır (müəllim bu fikirləri flipçarta yaza və ya elektron formada nümayiş etdirə bilər).

"Özünüzə tənqidi yanaşırsınız.
Ətrafınızda olub-bitənlərdən xəbərdarsınız.
Başqalarının xətalarını təkrarlamırsınız.
Səhv anlaşıldığınız zamanlar çoxdur.
Uzaqgörən dostlarınız var.
Edə biləcəkləriniz haqqında yüksək fikirdəsiniz, çünki bacarığınız və biliyinizə arxayınsınız.
Bir nəticəyə çatmaq üçün tələsmirsiniz.
Bildiklərinizin həqiqət olduğunu düşünmürsünüz.
Zəka oyunları oynamağı sevirsiniz.
Ağlınızın hər şeyə çatmayacağını qəbul edirsiniz.
İnsanları dəyişdirməyə çalışmırsınız.
Gördükləriniz sizə kifayət etmir.
Deyəcəyiniz sözləri diqqətlə seçirsiniz.
Problemlə üzləşəndə diqqətinizi cəmləyirsiniz.
Zamanın qiymətini bilirsiniz".

Əgər bütün bunlar insanda varsa, deməli, həmin şəxs necə adamdır? *Ağıllı* sözü alındıqdan sonra mətnin oxusu təşkil edilir. Oxu zamanı 1-ci tapşırıq icra edilir. *B* düzgün cavabdır. Mətn oxunur, mətndaxili suallar üzə-

rində iş aparılır. 135-ci səhifədə verilən şəkillər müzakirə edilir, əsaslandırılır. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Mətnin əsas ideyası nədir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 5 qrupa bölünürlər. I qrupa 3, 5-ci, II qrupa 4, 6-cı, III qrupa 8, 10-cu, IV qrupa 9, 14-cü, V qrupa 11, 15-ci tapşırıqları yerinə yetirmək tapşırılır.

**Məlumat mübadiləsi və müzakirə:** Şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə olaraq özünün hazırladığı suallardan istifadə edə bilər. 2-ci tapşırıq bu mərhələdə yerinə yetirilir. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır.

**Nəticələrin çıxarılması:** Nəticədə müəyyən olunur ki, mətndə ağıllı bir çəkməçinin dəyişkən həyat şəraitinə çevik uyğunlaşmasından bəhs olunur. 7-ci tapşırıq yerinə yetirilir.

**Yaradıcı tətbiqetmə:** 12-ci tapşırıq yerinə yetirilir.

**Ev tapşırığı:** Şagirdlərə 13-cü tapşırığı hazırlamaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, təqdimetmə, dəyərləndirmə bacarıqları nəzərdən qaçmamalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirə bilmir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini çətinliklə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini ətrafın köməkliyi ilə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müəllimin köməyi ilə şərh edir. | Tanış olmayan sözlərin mənasını kontekstə uyğun şərh edərkən kiçik səhvlərə yol verir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müstəqil şərh edir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndəki fikirləri dəyərləndirərkən cüzi səhvlərə yol verir. | Mətndə səslənən fikirləri dəyərləndirir. |

# Mövzu 12

## Mətn (dərslik səh. 135)

### Məzmun standartları:

**4.1.1., 4.1.3.**

### Məqsəd:

- Tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən vasitələri fərqləndirir.
- Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

### İnteqrasiya:

Xarici dil – 2.1.3. Fikirlərini müqayisələr aparmaqla izah edir.
3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

müzakirə, klaster, təqdimat

### Resurslar:

lüğət, iş vərəqləri, tabeli mürəkkəb cümləyə aid sxemlər və nümunələr

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları 13-cü tapşırığı təqdim etdikdən sonra yeni dərsin izahına keçid üçün 16-cı tapşırıq üzərində iş aparılır, müvafiq suallar cavablandırılır. Müəllim verilmiş qaydanı oxuyur və izah edir. Daha sonra tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətndə tabeli mürəkkəb cümlənin tərkib hissələri, əsasən, hansı vasitələrlə bağlanmışdır?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa 17, 18-ci, II qrupa 19, 20-ci, III qrupa 21, 22-ci, IV qrupa 23 və 24-cü tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Nəticəni asan əldə etmək üçün klasterdən istifadə məqsədəuyğundur.

**Nəticələrin çıxarılması:** Mətndə tabeli mürəkkəb cümlənin tərkib hissələri, əsasən,

şərt, qarşılıq-güzəşt və səbəb bağlayıcıları vasitəsilə bağlanmışdır. Bu mərhələdə 25-ci tapşırıq yerinə yetirilir.

**Yaradıcı tətbiqetmə:** 26-cı tapşırıq əsasında aparılır.

**Ev tapşırığı:** 27-ci tapşırıq və bədii ədəbiyyatdan 10 cümlə seçib yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Şərhetmə, fərqləndirmə, istifadəetmə bacarıqları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən vasitələri fərqləndirməyi bacarmır. | Tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən vasitələri fərqləndirməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən vasitələri fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən vasitələri fərqləndirir. |
| Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməyi bacarmır. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir. |

# Mövzu 13

## Yaradıcılığı gülüş və musiqi ilə yoğrulmuş xanım

**Məzmun standartları:**

**2.1.1., 2.2.1., 2.2.2., 2.2.3., 3.1.3.**

**Məqsəd:**

- Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh edir.
- Mətni düzgün intonasiya ilə oxuyur.
- Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
- Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
- Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazısını təkmilləşdirir.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.
Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.
Həyat bilgisi – 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

**İş formaları:**

fərdi və qrupla iş

**İş üsulları:**

beyin həmləsi, auksion, debat

**Resurslar:**

N.Zeynalovaya aid şəkillər, tamaşalarından şəkil və videolentlər, "Qayınana" filmindən fraqment, afişalar, lüğət, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə "Qayınana" filmindən fraqmentin nümayişi ilə başlaya bilər. Daha sonra auksionla aktrisanın oynadığı rolların və ya tamaşaların adı, müxtəlif ölkələrdə teatrın yaranma tarixi soruşula bilər. Sonra mətnin əvvəlində verilmiş (səh. 142) N.Zeynalovaya məxsus fikir müzakirə edilir. Mətn oxudulur, mətndaxili suallar cavablandırılır. 144-cü səhifədəki "Aktrisa ... qazanmışdır" cümləsi 143-cü səhifədəki 3-cü rəqəmin yerinə olmalıdır. Sonra tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Nəsibə xanımın sənətkarlığı özünü nədə büruzə verirdi?*

**Tədqiqatın aparılması:** Şagirdlər əvvəlcə 2-ci tapşırıq (səh. 145) üzrə müzakirə aparırlar. Daha sonra qruplara bölünürlər və onlara iş vərəqləri paylanır: I qrupa 1, 3 və 11-ci, II qrupa 4, 5 və 10-cu, III qrupa 6, 7 və 12-ci, IV qrupa 8, 13 və 14-cü tapşırıqlar verilir.

2-ci tapşırıq yerinə yetirilərkən müəllim şagirdlərə izah etməlidir ki, tamaşalarda cəmiyyətdə rast gəlinən mənfi halları aradan qaldırmaq üçün tənqiddən istifadə olunur.

12-ci tapşırığın cavabı:

"Həqiqilik" sözü isim olduğu üçün sifət nitq hissəsi olan digər sözlərlə sinonimlik

təşkil edə bilmir, çünki sinonimlər eyni nitq hissəsinə aid olur.

14-cü tapşırığın cavabı: *ampula* sözü 1-ci cümlədə, *amplua* sözü 2-ci cümlədə olmalıdır.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır.

**Nəticələrin çıxarılması:** Təqdimatlardan sonra məlum olur ki, Nəsibə xanım düşündürən, mənalı gülüşün təmsilçisi, fədakar, təəssübkeş aktrisa olub. Onun tamaşaları aktuallığını bu gün də qorumaqdadır.

**Ev tapşırığı:** Dərslikdəki 9-cu tapşırıq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Oxuma, mətni genişləndirmə, dəyərləndirmə, təkmilləşdirmə bacarıqları əsas götürülür.

| I | II | III | IV |
|---|---|---|---|
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müəllimin köməyi ilə şərh edir. | Tanış olmayan sözlərin mənasını kontekstə uyğun şərh edərkən kiçik səhvlərə yol verir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müstəqil şərh edir. |
| Mətni düzgün intonasiya ilə oxumağı bacarmır. | Mətni düzgün intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni düzgün intonasiya ilə oxuyarkən səhvlərə yol verir. | Mətni tələb olunan düzgün intonasiya ilə oxuyur. |
| Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirməyi bacarmır. | Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirmədə çətinlik çəkir. | Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir. | Tərkib hissələri və cümlələr arasında əlaqəni gözləməklə mətni genişləndirir. |
| Mətndə irəli sürülmüş fikirləri dəyərləndirməyi bacarmır. | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirməkdə çətinlik çəkir. | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. | Mətndə irəli sürülmüş fikirləri öz mövqeyindən çıxış edərək dəyərləndirir. |
| Mətnin hissələri, abzasları və cümlələri arasında əlaqə tapmağı bacarmır. | Mətnin cümlələri arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir. | Mətnin hissələri, abzasları arasındakı əlaqəni gözləməklə yazını təkmilləşdirir. | Mətnin hissələri, abzasları və cümlələri arasında əlaqəni gözləməklə yazını təkmilləşdirir. |

# Mövzu 14

## Yaradıcılığı gülüş və musiqi ilə yoğrulmuş xanım

### Məzmun standartları:

**3.1.1., 4.1.1., 4.1.3.**

### Məqsəd:

- Verilmiş mövzuya uyğun təsviri tipli hekayə yazır.
- Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirir.
- Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

### İnteqrasiya:

Təsviri incəsənət – 1.3.1. Azərbaycanın görkəmli təsviri incəsənət nümayəndələri və onların əsərləri haqqında təqdimatlar edir.
İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.
Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

### İş forması:

qrupla iş

### İş üsulları:

təqdimat, müzakirə

### Resurslar:

lüğət, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Evdə hazırlanmış təqdimatlar müzakirə oluna bilər. 19-cu tapşırıq yeni qaydanın öyrədilməsi üçün motivasiya xarakterlidir. Araşdırma aparmaq məqsədilə tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Bağlayıcı söz nədir? Bağlayıcı və bağlayıcı sözün fərqi nədir?*

**Tədqiqatın aparılması:** İş qruplarda davam etdirilir. Sinif 3 qrupa bölünür. I qrupa 15, 16-cı, II qrupa 17-ci, III qrupa 18-ci tapşırıq verilir. Daha sonra dərslikdəki qrammatik qayda izah olunur.

**Məlumat mübadiləsi və müzakirə:** Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. 20-ci tapşırıq bu mərhələdə yerinə yetirilir.

**Nəticələrin çıxarılması:** Mətn şagirdlərin söz ehtiyatının artırılması baxımından əlverişlidir. Kifayət qədər sinonim, antonim, frazeoloji birləşmələrin, müxtəlif cümlə növlərinin işlənməsi mətni daha da zənginləşdirir.

**Yaradıcı tətbiqetmə:** 21 və 22-ci tapşırıqlar əsasında aparılır. Kriptoqramın cavabı: *"Kim insanlara təbəssüm bəxş etsə, həmin təbəssüm ona bir savab olar"*.

**Ev tapşırığı:** 23-cü tapşırıq əsasında aparılır.

**Müəllimin nəzərinə:** N.Zeynalovanın ilk nəvəsi aktrisanın adını və soyadını daşıyır. Nənə nəvəni qanuni şəkildə qızlığa götürmüşdür. İkinci nəvəsi Nəzrin hazırda Moskvada yaşayır. Aktrisanın oğlu Cahangir Zeynalov Türkiyədə yaşayır və aktyorluq sənətindən dərs deyir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Şərhetmə, fərqləndirmə, istifadəetmə bacarıqları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Verilmiş mövzuya uyğun hekayə yazmağı bacarmır. | Verilmiş mövzuya uyğun hekayə yazmaqda çətinlik çəkir. | Verilmiş mövzuya uyğun hekayə yazır. | Verilmiş mövzuya uyğun təsviri tipli hekayə yazır. |
| Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirməyi bacarmır. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini qismən fərqləndirir. | Tabeli mürəkkəb cümlənin bağlanma vasitələrini fərqləndirir. |
| Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməyi bacarmır. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edərkən müəyyən səhvlərə yol verir. | Tabeli mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir. |

# Mövzu 15

## Dərman

### Məzmun standartları:

**1.1.1., 1.1.2., 1.2.4., 2.1.1., 2.2.1.**

### Məqsəd:

- Tədqiqat xarakterli suallar verir.
- Səslənən fikirlərə münasibət bildirir.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh edir.
- Mətni tələb olunan intonasiya ilə oxuyur.

### İnteqrasiya:

Azərbaycan tarixi – 3.1.1. Müstəmləkə rejimi və müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.
Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

### İş formaları:

qrupla və fərdi iş

### İş üsulları:

müzakirə, auksion, səsli oxu

### Resurslar:

lüğət, iş vərəqləri, M.Ə.Sabirin seçilmiş əsərləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə "Dəli Kür" filmindən mollaxanada təhsil (tədris prosesi və cəza üsulları) fraqmentini əks etdirən parçanın nümayişi ilə başlaya, istiqamətləndirici suallardan ("Bu hissədə nədən danışılır?", "Bu səhnə sizə necə təsir bağışladı?", "Bu şiddət hesab edilirmi?", "Sizcə, belə döyülməyin nəsə öyrənməyə bir köməyi ola bilərmi?" və s.) istifadə edə bilər. Texniki imkanlar yoxdursa, müəllim M.Ə.Sabirin elm və təhsillə bağlı hər hansı bir əsərini ("Oxutmuram, əl çəkin", "Təhsili-elm" "Bilməm, nə görübdü bizim oğlan oxumaqdan" və s.) səsləndirməklə motivasiya yarada bilər. Bu məqsədlə "Molla Nəsrəddin" jurnalından götürülmüş təhsillə bağlı hər hansı bir karikaturdan, hər hansı bir illüstrasiyadan da istifadə etmək olar. Dərslikdə 151-ci səhifədə verilmiş karikatur, hər hansı bir atalar sözü, hikmətli fikir də bu məqsədlə istifadə oluna bilər.

Daha sonra yönəldici suallardan ("Sabiri bu mövzuda əsər yazmağa nə vadar edirdi?", "...şeirində (satirasında) hansı fikirlər əks olunub?", "Satiranın tənqid hədəfləri kimlərdir?" və s.) istifadə oluna bilər. Satiralarda əks olunan fikirlərin mahiyyətinin tam dərk edilməsi üçün Sabirin yaşadığı dövrə səyahət etmək, yığcam məlumat vermək və ya şagirdlərdən bu barədə nə bildiklərini öyrənmək üçün məlumat almaq olar.

Daha sonra B.Vahabzadənin "Ağlar-güləyən" poemasından götürülmüş "Dərman" və "Ümid məktəbi" adlı hissələrin oxusu təşkil edilir. Bu məqsədlə proqnozlaşdırılmış oxudan, yaxud müəllimin uyğun bildiyi hər hansı bir oxu növündən istifadə etmək olar. Oxudan əvvəl 1-ci tapşırıq icra edilir.

**Tədqiqat sualı:** *M.Ə.Sabirin məktəb açmaqda əsas məqsədi nə idi?*

**Tədqiqatın aparılması:** Şagirdlər 5 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 1, 2 və 12-ci, II qrupa 3, 5 və 13-cü, III qrupa 4, 6 və 14-cü, IV qrupa 7, 8 və 15-ci, V qrupa 9 və 16-cı tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. 11-ci tapşırıq (1-ci sual) icra edilir.

**Yaradıcı tətbiqetmə:** 11-ci tapşırığın 2-ci sualı (Siz özünüzü xoşbəxt hesab edirsinizmi?) icra edilir. Şagirdlərə "Mən xoşbəxtəm, çünki..." başlıqlı yığcam yazı yazmağı da tapşırmaq olar.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, Sabirin məktəb açmaqda məqsədi xalqın balalarını oxutmaq, onlarda zəngin dünyagörüşü formalaşdırmaq, xalqını inkişaf etmiş digər xalqların səviyyəsinə çatdırmaqdır. Bu onun xalqına olan dərin sevgisindən, vətəndaşlıq mövqeyindən irəli gəlirdi.

**Ev tapşırığı:** M.Ə.Sabir haqqında təqdimat hazırlamaq tapşırılır. Əgər sinifdə daha yüksək səviyyəli şagird varsa, həmin şagirdə (şagirdlərə) "XX əsrin əvvəllərində elm və təhsil" mövzusunda təqdimat hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. İzahetmə, mətnqurma, mətni təkmilləşdirmə bacarıqları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Tədqiqat xarakterli suallar verməyi bacarmır. | Tədqiqat xarakterli suallar verməkdə çətinlik çəkir. | Tədqiqat aparmağa kömək edən suallar verir. | Məzmuna uyğun tədqiqat xarakterli suallar verir. |
| Mətndəki fikirləri dəyərləndirə bilmir. | Mətndəki fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Mətndəki fikirlərə qismən münasibət bildirir. | Mətndə səslənən fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirlərini yığcam şəkildə təqdim edə bilmir. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini yığcam şəkildə təqdim edir. | Fikirlərini ümumiləşdirərək yığcam şəkildə təqdim edir. |
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müəllimin köməyi ilə şərh edir. | Tanış olmayan sözlərin mənasını kontekstə uyğun şərh edərkən kiçik səhvlərə yol verir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müstəqil şərh edir. |
| Mətni tələb olunan intonasiya ilə oxumağı bacarmır. | Mətni tələb olunan intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətnin əksər hissələrini intonasiya ilə oxuyur. | Mətni tələb olunan intonasiya ilə oxuyur. |

# Mövzu 16

## Dərman

**Məzmun standartları:**

**2.2.3., 3.1.3., 4.1.1.**

**Məqsəd:**

- İrəli sürülmüş fikirləri dəqiqləşdirir.
- Hissələr, cümlələr arasında əlaqəni gözləməklə elmi mətn tərtib edir.
- Baş və budaq cümlələri fərqləndirir.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**İş formaları:**

kollektiv, fərdi və cütlərlə iş

**İş üsulları:**

beyin həmləsi, müzakirə, suallar, cəld yazı

**Resurslar:**

sxemlər, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Şagirdlərin təqdimatları dinlənilir. Yığcam şəkildə müzakirələr keçirilir, təqdimatların məzmununa münasibət bildirilir. Sabirin çətinliklərdən qorxmayıb geri çəkilməməsi, xalqını xoşbəxt görmək istəyinin ona yenilməzlik verməsi bir daha vurğulanır. M.Tvenin 6-cı fikri ilə əlaqə yaradılır, fikirlər müzakirə edilir və ümumiləşdirilir. Mətnlərin sintaksisinə, cümlə quruluşlarına diqqət yetirilir. Tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətnin xarakterik cəhətləri hansılardır?*

**Tədqiqatın aparılması:** Tədqiqat aparmaq üçün 17 və 18-ci tapşırıqlar kollektivlə icra edilir. 19-cu tapşırıq cütlərlə yerinə yetirilir.

Mürəkkəb cümlələrlə bağlı qazanılmış bilik və bacarıqları ümumiləşdirmək məqsədilə dərslikdəki 18-ci tapşırıq müəllimin seçimi əsasında fərdi şəkildə yerinə yetirilə bilər.

21-ci tapşırıq cəld yazı üsulundan istifadə edilərək qrup tapşırığı kimi verilə bilər və onun əsasında elmi mətn hazırlamağı tapşırmaq olar.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq tapşırıqlara əsasən hazırlanan təqdimatlar dinlənilir.

**Nəticələrin çıxarılması:** Mətn şagirdlərin söz ehtiyatının artırılması baxımından dəyərlidir. Müxtəlif növ cümlələrin işlənməsi mətni daha da zənginləşdirir. Dərsliyin 159-cu səhifəsinin sonundakı çərçivədə verilmiş tapşırıq yerinə yetirilir.

**Yaradıcı tətbiqetmə:** 20-ci tapşırıq yerinə yetirilir.

**Ev tapşırığı:** Bölmə haqqında qısa şərh yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Şərhetmə, təkmilləşdirmə bacarıqları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| İrəli sürülmüş fikirləri dəyərləndirməyi bacarmır. | İrəli sürülmüş fikirləri çətinliklə dəyərləndirir. | Səslənən fikirləri dəyərləndirir. | İrəli sürülmüş fikirləri öz mövqeyindən çıxış edərək dəyərləndirir. |
| Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazısını təkmilləşdirməyi bacarmır. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə öz yazısını çətinliklə təkmilləşdirir. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə öz yazısını təkmilləşdirir. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |
| Baş və budaq cümlələri fərqləndirərkən çətinlik çəkir. | Baş və budaq cümlələri fərqləndirərkən müəllimin köməyindən istifadə edir. | Baş və budaq cümlələri fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Baş və budaq cümlələri fərqləndirir. |

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

**KSQ №3**

## ƏHMƏD CAVADIN ŞÜKRİYYƏSİ

Axundzadə Cavad Məhəmmədəli oğlu 1892-ci il mayın 5-də Azərbaycanın Gəncə qəzasının Şəmkir dairəsinin Seyfəli kəndində anadan olmuşdur. O, əvvəlcə Gəncə ruhani seminariyasında, sonra Azərbaycan Ali Pedaqoji İnstitutunun tarix və filologiya fakültəsində təhsil almışdır. Quba Xalq Maarif Şöbəsinin müdiri, Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda Azərbaycan və rus dilləri kafedrasında müəllim, dosent, kafedra müdiri, Azərbaycan Dövlət Nəşriyyatının tərcümə şöbəsində redaktor, "Azərbaycanfilm" studiyasında sənədli filmlər şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

Ə.Cavadın şeirləri 1913-cü ildən çap edilmişdir. Yaradıcılığa lirik şeirlə başlayan şairin 1916-cı ildə "Qoşma" adlı ilk kitabı çapdan çıxmış, 1919-cu ildə isə "Dalğa" adlı kitabı nəşr olunmuşdur. Onun məşhur "İstiqlal uğrunda şeirlər" kitabı isə 1928-ci ildə İstanbulda buraxılmışdır. Əsrin əvvəllərində Türkiyənin düşdüyü ağır vəziyyət bir türk övladı kimi Əhməd Cavadı ciddi narahat etmişdir. O, könüllü əsgər kimi köməyə getmiş, Türkiyənin müstəqilliyi uğrunda türk qardaşları ilə çiyin-çiyinə vuruşmuşdur.

O vaxtlar Batumda türk ordusuna yardım komitəsi vardı, Əhməd Cavad həmin komitənin rəhbəri idi. Batumda yaşayan iki mindən artıq azərbaycanlının uşaqları üçün ayrıca məktəb açmaqdan ötrü Bakıya qayıdıb Hacı Zeynalabdin Tağıyevlə görüşmüş, lazımi vəsaiti alıb məktəbin açılmağına nail olmuşdu.

Əhməd Cavad qismətini qanlı-qadalı günlərdə tapır. Batumda xeyriyyə işlərinə kömək edən Süleyman bəylə tanış olur, dostlaşır. O zaman Şükriyyə 16 yaşında idi, gimnaziyada oxuyurdu. Əhməd Cavadın kirələdiyi ev Süleyman bəyin evi ilə üzbəüz idi. Əhməd elçi getməyə utanır, dostu Əli Səbridən xahiş edir ki, istəyini acar bəyi Süleymana çatdırsın. Türk əsilli acar bəyi Süleyman sərt idi, qızı əvvəl Cavada vermir.

Sonralar Şükriyyə yazır: "Gəncədə toyumuz oldu. Biz Cavadın ata yurduna – Seyfəli kəndinə gəlmişdik. Burada Cavadın beş hektardan artıq ata torpağı vardı. Biz sonralar bu torpağı əkib-becərənlərin verdiyi pulla dolanırdıq. Cavadın ata mülkünə qədəm basdığım birinci günü, ara sakitləşəndə, qohumlar, dostlar çəkilib gedəndən sonra o mənə dedi ki, Şükrü, bu gördüyün adamlar mənim ən yaxın qohum-əqrəbamdır. Səndən xahiş edirəm, mənə etdiyin qədər onlara hörmətlə, nəzakətlə yanaş. Lap ayaqqabıları palçıqlı-palçıqlı evin yuxarı başına keçsələr də, birinin də xətrinə dəymə. Onların ürəyi gül kimidir. Qoy bizim evin qapıları həmişə onların üzünə açıq olsun, öz evləri kimi gəlib-getsinlər. Onların uşaqlarını oxudaq, məktəbə, universitetə düzəldək. Onların

çarıqları, qaloşları, batavaları səni hürkütməsin... Mən Cavadın sözlərini sırğa edib qulaqlarımdan asdım. Sonralar Cavad və mən həbs olunandan sonra həmin adamlar uşaq evlərindən bizim uşaqları axtarıb tapdılar, onları ölüb-itməyə qoymadılar. Yaxşılıq yerdə qalmaz. Körpə Yılmaza ata-ana oldular".

Beş övladı olur: Aydın, Tukay, Niyazi, Yılmaz və bir qız Almaz. O bircə qız – Almaz çox yaşamır, Əhməd Cavadın sağlığında dünyadan köçür.

Azərbaycan sovet yazıçılar ittifaqının 1937-ci il mart ayının 21-də keçirilən iclasında mühakimə və ittihamlardan sonra Əhməd Cavad Yazıçılar İttifaqının üzvlüyündən çıxarıldı. Bu, həmin Əhməd Cavad idi ki, Birinci Cahan savaşı onu əyə bilməmişdi, Azərbaycan xalq cümhuriyyətinin süqutu onu sındırmamışdı, 1923-cü ildə "güllələnənlər"in siyahısına düşəndə qamətini şax tutmuşdu, 1925-ci ildə "Göygöl" şeirinə görə həbs edilmiş, ona verilən işgəncələrə kişi kimi dözmüşdü.

Əhməd Cavadın 12 oktyabr 1937-ci ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyası tərəfindən əks-inqilabi millətçilik fəaliyyətinə görə güllələnməsi ilə ailənin ağrılı-acılı günləri başladı.

*İçərişəhər. 6-cı Böyük Qala döngəsi. 12 nömrəli ev...* Qapı döyülür, üç nəfər qara paltarlı adam Şükriyyə xanıma "bizimlə getməlisən", – deyir. Onlar Bakının boş küçələrindən keçib pay-piyada Bayıl qalasına sarı gedirlər. Şükriyyə gözünü açanda özünü kiçik, qaranlıq otaqda görür. Sonra müstəntiqin sorğu-sualı başlayır və ağır tələb qoyulur.

– Bizə göstəriş var ki, səni Axundzadə familiyasından çıxardıb, təzədən Bejanidze familiyasına qaytaraq. Yəni ərizə yazıb Axundzadədən boşanmalı və azad olub evinə qayıtmalısan. Yoxsa səni qarlı Sibirə sürgün gözləyir.

Tələbləri qəbul etməyən Şükriyyə yarıqaranlıq, rütubətli bir otağa salınır.

...Qazaxıstanın o dəhşətli düşərgəsində ömrün səkkiz ilini xərclədi Şükriyyə. Odun doğradı, yük daşıdı, dərzilik, aşpazlıq etdi. Ta 1955-ci ilin 30 iyuluna – bəraət aldığı günə qədər...

Vətənə dönəndən sonra şəhərbəşəhər düşüb balalarını başına yığdı, Şəmkirin Seyfəli kəndində – Əhməd Cavadın ata yurdunda yaşadı, dünya ilə də burada vidalaşdı.

**1. Mətnə əsasən Şükriyyə xanımı xarakterizə edin.**

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**2. Aşağıdakılardan hansı Şükriyyə xanımın onun Ə.Cavaddan boşanmasını tələb edən müstəntiqə cavabı ola bilər?**

1. "Bəlkə də, Cavadı güllələyəcəklər. Amma mənim boşanma ərizəm ona güllədən ağır olacaq. Mən Cavadı heç vaxt ayaqlamaram".
2. "Mən bilirəm ki, Cavadın taleyi mənim cavabımdan asılıdır. Ona görə də sizin təklifinizi qəbul edirəm".
3. "Mən sizin təklifiniz ətrafında düşünməliyəm. Mənə düşünmək üçün vaxt lazımdır".

Seçiminizi 1 cümlə ilə əsaslandırın.

______________________________________________________________________

______________________________________________________________________

**3. Ə.Cavad nə üçün işgəncələrə məruz qalmışdı?**

A) Siyasi görüşlərinə görə
B) Bəylə qohum olduğuna görə
C) "Göygöl" şeirinə görə
D) Şeirlərində xalq yaradıcılığına üstünlük verdiyinə görə

**4. Aşağıdakılardan hansı Ə.Cavadın Şükriyyəyə verdiyi tövsiyələrin düzgünlüyünü təsdiqləyir?**

A) Ə.Cavad həbs olunandan sonra Şükriyyəyə arxa olduqlarına görə
B) Hər ikisi həbs olunandan sonra övladlarına sahib çıxdıqlarına görə
C) Şükriyyəyə qarşı nəzakətli və mehriban olduqlarına görə
D) Ə.Cavad həbs olunandan sonra öz evlərində onun ailəsinə yer verdiklərinə görə

**5. Ə.Cavad nə üçün Yazıçılar İttifaqından çıxarılır?**

A) Şeirləri klassik olduğu üçün
B) Yaşlı olduğuna görə
C) Xalq düşməni hesab edilir.
D) O, Yazıçılar İttifaqından çıxarılmır.

**6. Əhməd Cavad güllələnən zaman nədə ittiham olunur?**

A) Pantürkist olduğu üçün
B) Dünya müharibəsinə getmədiyi üçün
C) Millətçilik fəaliyyətinə görə
D) SSRİ Ali Məhkəməsinin qərarını pozduğu üçün

**7. Mətnin xatirələrlə bağlı hissələri kimin dilindən verilir?**

A) Ə.Cavadın
B) Təhkiyəçinin
C) Şükriyyənin
D) Müəllifin

**8. Sadalananlardan hansını Ə.Cavad yaşamamışdı?**

A) Birinci Cahan savaşı
B) AXC-nin süqutu
C) "Göygöl" şeirinə görə həbs
D) Türkiyədə konsulluq

**9. Ə.Cavadın Batumda qalmaqda məqsədi nə idi?**

A) Gürcülərə təhsil vermək
B) Azəriləri oxutmaq
C) Əhaliyə maddi yardım etmək
D) Şükriyyə ilə ailə qurmaq

**10. Mətnin hansı abzasında atalar sözü işlənmişdir? Həmin atalar sözünü seçib yazın və ona "sinonim" olanı tapmağa çalışın.**

______________________________________________

______________________________________________

______________________________________________

**11. Mətndə çərçivəyə alınmış ifadəni hansı ifadə ilə əvəz edə bilərsiniz?**

______________________________________________

______________________________________________

______________________________________________

**12. Bu suallardan birinə mətndə cavab var:**

A) Ə.Cavadın şair kimi formalaşmasına hansı amillər səbəb olmuşdu?
B) Batumda yaşayan azərbaycanlı uşaqlar üçün məktəb açmaqda Ə.Cavadın nə kimi xidməti olmuşdur?

C) Süleyman bəyin qızı Şükriyyə xanımı Ə.Cavada vermək istəməməsinin əsas səbəbi nə idi?
D) Ə.Cavad qızı Almazın ölümünə hansı əsərini həsr etmişdir?
E) Şükriyyə xanımın bəraət almasında kimlərin yardımı olmuşdur?

**13. Bu barədə mətndə heç bir məlumata rast gəlinmir:**

A) Şükriyyə xanımın son nəfəsinə qədər öz sevgisinə sadiq qalması
B) Ə.Cavadın "xalq düşməni" damğası ilə ləkələnərək sürgün edilməsi
C) Süleyman bəyin hansı əsildən olması
D) Ə.Cavadın nəşr olunan kitabları

**14. *Familiya* sözünü milli qarşılığı ilə əvəz edin.**

______________________________________________

**15. Mətnin ikinci abzasında işlənmiş tabesiz mürəkkəb cümləni seçib yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**16. "Türk əsilli acar bəyi Süleyman sərt idi, qızı əvvəl Cavada vermir" tabesiz mürəkkəb cümləsini sadə cümlə şəklində yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**17. Mətndə üçüncü abzasda işlənən tabesiz mürəkkəb cümləni müəyyənləşdirib yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**18. Mətndən beşinci abzasdan □ ← ○ sxeminə uyğun cümləni seçib yazın. Özünüz də həmin sxemə uyğun cümlə seçib yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**19. Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.**

Mətndə fərqləndirilmiş cümlələr ......... cümlədir, çünki ......... .

**20. Mətndə altından xətt çəkilmiş ifadələri düzgün yazın, səbəbini izah edin.**

**21. Verilmiş cümləni sxemlərə əsasən təhlil edin.**



## Mövzu 1

## Bakı tarixinin ilk tədqiqatçısı

**Məzmun standartları:**

**1.2.2., 2.1.1., 2.2.3., 3.1.2.**

**Məqsəd:**

- Müxtəlif formalı rabitəli nitq nümunələri qurur.
- Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh edir.
- İrəli sürülmüş fikirləri dəyərləndirir.
- Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İnteqrasiya:**

Riyaziyyat – 1.1.2. Həqiqi ədədləri müqayisə edir və düzür.
Azərbaycan tarixi – 5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.
Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

**İş formaları:**

kollektiv və qrupla iş

**İş üsulları:**

fasiləli oxu, müzakirə, klaster

**Resurslar:**

Sara Aşurbəylinin "Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü", "Şirvanşahlar dövləti (VI–XVI əsrlər)", "Azərbaycanın orta əsrlərdə Hindistanla iqtisadi və mədəni əlaqələri" və s. kitabları, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Şagirdlərə aşağıdakı məlumat oxunur:

"Bu ada ilk dəfə V–VIII əsr mənbələrində "Baqavan" və ya "Baquan", "Atşi Baqavan" və ya "Atşi Baqvan", yəni "Atəşi Baquan" kimi təsadüf olunur. "Baqa" sözün kökü, "an" və "van" isə məkan bildirir".

Bəzi alimlər bu toponimi eramızın VII əsrində bu ərazidə yaşamış "bakan" tayfası ilə əlaqələndirirlər. Bu toponimin qədimliyi haqqında ilk məlumata İ.İ.Meşşaninovun 1927-ci ildə nəşr olunmuş "Eqipet i Kavkaz" adlı məqaləsində rast gəlmək olar. Fərziyyəyə görə, e.ə. III minilliyin sonlarına aid edilən "Ölülər kitabı" Misir mifologiyası toplusunda əksini tapmış "Bakhav" toponiminin Qafqazda formalaşmasıdır. Sözün kökü olan "Baka" "Günəşin doğulduğu yer" və ya "Səhər şəfəqi" kimi iddia edilir.

Şəhərin adı alındıqdan sonra mətn fasilələrlə oxudulur, mətndaxili suallar müzakirə edilir. Daha sonra mətnin məzmununun aydınlaşdırılması üçün tədqiqat sualı qeyd olunur.

**Tədqiqat sualı:** *Mətndə nədən bəhs olunur?*

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünüb dərslikdə verilmiş tapşırıqlar əsasında işləyirlər. I qrupa 1, 2 və 9-cu, II qrupa 3, 4 və 10-cu, III qrupa 5, 6 və 11-ci, IV qrupa 7 və 12-ci tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Təqdimatların xarakterinin açılması üçün əlavə suallar verilir.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətn tanınmış insan Sara xanım Aşurbəylinin həyat və fəaliyyətindən bəhs edir. Onun yaradıcılığı hər zaman aktuallığını qoruyacaq. Mətndə onun zəhmət nəticəsində nailiyyət əldə etməsindən danışılır, heç nəyin təsadüflərlə bağlı olmaması aydınlaşdırılır. Bütün məhrumiyyətlərə baxmayaraq, doğma şəhərinin tarixini araşdıran, tədqiqat əsərləri yazan elm fədaisi xalqın sərvəti hesab oluna bilər.

**Yaradıcı tətbiqetmə:** 8-ci tapşırığa əsasən “Keçmiş və bugünkü Bakı” mövzusunda söhbət aparılır.

**Ev tapşırığı:** Evə 8-ci tapşırığın ikinci bəndinə uyğun olaraq “Daim gəncləşən Bakı” adlı təqdimat hazırlamaq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Nitqqurma, əsaslandırma, əlaqələndirmə bacarıqları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Rabitəli nitq nümunələri qurmağı bacarmır. | Rabitəli nitq nümunələri qurmaqda çətinlik çəkir. | Rabitəli nitq nümunələri qurur. | Müxtəlif formalı rabitəli nitq nümunələri qurur. |
| Tanış olmayan sözlərin kontekstə uyğun mənasını şərh etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müəllimin köməyi ilə şərh edir. | Tanış olmayan sözlərin mənasını kontekstə uyğun şərh edərkən kiçik səhvlərə yol verir. | Tanış olmayan sözlərin kontekstə uyğun mənasını müstəqil şərh edir. |
| İrəli sürülmüş fikirləri dəyərləndirməyi bacarmır. | İrəli sürülmüş fikirləri çətinliklə dəyərləndirir. | Səslənən fikirləri dəyərləndirir. | İrəli sürülmüş fikirləri öz mövqeyindən çıxış edərək dəyərləndirir. |
| Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərkən səhvlərə yol verir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

# Mövzu 2

## Bakı tarixinin ilk tədqiqatçısı

**Məzmun standartları:**

**2.1.1., 4.1.3.**

**Məqsəd:**

- Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.
- Dialoqlarda durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş forması:**

qrupla iş

**İş üsulları:**

müzakirə, suallar, karusel

**Resurslar:**

lüğət, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlərin evdə hazırladıqları təqdimatlar dinlənildikdən sonra mətnin dil xüsusiyyətləri araşdırılır.

**Tədqiqat sualı:** *Mətndə dil xüsusiyyətlərinin hansı özünəməxsusluğu var?*

**Tədqiqatın aparılması:** Şagirdlər 13-cü tapşırığı qrupda karusellə yazır, digər tapşırıqlar qruplar arasında bölünür. I qrupa 14-cü, II qrupa 15-ci, III qrupa 16-cı, IV qrupa 17-ci, V qrupa 18-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin dil xüsusiyyətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Təhlilin nəticəsində mətnin xarakterik cəhətləri ilə bağlı nəticə çıxarılır. Dərslikdəki qayda izah olunur (səh. 167).

**Nəticələrin çıxarılması:** Mətn dil baxımından olduqca maraqlı və rəngarəngdir. Yeni sözlərin və terminlərin işlənməsi lüğət ehtiyatının zənginləşməsinə şərait yaradır.

**Yaradıcı tətbiqetmə** kimi 19-cu tapşırıq yerinə yetirilir.

***Qeyd.*** Bu tapşırıq qabaqcadan təşkil edilmiş hər hansı bir ekskursiya əsasında icra edilsə, daha məqsədəuyğun olar.

Ancaq ekskursiya baş tutmayıbsa, müəllim hər hansı bir muzey, tarixi abidə və s. haqqında qısa film nümayiş etdirməklə tapşırığı yerinə yetirə bilər.

Dialoqun hazırlanması da mümkündür.

**Ev tapşırığı:** Bakı Dövlət Universiteti haqqında təqdimat hazırlamaq tapşırıla bilər (18-ci tapşırığın 4-cü alt sualı).

**Qiymətləndirmə:** Özünüqiymətləndirmədən istifadə məqsədəuyğundur. Şagirdlər meyarlar əsasında özlərini qiymətləndirə bilərlər.

| **Ballar** / **Meyarlar** | **5** | **4** | **3** | **2** |
|---|---|---|---|---|
| Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah etdim. | | | | |
| Dialoqlarda durğu işarələrindən istifadə etdim. | | | | |
| **Şagirdin adı, soyadı, atasının adı:** | | | | |

# Mövzu 3

## İçərişəhər məhv edilməkdən necə xilas oldu?

### Məzmun standartları:

**1.2.2., 2.2.3., 3.1.2.**

### Məqsəd:

- Müxtəlif formalı rabitəli nitq nümunələri qurur.
- İrəli sürülmüş fikirləri dəyərləndirir.
- Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

### İnteqrasiya:

Azərbaycan tarixi – 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.
Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

### İş formaları:

qrupla və fərdi iş

### İş üsulları:

beyin həmləsi, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu

### Resurslar:

Sara Aşurbəylinin Şirvanşahlara dair tədqiqatlarından nümunələr, "İçərişəhər Azərbaycan tarixində" kitabı, E.A.Paxomovun tədqiqatlarından faktlar, iş vərəqləri, lüğət

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə rejissor Leonid Qaydayın "Brilyant əl" filmində İçərişəhərlə bağlı fraqmentin nümayişi ilə başlaya bilər. Fraqment nümayiş olunduqdan sonra şagirdlərlə beyin həmləsi aparılır. İçərişəhərin tarixi barədə məlumatlar dəqiqləşdirilir və mətn oxunur, mətndaxili suallar cavablandırılır. Səh. 170-dəki sualın (*Sizcə, işin dayandırılmasına səbəb nə oldu?*) cavabı 3-cü fikirdir. Oxudan sonra tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətnin əsas ideyası nədir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları yerinə yetirirlər. I qrupa dərslikdəki 1-ci, II qrupa 2-ci, III qrupa 3-cü, IV qrupa 4-cü tapşırıq verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** Şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə suallardan istifadə edir. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır. H.Əliyev Fondunun bu istiqamətdə çox uğurlu və ar-

dıcıl işlər görməsi şagirdlərin nəzərinə çatdırılır.

Müəllim bu mərhələdə aşağıdakı suallardan da istifadə edə bilər:

*Bakının e.ə. yarandığını mətndəki hansı faktlardan müəyyən etdiniz?*

*Bakıdakı tarixi abidələrin çar hökuməti tərəfindən məhv edilməməsini təsadüf hesab etmək olarmı?*

**Nəticələrin çıxarılması:** Nəticədə müəyyən olunur ki, mətndə İçərişəhərin Azərbaycan tarixindəki yeri və dəyəri xüsusi vurğulanır. Buna mətnin həm məzmunu, həm də strukturu imkan yaradır. Mətn şagirdlərimizi milli-mənəvi dəyərlərin, irsimizin qorunmasına səsləyir.

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə fərdi şəkildə 12-ci tapşırığı hazırlamaq tapşırılır.

**Ev tapşırığı:** 11-ci tapşırıq verilir. Qız qalası haqqında məlumat toplanaraq mətnə əlavə olunmalıdır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Nitqqurma, əsaslandırma, əlaqələndirmə bacarıqları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Rabitəli nitq nümunələri qurmağı bacarmır. | Rabitəli nitq nümunələri qurmaqda çətinlik çəkir. | Rabitəli nitq nümunələri qurur. | Müxtəlif formalı rabitəli nitq nümunələri qurur. |
| İrəli sürülmüş fikirləri dəyərləndirməyi bacarmır. | İrəli sürülmüş fikirləri çətinliklə dəyərləndirir. | Səslənən fikirləri dəyərləndirir. | İrəli sürülmüş fikirləri öz mövqeyindən çıxış edərək dəyərləndirir. |
| Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərkən müəyyən səhvlərə yol verir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

# Mövzu 4

## İçərişəhər məhv edilməkdən necə xilas oldu?

### Məzmun standartları:

**1.1.2., 2.1.1., 2.1.2., 4.1.3.**

### Məqsəd:

- Söylənilən fikirləri dəyərləndirir.
- Tanış olmayan sözlərin mənasını şərh edir.
- Həqiqi və məcazi mənalı sözlərin mənasını dəqiqləşdirir.
- Vasitəsiz nitqdə durğu işarələrindən düzgün istifadə edir.

### İnteqrasiya:

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

### İş formaları:

fərdi və qrupla iş

### İş üsulları:

beyin həmləsi, müzakirə

### Resurslar:

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturuna daxil olan Elmi-mədəni mərkəzin əsasnaməsi,
iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə ötən dərsdə verilmiş tapşırığın dinlənilməsi ilə başlayır. Qız qalası haqqında toplanılan fikirlər mübadilə olunur. Qız qalasının strukturu, memarlığının dəstxəti barədə müzakirələr aparılır. Daha sonra dərslikdəki qrammatik qayda izah olunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Mətnin hansı xarakterik cəhətləri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır: I qrupa 5, 13, 17-ci, II qrupa 6, 7, 16-cı, III qrupa 8, 14, 15-ci, IV qrupa 9, 10, 18-ci tapşırıqlar verilir.

9-cu tapşırığın cavabı 3-cü fikirdir.

17-ci tapşırığın cavabı belədir:

1-D; 2-B; 3-A; 4-C

***Qeyd.*** Müəllim şagirdə belə tapşırıq da verə bilər: *Zaman, vaxt, çağ, an* sözlərinin bir-biri ilə əvəzlənməsinin mümkün olmadığı cümlələr də qurun.

18-ci tapşırığın cavabı:

- Qazıntı yolu ilə tapılan abidələrə əsasən qədim xalqların yaşayış və mədəniyyətini tədqiq edən elm – *arxeologiya*
- Qədim pulları öyrənən elm – *numizmatika*
- Düşməndən qorunmaq məqsədilə düzəldilən müdafiə tikililəri – *istehkam*

- Qala divarlarından kənarda şəhər – *forsşdatd*
- Bir vəhdət təşkil edən hadisələrin məcmusu – *kompleks*
- Qazıntı nəticəsində tapılan nəsli kəsilmiş heyvan və bitkilərin tədqiqi ilə məşğul olan elm – *paleontologiya*
- Yer səthində olan müxtəlif kələ-kötürlük, dağ, düzənlik – *relyef*

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı dövlət rəmzləri ilə bağlı verilmiş suallardan istifadə etmək tədqiqatın xarakterinin açılması üçün faydalı ola bilər.

**Nəticələrin çıxarılması:** Təqdimatlardan sonra məlum olur ki, mətn daha çox məlumatverici xarakter daşıyır, İçərişəhərin simvolikasından bəhs edir. Kifayət qədər məlumat almaq mümkündür. Tədqiqat işi üçün səmərəlidir.

**Ev tapşırığı:** Səh. 173-də sondakı çərçivədəki tapşırıq verilir. İçərişəhərə səyahət etmək imkanı olmayan şagirdlər İnternet materiallarından, tarixi mənbələrdən istifadə edə bilərlər.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Şərhetmə, dəqiqləşdirmə əsas bacarıqlardır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlənilən fikirlərə şəxsi münasibətini bildirməyi bacarmır. | Dinlənilən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Dinlənilən fikirlərə münasibət bildirir. | Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir. |
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirməyi bacarmır. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirməkdə çətinlik çəkir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını müəyyən düzəlişlərlə dəqiqləşdirir. | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını dəqiqləşdirir. |
| Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən qismən istifadə edir. | Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarır. |

# Mövzu 5

## İçərişəhər məhv edilməkdən necə xilas oldu?

### Məzmun standartları:

**1.2.3., 1.2.4., 4.1.3., 4.1.4.**

### Məqsəd:

- Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.
- Dialoqda və vasitəsiz nitqdə sözlərin böyük hərflə yazılış qaydasına əməl edir.

### İnteqrasiya:

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

### İş formaları:

kollektiv, fərdi və qrupla iş

### İş üsulları:

beyin həmləsi, müzakirə

### Resurslar:

vasitəsiz nitqin müxtəlif formalarına aid sxemlər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə ötən dərsdə verilmiş tapşırığın dinlənilməsi ilə başlayır. Müəllim şagirdlərin esselərindən müvafiq cümlələr seçir, onu lövhədə həm vasitəli, həm də vasitəsiz nitq formasında verir və şagirdlərdən bunun fərqini soruşur. 19-cu tapşırıq kollektiv şəkildə yerinə yetirilir.

**Tədqiqat sualı:** *Nitq hansı formalarla verilə bilər?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır: I qrupa 20-ci, II qrupa 21-ci, III qrupa 22-ci, IV qrupa 23-cü tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı əlavə suallardan istifadə etmək tədqiqatın xarakterinin açılması üçün faydalı ola bilər. Müəllim qrammatik qaydaları (səh. 176) izah edir.

**Nəticələrin çıxarılması:** Təqdimatlardan sonra məlum olur ki, vasitəsiz nitq həm dialoqlarda, həm də müəllif təhkiyəsində istifadə olunur.

**Yaradıcı tətbiqetmə:** Müəllimin təqdim etdiyi mətn əsasında şagirdlər vasitəsiz nitqdə durğu işarələrinin işlənmə qaydasını izah edirlər. Vasitəli və vasitəsiz nitqi bir-birindən fərqləndirirlər.

**Ev tapşırığı:** Bədii ədəbiyyatdan vasitəsiz nitqin müxtəlif formalarının istifadə olunduğu 10 cümlə yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Uzlaşdırma, təqdimetmə, istifadəetmə, əməletmə əsas meyarlardır.

| I | II | III | IV |
|---|---|---|---|
| Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırmağı bacarmır. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırmaqda çətinlik çəkir. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini müəyyən qədər (poza, jest, mimika) uzlaşdırır. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır. |
| Fikirlərini yığcam şəkildə təqdim etməyi bacarmır. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini qismən yığcam təqdim edir. | Fikirlərini yığcam şəkildə təqdim edir. |
| Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə edərkən müəyyən səhvlərə yol verir. | Dialoqda və vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarır. |
| Dialoqda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etmir. | Dialoqda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etməkdə çətinlik çəkir. | Dialoqda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarında müəyyən səhvlərə yol verir. | Dialoqda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir. |

## Mövzu 6

## İçərişəhər məhv edilməkdən necə xilas oldu?

**Məzmun standartları:**

**1.2.1., 3.1.2., 4.1.4.**

**Məqsəd:**

- Dil vahidlərindən məqsədyönlü istifadə etməklə mətn qurur.
- Dialoqda fikirlərini həyat hadisələri ilə əsaslandırır.
- Dialoqda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş formaları:**

kollektiv və qrupla iş

**İş üsulları:**

müzakirə, beyin həmləsi

**Resurslar:**

dərslik, iş vərəqi

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsdə Xosrov və Fərhadın deyişmə hissəsini (N.Gəncəvi “Xosrov və Şirin”) ekranda əks etdirə bilər. Şagirdlərin diqqəti durğu işarələrinə cəlb edilir və müzakirə aparılır. Müəllim deyişməni durğu işarələri olmadan da təqdim edə bilər. Məqsəd şagirdlərin müvafiq bilik və bacarıqlarını yoxlamaqdır.

**Tədqiqat sualı:** *Vasitəsiz nitqin hansı xüsusiyyətləri var?*

**Tədqiqatın aparılması:** Dərslikdəki müvafiq qaydalar izah edilir (səh. 177–178). Sonra şagirdlər 4 qrupa bölünür.

I qrupa 24-cü, II qrupa 25-ci, III qrupa 26-cı, IV qrupa 27-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı müəllim sinfin səviyyəsinə uyğun əlavə suallar hazırlaya və istifadə edə bilər.

**Nəticələrin çıxarılması:** Vasitəsiz nitq həm dialoqlarda, həm də müəllif təhkiyəsində istifadə olunur. Vasitəsiz nitqdə məqamına uyğun müxtəlif durğu işarələrindən istifadə edilir.

**Yaradıcı tətbiqetmə:** Müəllimin təqdim etdiyi mətn əsasında şagirdlər vasitəsiz nitqdə durğu işarələrinin işlənmə qaydasını izah edirlər. Vasitəli və vasitəsiz nitqi bir-birindən fərqləndirirlər.

**Ev tapşırığı:** Tarixi abidələrlə bağlı dialoq hazırlamaq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Uzlaşdırma, təqdimetmə, istifadəetmə, əməletmə əsas meyarlardır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dil vahidlərindən istifadə əsasında mətnlər qurmağı bacarmır. | Dil vahidlərindən istifadə əsasında mətnlər qurmaqda çətinlik çəkir. | Dil vahidlərindən istifadə əsasında mətn qurur. | Dil vahidlərindən məqsədli istifadə əsasında mətnlər qurur. |
| Mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Mülahizələrini həyat hadisələri ilə əlaqələndirərkən səhvlərə yol verir. | Mülahizələrini öz həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |
| Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etməyi bacarmır. | Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etməkdə çətinlik çəkir. | Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına qismən əməl edir. | Dialoqlarda sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir. |

# Mövzu 7

## Azərbaycanlıların qədim yaşayış məskəni

### Məzmun standartları:

**1.1.2., 1.2.4., 2.2.1., 3.1.1.**

### Məqsəd:

- Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir.
- Ümumiləşdirdiyi fikirləri yığcam şəkildə təqdim edir.
- Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur.
- Mövzuya uyğun mühakimə xarakterli esse yazır.

### İnteqrasiya:

Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir. 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.
Azərbaycan tarixi – 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

anlayışın çıxarılması, auksion, diskussiyalı oxu

### Resurslar:

lüğət, iş vərəqləri, Şuşanın şəkilləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




Şuşa anlayışı alındıqdan sonra şagirdlərdən auksion üsulu ilə Şuşaya aid daha hansı faktları bilmələri soruşulur. Daha sonra mövzu ilə tanış olmaq üçün mətn diskussiyalı oxu əsasında oxunur, mətndaxili suallar üzərində iş aparılır və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Mətnin özünəməxsusluğu nədədir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünürlər. I qrupa dərslikdəki 2, 4-cü, II qrupa 5, 6-cı, III qrupa 3-cü tapşırıq verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün

əlavə yönəldici suallardan da istifadə edə bilər.

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətn Şuşanın tarixindən bəhs edir. “Şərqin konservatoriyası” adlanan Şuşa dahilər məskənidir. Mətn mənəvi dəyərlərin təbliği baxımından olduqca dəyərlidir.

**Yaradıcı tətbiqetmə:** 1-ci tapşırıq üzrə aparılır.

**Ev tapşırığı:** Şuşa haqqında görüntülü təqdimat hazırlamaq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, fikri ifadəetmə, düzgün oxuma, esse yazma bacarıqları nəzərdən qaçmamalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlənilən fikirlərə şəxsi münasibətini bildirməyi bacarmır. | Dinlənilən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Dinlənilən fikirlərə münasibət bildirir. | Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir. |
| Ümumiləşdirdiyi fikirləri yığcam şəkildə təqdim etməyi bacarmır. | Ümumiləşdirdiyi fikirləri yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Ümumiləşdirdiyi fikirləri müəyyən qədər yığcam təqdim edir. | Ümumiləşdirdiyi fikirləri yığcam şəkildə təqdim edir. |
| Mətni müəyyən olunmuş intonasiya ilə oxumağı bacarmır. | Mətni müəyyən olunmuş intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni müəyyən olunmuş intonasiya ilə oxuyarkən müəyyən səhvlərə yol verir. | Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur. |
| Mövzuya uyğun mühakimə xarakterli esse yazmağı bacarmır. | Mövzuya uyğun mühakimə xarakterli esse yazmaqda çətinlik çəkir. | Mövzuya uyğun esse yazır. | Mövzuya uyğun mühakimə xarakterli esse yazır. |

# Mövzu 8

## Azərbaycanlıların qədim yaşayış məskəni

### Məzmun standartları:

**1.2.1., 3.1.3., 3.1.4., 4.1.3.**

### Məqsəd:

- Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur.
- Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.
- Müxtəlif mövzularla bağlı akt yazır.
- Vasitəsiz nitqdə durğu işarələrindən düzgün istifadə edir.

### İnteqrasiya:

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

interaktiv mühazirə, klaster

### Resurslar:

akt nümunələri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə Şuşa haqqında hazırlanan təqdimatların nümayişi ilə başlaya bilər. Dərslikdəki 7-ci tapşırıq yerinə yetirilir və şagirdlərin özləri səh. 184-də çərçivədə verilmiş fikirləri tamamlayaraq qaydanın mətnini tərtib edirlər. Şagirdlərdə bacarıq formalaşdırmaq üçün 8-ci tapşırıq yerinə yetirilir. 8-ci tapşırığın icrası zamanı müəllim şagirdlərə tapşırıqdakı mürəkkəb cümlələri seçib onların növünü və tərəflərini bağlayan vasitələri müəyyənləşdirməyi tapşıra bilər. Daha sonra müəllimin dərsi akt anlayışının izahı ilə davam etdirməsi məsləhətdir. Səh. 185-dəki məlumatlar oxunduqdan sonra tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *"Akt"ın hansı xarakterik xüsusiyyətləri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində problem qeyd olunur. "Sağlam təhsil" layihəsi üçün sizin qrupa 10 marker, 3 flipçart, bir yapışqanlı lent, 1 paçka rəngli stiker, bir qayçı, 12 fərqli rəngli flamaster,

bir buklet verilir. Materialları təhvil alanda və layihə işlənəndən sonra yarımçıq qalmış materialları geri qaytarandan sonrakı vəziyyəti qrup üzvləri ilə birgə aktlaşdırın.

**Məlumat mübadiləsi və müzakirə:** Eyni vəziyyətlə bağlı müxtəlif formalı və məzmunlu aktlar oxunur. Müəllim əlavə mövzulardan da istifadə edə bilər. Aktın xüsusiyyətləri klasterlə verilə bilər.

**Nəticələrin çıxarılması:** *"Akt"* latınca hərəkət, hadisə deməkdir. Vəziyyəti sənədləşdirmək üçün istifadə olunur.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Mətnqurma, təkmilləşdirmə, aktyazma meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurmağı bacarmır. | Dil vahidlərindən məqsədyönlü istifadə etməklə mətn qurmaqda çətinlik çəkir. | Dil vahidlərindən məqsədyönlü istifadə etməklə mətnlər qurur. | Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur. |
| Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazısını təkmilləşdirməyi bacarmır. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə öz yazısını çətinliklə təkmilləşdirir. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə öz yazısını təkmilləşdirir. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |
| Akt yazmağı bacarmır. | Standart mövzularla bağlı akt yazmaqda çətinlik çəkir. | Standart mövzularda akt yazır. | Müxtəlif mövzularla bağlı akt yazır. |
| Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir. | Vasitəsiz nitqdə durğu işarələrindən yerində istifadə edir. |

## Mövzu 10

## Qarı dağı

### Məzmun standartları:

**1.1.1., 1.1.2., 2.2.1., 3.1.2.**

### Məqsəd:

- Tədqiqat xarakterli suallar verir.
- Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir.
- Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur.
- Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

### İnteqrasiya:

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.
Ədəbiyyat – 1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

### İş formaları:

kollektiv və qrupla iş

### İş üsulları:

anlayışın çıxarılması, auksion, sual ünvanlayaraq oxu

### Resurslar:

İ.Əfəndiyevin seçilmiş əsərləri, iş vərəqləri, internet materialları

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə "ilyasafandiyev.musigi-dunya.az/yaradiciliq.html" saytından istifadə əsasında başlaya bilər. Dramaturqun əsərləri əsasında anlayışın çıxarılması üsulu ilə iş aparmaq da mümkündür. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




İlyas Əfəndiyev anlayışı alındıqdan sonra şagirdlərdən auksion üsulu ilə onun daha hansı əsərlərinin adlarını bilmələri soruşulur. Daha sonra mövzu ilə tanış olmaq üçün mətn oxunur və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *"Qarı dağı" əsərinin əsas ideyası nədən ibarətdir?*

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünür və onlara tədqiqat xarakterli suallar ünvanlanır. I qrupa dərslikdəki 1, 3,

13-cü, II qrupa 2, 4, 15-ci, III qrupa 5, 6, 14-cü, IV qrupa 7, 12, 16-cı tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə:** Şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün mətnin daxilində verilmiş suallardan istifadə edir. Müzakirə sonunda dərsin nəticəsi formalaşır. 9-cu tapşırıq kollektivlə birgə işlənir.

**Nəticələrin çıxarılması:** Nəticədə, mətnin əsas ideyasının "Buynuzsuz qoçun qisasının buynuzlu qoçda qalmayacağ"ı fikrinə əsaslandığı müəyyən olur. Ananın sevgisi nə qədər böyükdürsə, nifrəti də o qədər şiddətlidir.

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə fərdi şəkildə 8-ci tapşırığı hazırlamaq tapşırılır.

**Ev tapşırığı:** 10-cu tapşırıq verilir. Mətnin ardıcıllığı 4, 1, 3, 2.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Sualvermə, münasibətbildirmə, oxuma, əlaqələndirmə bacarıqlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Tədqiqat xarakterli suallar verməyi bacarmır. | Tədqiqat xarakterli suallar verməkdə çətinlik çəkir. | Tədqiqat xarakterli sualları bəzən verir. | Tədqiqat xarakterli suallar verir. |
| Dinlənilən fikirlərə şəxsi münasibətini bildirmir. | Dinlənilən fikirlərə şəxsi münasibətini bildirməkdə çətinlik çəkir. | Dinlənilən fikirlərə münasibət bildirir. | Dinlənilən fikirlərə şəxsi münasibətini bildirir. |
| Mətni müəyyən olunmuş intonasiya ilə oxumağı bacarmır. | Mətni müəyyən olunmuş intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətni intonasiya ilə oxuyur. | Mətni müəyyən olunmuş intonasiya ilə oxuyur. |
| Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməyi bacarmır. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərkən müəyyən səhvlərə yol verir. | Fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

# Mövzu 11

## Qarı dağı

### Məzmun standartları:

**1.2.3., 1.2.4., 4.1.3., 4.1.4.**

### Məqsəd:

- Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.
- Vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir.

### İnteqrasiya:

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

### İş formaları:

fərdi və cütlərlə iş

### İş üsulları:

beyin həmləsi, müzakirə

### Resurslar:

vasitəsiz nitqin müxtəlif formalarına aid sxemlər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə ötən dərsdə verilmiş tapşırığın dinlənilməsi ilə başlayır. 10-cu tapşırıq üzrə iş dinlənildikdən sonra onunla əlaqədar müzakirə təşkil olunur. 17 və 18-ci tapşırıqlar yeni qaydanın öyrədilməsi məqsədilə fərdi qaydada yerinə yetirilir. Qrammatik qayda (səh. 193–194) izah olunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Vasitəsiz nitq hansı formalarda işlənə bilər?*

**Tədqiqatın aparılması:** 19 və 20-ci tapşırıqlar cütlər vasitəsilə yerinə yetirilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı əlavə suallardan istifadə etmək tədqiqatın xarakterinin açılması üçün faydalı ola bilər.

**Nəticələrin çıxarılması:** Təqdimatlardan sonra məlum olur ki, vasitəsiz nitq həm müəllif nitqindən əvvəl, həm sonra, həm də növbəli işlənə bilər.

**Yaradıcı tətbiqetmə:** “M: - V, - m, - V” sxeminə uyğun 5 cümlə qurun.

**Ev tapşırığı:** 11-ci tapşırıq verilə bilər.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Uzlaşdırma, təqdimetmə, istifadəetmə, əməletmə əsas meyarlardır.

| I | II | III | IV |
|---|---|---|---|
| Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırmağı bacarmır. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırmaqda çətinlik çəkir. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini müəyyən qədər (poza, jest, mimika) uzlaşdırır. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır. |
| Fikirlərini yığcam şəkildə təqdim etməyi bacarmır. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini qismən yığcam təqdim edir. | Fikirlərini yığcam şəkildə təqdim edir. |
| Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edərkən müəyyən səhvlərə yol verir. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarır. |
| Vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etmir. | Vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl etməkdə çətinlik çəkir. | Vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edərkən müəyyən səhvlərə yol verir. | Vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir. |

## Mövzu 12

## Bəyaz yelkənli teatr

**Məzmun standartları:**

**1.1.2., 1.2.3., 1.2.4., 2.2.1.**

**Məqsəd:**

- Səslənən fikirlərə münasibət bildirir.
- Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır.
- Fikirləri yığcam şəkildə təqdim edir.
- Mətni düzgün intonasiya ilə oxuyur.

**İnteqrasiya:**

Təsviri incəsənət – 1.1.1. Müasir Azərbaycan və dünya incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. 2.2.1. Memarlıq və inşaat tikililəri üzərində bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir. 3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir.
Kimya – 2.1.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiyaların qanunauyğunluqlarını izah edir.

**İş formaları:**

kollektiv və cütlərlə iş

**İş üsulları:**

fasiləli oxu, auksion

**Resurslar:**

"Dünyanın 100 möhtəşəm tikilisi" kitabı, müxtəlif beton və metal konstruksiya rəsmləri, lüğət, iş vərəqləri

### DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə "Göydələn" sözünün leksik mənasının soruşulması ilə başlaya bilər. Daha sonra dünyanın ən məşhur göydələnləri auksionla soruşula bilər. Göydələnlərin insan həyatını asanlaşdırmağı, yaxud çətinləşdirməyi müzakirə edilir. Mətn oxunduqdan sonra ona uyğun olaraq tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Müəllifin çatdırmaq istədiyi əsas fikir nədən ibarətdir?*

**Tədqiqatın aparılması:** 2 və 3-cü suallar cütlər vasitəsilə yerinə yetirilir, müzakirə edilir. Daha sonra şagirdlər verilmiş mövzuya uyğun debat aparırlar. Müzakirə zamanı əlavə suallardan istifadə etmək tədqiqatın xarakterinin açılması üçün faydalı ola bilər. Debat üçün arqument dərslikdə verilmişdir (səh. 197).

**Nəticələrin çıxarılması:** Şagirdlər müəyyənləşdirirlər ki, mətn insanları qurub-yaratmağa, yaradıcı fikirlərdən qorxmamağa, yeniliyə can atmağa, təkrarlanmamağa, orijinal olmağa səsləyir.

**Yaradıcı tətbiqetmə:** "100 il sonranın Bakısı" mövzusunda esse yazmaq tapşırılır.

**Ev tapşırığı:** Tarixi binalarımızdan biri barədə məlumat toplamaq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, uzlaşdırma, təqdimetmə, oxuma bacarıqları əsasdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Səslənən fikirlərə münasibət bildirməyi bacarmır. | Səslənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Səslənən fikirlərə bəzən münasibət bildirir. | Səslənən fikirlərə münasibət bildirir. |
| Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırmağı bacarmır. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırmaqda çətinlik çəkir. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini müəyyən qədər (poza, jest, mimika) uzlaşdırır. | Danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır. |
| Fikirlərini yığcam şəkildə təqdim etməyi bacarmır. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini qismən yığcam şəkildə təqdim edir. | Fikirlərini yığcam şəkildə təqdim edir. |
| Mətni düzgün intonasiya ilə oxumağı bacarmır. | Mətni düzgün intonasiya ilə oxumaqda çətinlik çəkir. | Mətnin müəyyən hissəsini düzgün intonasiya ilə oxuyur. | Mətni düzgün intonasiya ilə oxuyur. |

# Mövzu 13

## Bəyaz yelkənli teatr

### Məzmun standartları:

**1.1.2., 1.2.4., 2.1.1., 4.1.3.**

### Məqsəd:

- Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir.
- Fikirlərini yığcam şəkildə təqdim edir.
- Tanış olmayan söz və ifadələrin mənasını şərh edir.
- Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

### İnteqrasiya:

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

### İş formaları:

fərdi və qrupla iş

### İş üsulları:

beyin həmləsi, müzakirə

### Resurslar:

vasitəli nitqin müxtəlif formalarına aid sxemlər, iş vərəqləri

## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim dərsə ötən dərsdə verilmiş tapşırığın dinlənilməsi ilə başlayır. Tarixi binalarımızdan biri haqqında toplanan məlumat dinlənildikdən sonra vasitəli nitq barədə dərslikdə verilmiş məlumat izah olunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı:** *Vasitəli nitqin hansı xüsusiyyətləri var?*

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır: I qrupa 1, 7, 10-cu, II qrupa 4, 6, 11-ci, III qrupa 5, 8, 9-cu tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə:** İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı əlavə suallardan istifadə etmək tədqiqatın xarakterinin açılması üçün faydalı ola bilər. 12 və 13-cü tapşırıqlar da yerinə yetirilir.

**Nəticələrin çıxarılması:** Təqdimatlardan sonra məlum olur ki, vasitəli nitq başqasının nitqinin yalnız məzmununun verilməsidir.

**Yaradıcı tətbiqetmə:** 14-cü tapşırığa əsasən aparılır.

**Ev tapşırığı:** 15-ci tapşırıq verilir.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə uyğun olaraq dörd çətinlik səviyyəsində müəyyən edilmiş meyarlara əsasən dərsin sonunda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Uzlaşdırma, təqdimetmə, istifadəetmə, əməletmə əsas meyarlardır.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirə bilmir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini çətinliklə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini ətrafın köməkliyi ilə bildirir. | Dinlədiyi fikirlərə şəxsi münasibətini bildirir. |
| Fikirlərini yığcam şəkildə təqdim etməyi bacarmır. | Fikirlərini yığcam şəkildə təqdim etməkdə çətinlik çəkir. | Fikirlərini qismən yığcam təqdim edir. | Fikirlərini yığcam şəkildə təqdim edir. |
| Tanış olmayan söz və ifadələrin mənasını şərh etməyi bacarmır. | Tanış olmayan sözlərin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını şərh edir. | Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir. |
| Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməkdə çətinlik çəkir. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edərkən müəyyən səhvlərə yol verir. | Vasitəsiz nitqdə durğu işarələrindən düzgün istifadə edir. |

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

**KSQ №4**

## MUĞAM

Muğam Azərbaycan folklorunda ənənəvi musiqi janrlarından biridir. Muğam – 2002-ci ildə UNESKO tərəfindən musiqi irsinin şedevri elan edilmiş və onun vətəninin məhz Azərbaycan olduğu qeyd edilmişdir.

Muğam sözü musiqidə, əsasən, iki məna kəsb edir. Birinci, Azərbaycan xalq musiqisində bir ahəng, düzüm mənasını daşıyır. Muğamın yeddi növü vardır: Rast, Şur, Segah, Şüştər, Çahargah, Bayatı-Şiraz, Hümayun. Digər bir mənada isə, bu termin xüsusi musiqi forması deməkdir. Muğam – ərəb məqamına, özbək maqomına, hind raqasına çox yaxın, qohum hesab edilir və onlar ahəng baxımından çox oxşardır.

Əvvəllər muğam Yaxın Şərq musiqi ənənələrinə uyğun olaraq, ərəb məqamı, türk makamı və fars dəsgahı üslublarında öyrədilirdi və öyrənilirdi. Sonralar Azərbaycanın muğam ustaları və musiqişünaslarının böyük səyləri nəticəsində Azərbaycanın özünəməxsus muğam üslubu tərtib olunmuşdur.

Muğam Azərbaycan xalq musiqisi kimi öz kökü etibarilə Şərq musiqi mədəniyyətinin lap dərinliklərinə gedir. Muğamın ahəngi – Quran oxuyan moizəçilərdən, musiqisi – fars saraylarında çalınan musiqidən, ifa tərzi isə Azərbaycan aşıqları tərəfindən qoyulmuşdur.

Muğamda oxunan əsas mövzu məhəbbətdir. Təkcə qadın-kişi məhəbbəti yox, vətənə, təbiətə, Allaha məhəbbət və s. Muğamda tək müasirlərin şeirlərindən deyil, klassiklərimizdən – Füzulinin, Vaqifin, Beyləqaninin, Xaqaninin və s. məşhurların klassik şeirlərindən istifadə olunur.

Hər bir muğam kompozisiyası bir neçə hissədən ibarətdir və ümumilikdə bir muğam ahəngi hesab edilir. Müğənni-xanəndə muğam ifa edərkən, bir hissədən digərinə keçərkən səs diapazonunu dəyişərək aşağı registrdən getdikcə yüksəyə qalxır. Bunu isə hər ifaçı bacarmır. Muğamın bölmələri arasında mütləq təsniflər oxunmalıdır. Təsniflər rəng və diringələrdən ibarət olur. Bunlar da rəqs xarakterli olur. Bu, əsasən, improvizə baxımından bir az caza yaxındır.

Muğamın qədim Şumer dövrü ilə əlaqəsi neçə-neçə tarixi faktlarla sübuta yetirilmişdir. Elmi tədqiqatlar nəticəsində sübuta yetirilmişdir ki, muğamın yaranma tarixi çox qədimlərə, e.ə. XII minillikdən də əvvəllərə gedib çıxır.

XX əsrdə Azərbaycanın klassik bəstəkarları üçün operaların, simfonik əsərlərin, xor musiqilərinin bəstələnməsində muğam əsas mənbə olmuşdur. XXI əsrdə isə muğam UNESKO tərəfindən ümumbəşəri mədəni-maddi bir irs kimi tanınmışdır.

Muğam ifa edə bilən və onun mahiyyətini anlayanlar üçün digər musiqi janrlarını ifa etmək çox asan olur. Muğam musiqi dilini anlaya bilən hər bir kəs bunun beynəlmiləl musiqi olduğunu söyləyir. Bu da faktdır ki, muğam ifaçısı heç bir çətinlik çəkmədən və hazırlıqsız istənilən klassik kompozisiyalı musiqi janrını ifa edə bilər. Muğam ahəng diapazonunun çox geniş olmasından xəbər verir. Muğam ifaçısı çox asanlıqla caz və rok ifa etsə də, caz və ya rok ifaçısı çoxillik məşqlər etmədən muğam ifa edə bilməz.

Muğam sözünün kökü *muq, maq* sözündəndir. *Muğami – maqami* kökləri Azərbaycanla bağlı olan qədim etnik tayfa adıdır. Bu sözün hərfi mənası "alov, "atəş" deməkdir. Tarixi faktlar sübut edir ki, qədim Midiya ərazisində məskunlaşmış Muqlar (Maqlar) çox istedadlı olublarmış. Onlar yaxşı dövlət idarə edər, elmə, incəsənətə, musiqiyə, tibbə, dini ayinlərə və mərasimlərə böyük əhəmiyyət verərlərmiş. Deyilənə görə, Muğan adlı ərazi isə məhz elə onların adından götürülmüşdür. Azərbaycan ərazisində Muğan adını daşıyan kənd və qəsəbə çox olmuşdur. Bu baxımdan da muğam havalarının Muğanla bağlılığı danılmaz bir faktdır. Bu, dahi Nizami Gəncəvinin əsərlərində də öz təsdiqini tapır.

Muğam insanı kamilləşməyə doğru aparır. İnsanı sağlam düşüncəli edir və intellektual inkişafina yol açır. Muğam qədim tarixə malik, müdrik bir incəsənət növüdür. O, insanı dərindən düşünməyə vadar edir, haqqa səsləyir və hər şeyə sevgi ilə yanaşmağı tövsiyə edir.

Muğam insanların harmonik tarazlığını tənzimləyir, həyata sevgi və bağlılıq yaradır. Muğam neçə əsrlərdən bəri insanların mənəvi aləmini saflaşdıran bir incəsənət abidəsidir. Bir sözlə, muğam məhəbbət və müdriklik simvolu hesab edilir. Minilliklərdən keçərək bizə gəlib çatan muğam təksəsli musiqi havası formasında ifa edilmişdir.

**1. Muğam hansı təşkilatın mədəni irs siyahısına daxil edilmişdir?**

A) İSESKO
B) ECOSOC
C) UNESKO
D) UNHCR

**2. Muğam sözü hansı mənanı daşıyır?**

A) Məqam, ahəng
B) Ahəng, düzüm
C) Alov, atəş
D) Avaz, sıra

**3. Muğamların sırasında bu adda muğam yoxdur:**

A) Şüştər C) Bayatı-Raz

B) Çahargah D) Hümayun

**4. Məqam hansı xalqın milli muğamıdır?**

A) Ərəb B) Özbək C) Hind D) Çin

**5. Muğamın formalaşmasında hansı sahənin rolu yoxdur?**

A) Quran moizəsinin

B) Fars musiqisinin

C) Etnik tərkibin

D) Aşıq musiqisinin

**6. Xanəndə ifa zamanı bir hissədən digərinə necə keçməlidir?**

A) Yuxarı registrdən aşağı enməlidir.

B) Səs diapazonunu dəyişməlidir.

C) Getdikcə yavaş səslə oxumalıdır.

D) Fasilə edib yenidən başlamalıdır.

**7. Muğam təsnifləri improvizə baxımından hansı janra yaxındır?**

A) Roka C) Popa

B) Caza D) Hip-hopa

**8. Muğam barədə məlumatlara kimin əsərlərində rast gəlinir?**

A) Şəms Təbrizi

B) Xətib Təbrizi

C) Məhsəti Gəncəvi

D) Nizami Gəncəvi

**9. Muğam haqqında deyilənlərdən hansı səhvdir?**

A) O, insanı dərindən düşünməyə vadar edir.

B) Hər şeyə sevgi ilə yanaşmağı tövsiyə edir.

C) Çoxsəsli musiqi havası formasında ifa edilir.

D) İnsanların harmonik tarazlığını tənzimləyir.

**10. Elmi tədqiqatların nəticəsinə görə muğamın yaranma tarixi hansı minilliyə gedib çıxır?**

A) e.ə. XII

B) e.ə. IX

C) e.ə. XIV

D) e.ə. XI

**11. Mətnin ilk 3 abzası əsasında dialoq qurun və durğu işarələrini düzgün istifadə edin.**

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**12. "Elmi tədqiqatlar nəticəsində sübuta yetirilmişdir ki, muğamın yaranma tarixi çox qədimlərə gedib çıxır, e.ə. XII minillikdən də əvvəllərə" cümləsini M, – "V", – m. sxeminə uyğun yazmağa çalışın. Bu, mümkün oldumu?**

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**13. Vasitəsiz nitqin müxtəlif formalarına aid cümlələr yazın.**

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**14. "İmam Əli demişdir Hər bir kəs öz dilinin altında gizlənib" cümləsində buraxılmış durğu işarələrini bərpa edin.**

**15. H.Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" ifadəsini vasitəli nitq şəklində yazın.**

______________________________________________________________________

______________________________________________________________________

# ÜMUMİLƏŞDİRİCİ TƏKRARLARA NÜMUNƏLƏR

**№1**

Hər iki dünyada xoşbəxt olmaq istəyirsənsə, özünü anla. Oxuyub alim olmağa çalış ki, bilən ilə bilməyən bir deyildir. Tənbəl olma ki, bu bədbəxtlik əlamətidir. Dost və düşmənə gülər üz göstər və yaxşılıq et. *Danışıq arasında* kimsəni utandırma. Yaxşı sözləri, mənfəətli *danışıqları* eşitməyə rəğbət et. Gözəl kitab və məcmuələr oxumağa adət et. Əvvəl fikirləş, sonra danış. Fəqirlərə kömək et, sözündə, işində, gedişində doğru ol. Xalqın könlünü xoş tutmağa çalış. Sənin yaxşılığını istəyənləri tanıyıb, onların gözəl nəsihətlərinə əməl et. Bacarmadığın bir şey üçün "bacarıram" deyib vəd vermə. Bir işə başlamazdan əvvəl onun axırını fikirləş. Axırı fəna olacaq bir işi başlama. Uşaqlıqdan oxumağa və öyrənməyə həvəs göstər. Çünki uşaqlıqda öyrəndiyin şeylər həmişə yadında qalacaqdır. Bu gün görə biləcəyin işi sabaha qoyma. Bir işə çətin deyib ondan qorxma, çünki işin çətin tərəfi yalnız başlamaqdır. Başlanılan iş çox asanlıqla tamamlanır.

1. **Loğmanın oğluna verdiyi nəsihətlərə münasibətinizi 2-3 cümlə ilə bildirin.**

______________________________________________

______________________________________________

______________________________________________

2. **Loğmanın hansı nəsihəti daha çox xoşunuza gəldi? Fikrinizi əsaslandırın.**

______________________________________________

______________________________________________

______________________________________________

3. **"Yüz ölç, bir biç" atalar sözü loğmanın hansı nəsihəti ilə eynilik təşkil edir?**

______________________________________________

4. **Mətndə işlənən ismi birləşmələri müəyyənləşdirib altından xətt çəkin.**

**5. Mətnin birinci və sonuncu cümlələrindəki sintaktik əlaqələri müəyyənləşdirin.**

______________________________________________

**6. "Görkəmli dramaturq Cəfər Cabbarlı Şekspirin "Hamlet" əsərini Azərbaycan dilinə tərcümə etmişdir" cümləsini heç bir söz əlavə etmədən ismi xəbərli cümlə şəklində yazın.**

______________________________________________

______________________________________________

**7. "Kamran titrək əlləri ilə rəngi solub bozarmış həyət qapısını açdı" cümləsində asılı tərəfləri göstərin.**

______________________________________________

______________________________________________

**8. Xəbərlə idarə, təyinlə yanaşma əlaqəsində olan cümlə üzvü hansıdır?**

A) mübtəda B) feili xəbər C) yer zərfliyi D) heç biri

**9. Mətndə məqsəd və intonasiyaya görə cümlənin hansı növündən daha çox istifadə olunmuşdur? Niyə?**

______________________________________________

______________________________________________

**10. İlk üç cümlədə antonim cütlükləri seçib yazın.**

______________________________________________

______________________________________________

**11. Mətndə fərqləndirilmiş sözlərin düzgün tələffüzünü yazın.**

______________________________________________

______________________________________________

**12. *Əvvəl* və *sonra* sözlərini cümlələrdə elə işlədin ki, yalnız qrammatik məna ifadə etsin.**

______________________________________________

Həm leksik, həm də qrammatik məna ifadə etsin.

______________________________________________

## №2

Bu yerləri, bu göyləri
Yağış yuyur, gün qurudur.
Bu dünyada çox şeyləri
Yağış yuyur, gün qurudur.

Gözümüzün yaşını da,
Bağrımızın başını da,
Qəbrimizin daşını da
Yağış yuyur, gün qurudur.

Gələn nədir, gedən nədir?
Bələk nədir, kəfən nədir?
Bu dünya öz kefindədir,
Yağış yuyur, gün qurudur.

**1. Şeirin məzmununu 3-4 cümlə ilə ifadə edin.**

________________________________________

________________________________________

________________________________________

**2. Şeirdə omonimi olan sözləri müəyyənləşdirin və cümlələrdə müxtəlif mənalarda işlədin.**

________________________________________

________________________________________

________________________________________

**3. Şeirin hansı misralarını ayrı-ayrı cümlələr kimi işlətmək olar? Fikrinizi əsaslandırın.**

________________________________________

________________________________________

________________________________________

**4.** ***Göz*** **sözünü həqiqi və məcazi mənada işlətməklə söz birləşmələri yaradın, onların iştirakı ilə cümlələr qurun.**

Nümunə:

**göz**

| həqiqi məna | məcazi məna |
|---|---|
| 1. .................... | 1. .................... |
| 2. .................... | 2. .................... |
| 3. .................... | 3. .................... |

______________________________________________

______________________________________________

______________________________________________

**5. Şeirdə neçə tabesiz mürəkkəb cümlə var?**

______________________________________________

**6. Hansı bağlayıcılar tabesiz mürəkkəb cümlənin tərəflərini bir-birinə bağlaya bilmir:**

1) və 2) ilə 3) da (də) 4) çünki 5) isə 6) fəqət 7) əgər

A) 1, 3, 5 B) 2, 5, 7 C) 2, 4, 7 D) 2, 4, 6

**7. Sxemlərə uyğun cümlələr yazın və durğu işarələrini bərpa edin.**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| sadə cümlə | + | və | + | sadə cümlə | = | mürəkkəb cümlə |
| sadə cümlə | + | ancaq | + | sadə cümlə | = | mürəkkəb cümlə |
| sadə cümlə | + | yəni | + | sadə cümlə | = | mürəkkəb cümlə |

**8. Tərkibində tabesiz mürəkkəb cümlələr işlətmək şərtilə “Mənim bu günüm” adlı esse yazın.**

## №3

**1. Tabeli mürəkkəb cümlələrə aid 5 cümlə yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**2. Verilmiş tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirib yazın.**

✓ İnanırıq ki, bayrağımız tezliklə Şuşada dalğalanacaq.

✓ Hərçənd ki qışın ortaları idi, amma qardan əsər-əlamət yox idi.

✓ Cavid çox sevinirdi, çünki uzun ayrılıqdan sonra doğma şəhərinə dönmüşdü.

✓ Hamıya məlumdur ki, Azərbaycan qədim insanların ilk məskənlərindən biridir.

✓ Arzum budur ki, bütün körpələr sağlam və xoşbəxt böyüsün.

✓ Elə gözəllər var bunlar içində,
Ələ düşməz hərgah Çinü-Maçində. (*M.P.Vaqif*)

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**3. Hansı bağlayıcılar tabeli mürəkkəb cümlələri bir-birinə bağlayır:**

a) əgər, madam b) ki, çünki c) ilə, və d) əgər, ilə

I. a; b; II. b; c; III. c; d; IV. b; d; V. a; d

**4. Sxemlərə uyğun cümlələr yazın və durğu işarələrini bərpa edin.**

| | |
|---|---|
| □ + çünki + ○ | hərçənd + ? + ? |
| ○ + ki + □ | əgər + ? + ? |
| □ + ki + ○ | |

**5. Fikirlərdən biri səhvdir.**

A) Baş cümlə budaq cümlədəki hər hansı bir üzvü izah edir.

B) -sa$^2$ şəkilçisi və -mı$^4$ ədatı da tabeli mürəkkəb cümlənin tərəflərini bir-birinə bağlaya bilir.

C) Tabeli mürəkkəb cümlələrin tərkib hissələri arasında, əsasən, tabelilik bağlayıcılarından istifadə olunur.

D) Tabeli mürəkkəb cümlələrin tərəfləri yalnız bağlayıcılar vasitəsilə bağlanır.

**6. Cümlələrin sxemlərini qurun.**

Sevdanın uğuru hamını sevindirdi, çünki o, ailələrində ilk həkim olacaqdı. Təranə elə qızdır ki, heç kim indiyədək ondan inciməyib. Lalə evə onda çatdı ki, artıq məclisin sonu idi. Harada birlik var, orada dirilik var. Fidan elə sevinirdi ki, sanki dünyanı ona bağışlamışdılar.

**7. Baş cümlələri müəyyənləşdirin və durğu işarələrini bərpa edin.**

✓ İgid odur atdan düşə atlana (Atalar sözü).

✓ Hamımız inanırıq ki qələbə tezliklə bizim olacaq.

✓ Kim qorumur öz yurdunu yuvasını
Udmasın yurd havasını (*X.R.Ulutürk*).

✓ Rauf nə dedisə, Sevda qızarıb başını aşağı dikdi.

**8. Uyğunluğu müəyyənləşdirib durğu işarələrini bərpa edin.**

| | |
|---|---|
| Kəndə o vaxt çatdıq ki | Azad təhsilini davam etdirməlidir |
| Mən çox dedim ki | çünki lazımi qədər texnikamız var |
| Əlavə qüvvəyə ehtiyac yoxdur | ondan incimirəm |
| Məni çox danlasa da | artıq bütün camaat yatmışdı |

## №4

Dünya nemətlərinə ______ məşhur yunan filosofu Diogen bir gün çox dar bir küçədə sərvətindən başqa heç bir şeyi olmayan təkəbbürlü bir adamla qarşılaşır. Küçə o gədər dar idi ki, ikisindən biri kənara çəkilib ______, keçmək mümkün olmayacaqdı. Məğrur zəngin xor baxdığı filosofa mən bir sərsərinin qabağından çəkilmərəm deyir. Diogen kənara cəkilərək cavab verir mən isə çəkilərəm.

**1. Rəngli xanaların yerində hansı ifadələr yazıla bilər?**

A) 1. baş verməyən 2. yol çəkməsəydi

B) 1. əhəmiyyət verməyən 2. yol verməsəydi

C) 1. əziyyət verməyən 2. yol kəsməsəydi

D) 1. məhəl verməyən 2. yol göstərsəydi

E) 1. əhəmiyyət verən 2. yol versəydi

**2. Mətndən aşağıdakı nəticəyə gəlmək olar:**

A) Diogen özünü çox ağıllı hesab edirdi.

B) Filosof zəngin və təkəbbürlü bu şəxsə cavab verməkdə çətinlik çəkir.

C) Diogen qarşısındakı şəxsi sərsəri hesab edir.

D) Diogen zəngin şəxsdən çəkindiyi üçün yoldan çəkilir.

E) Diogen təkəbbürlü biri ilə dar körpünün üstündə qarşılaşır.

**3. Sözlərin leksik mənalarını yazın.**

Lüğət:

Nemət –

Sərvət –

Təkəbbürlü –

Məğrur –

Xor baxmaq –

Sərsəri –

**4. Mətndə vasitəsiz nitqi müəyyənləşdirib durğu işarələrini bərpa edin. Orfoqrafik cəhətdən səhv yazılmış sözləri düzgün yazın.**

**5. Vasitəsiz nitqin hansı formasında vasitəsiz nitqlə müəllifin sözləri növbələşir?**

a) M: “V, – m, – V”.  b) “V”, – m.  c) “V, – m, – V”.
d) M: “V”, – m.  e) M: “V”.

**6. Müəllim Aynura bir də gecikmə keç otur dedi – cümləsində hansı durğu işarələri buraxılmışdır? Durğu işarələrini bərpa edin.**

**7. Vasitəsiz nitq müəllifin sözləri arasında gələrsə, hansı sxemə uyğun olar? Fikrinizi nümunələrlə əsaslandırın.**

a) “V”, – m, – “V”.  b) “V”, – m.  c) M: “V?”  d) M: “V”, – m.

________________________________________

________________________________________

________________________________________

________________________________________

**8. Vasitəsiz nitq tabeli mürəkkəb cümlənin hansı tərəfi olur? Fikirlərinizi əsaslandırın.**

## AZƏRBAYCAN DİLİNİN ORFOQRAFİYA NORMALARI

### 1. Azərbaycan mənşəli sözlərin yazılışı

1.1. Azərbaycan dilinin lüğət tərkibindəki Azərbaycan mənşəli sözlər, əsasən, tələffüz edildiyi kimi yazılır: *addım, dəniz, gəlin, günəş, qoşun, oğul, qaranquş* və s.

1.2. Son səsi **[x]**, bəzən də **[ğ]** kimi tələffüz olunan Azərbaycan mənşəli sözlər **q** hərfi ilə yazılır: *ayaq, barmaq, bulaq, dayanacaq, qatıq, qonaq, qorxaq* və s. Bu qəbildən olan sözlərə saitlə başlanan şəkilçi qoşulduqda **q~ğ** əvəzlənməsi baş verir: *otağa, bulağın, qonağımız* və s.

1.3. Son səsi **[x']** kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər **k** hərfi ilə yazılır: *bilək, birlik, külək, ürək, üzərlik, üzük* və s. Bu qəbildən olan sözlərə saitlə başlanan şəkilçi qoşulduqda **k~y** əvəzlənməsi baş verir: *biləyi, birliyimiz, ürəyim, üzüyün* və s.

1.4. **Qeyd.** Son səsi **[k]** kimi tələffüz olunan alınma sözlərə saitlə başlanan şəkilçi qoşulduqda heç bir dəyişiklik baş vermir: *əmlak – əmlaka, iştirak – iştirakımız, şərik – şəriki* və s.

1.5. Son səsi **[t]**, bəzən də **[d]** kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər **d** hərfi ilə yazılır: *bulud, palıd, söyüd* və s.

1.6. Son səsi **[ç]**, bəzən də **[c]** kimi tələffüz olunan sözlər **c** hərfi ilə yazılır: *qılınc, ülgüc, kərpic* və s.

### 2. Alınma sözlərdə saitlərin yazılışı

2.1. Tərkibində **o** hərfi olan alınma sözlər **[a]** və ya **[o]** ilə tələffüz edilməsindən asılı olmayaraq, **o** ilə yazılır: *avt**o**mat, k**o**llec, k**o**llektiv, lab**o**rant, M**o**skva, m**o**tor, **o**byekt, **O**dessa, p**o**ema, p**o**eziya, pr**o**blem, pr**o**fessor, s**o**list, vel**o**siped* və s.

2.2. İkinci hecasındakı saiti **[i]**, bəzən də **[ü]** kimi tələffüz olunan ərəb mənşəli sözlər tarixi-ənənəvi prinsipə əsasən ***i*** ilə yazılır: *külli, müdir, müdrik, müflis, müxbir, müxlis, münbit, münsif, mürid, mürşid, müsibət* və s.

**Qeyd.** *Mühüm, müşkül* və *üfüq* sözlərindəki ikinci heca ***ü*** hərfi ilə yazılır.

2.3. Mənbə dildə **[u]** saitli alınma sözlər **ü** hərfi ilə yazılır: *b**ü**lleten, b**ü**ro, j**ü**ri, karb**ü**rator, komp**ü**ter, paraş**ü**t, s**ü**jet, şl**ü**z* və s.

2.4. Mənbə dildə **a** hərfi ilə bitən alınma sözlər iki cür yazılır:

2.4.1. *aksiom, anket, aptek, atmosfer, diaqram, diaspor, fabrik, fonem, kaset, kayut, konfet, kontor, qəzet, qrafem, qravür, leksem, lent, maşın, perspektiv, planet, proqram, pyes, reklam, rezin, sistem, sistern, sitat, teorem, vitrin* və s. kimi sözlərin sonunda **a** hərfi yazılmır;

Mənbə dildə tərkibində qoşa **b, p, n** və **m** samitləri olan aşağıdakı sözlərin sonunda **a** ilə yanaşı, qoşa samitlərdən biri də atılır: *abreviatur, qrup, ton, diaqram, stenoqram* və s.

2.4.2. *botanika, doktrina, forma, kamera, qrammatika, norma, poetika, poeziya, respublika, taktika* və s. kimi sözlərin sonunda **a** yazılır.

2.5. Mənbə dildə birhecalı sözlər iki cür yazılır:

2.5.1. iki saitlə yazılanlar: *cisim, eyib, ətir, feil, fəsil, fikir, heyif, isim, izin, qəbir, qədir, qisim, meyil, nəsil, ömür, səbir, sətir, sinif, şeir, şəkil, zehin* və s.;

2.5.2. bir saitlə yazılanlar: *cəbr, əmr, həbs, həsr, hökm, hüsn, hüzn, kəsr, qəbz, qəhr, qəsr, nəbz, nəfs, nəsr, sehr, sədr, üzr, üzv, zülm* və s.

### 3. **Alınma sözlərdə samitlərin yazılışı**

3.1. Rus dilində tərkibində **ц** hərfi olan alınma sözlərin yazılışında aşağıdakı qaydalar əsas götürülür:

3.1.1. ümumi isimlər **s** hərfi ilə yazılır: *aseton, dosent, konsert, lisey, kulminasiya, aksiya, sement, sirk* və s.;

**Qeyd.** *Metso, vitse* morfemləri və *blits, ratsiya* və s. sözlər istisnadır.

3.1.2. xüsusi isimlərdə sözün əvvəlində **s** *(Setkin, Siolkovski* və s.), sözün ortasında və axırında isə **ts** *(Motsart, Muromets, Vorontsov* və s.) yazılır.

3.2. Rus dilində tərkibində **щ** hərfi olan alınma sözlərin yazılışında aşağıdakı qaydalar əsas götürülür:

3.2.1. sözün əvvəlində və sonunda işlənən **щ** hərfi əvəzinə **ş** yazılır: *Şedrin, Şerba, Şors, borş* və s.;

3.2.2. ortasında **щ** hərfi olan sözlər qoşa **ş** ilə yazılır: *meşşan, Vereşşagin* və s.

3.3. **H** samiti ilə başlanan alınma sözlər **h** ilə yazılır: *Haaqa, Hamburq, harmoniya, Havana, Hegel, hektar, Heyne, hidrogen, hippodrom, hospital, humanizm* və s.

3.4. Birinci və ikinci hecasındakı samiti həm **[m],** həm də **[n]** kimi tələffüz olunan alınma sözlər **n** ilə yazılır: *anbar, günbəz, İstanbul, qənbər, sünbül, şənbə, tənbəl, zanbaq, zənbil* və s.

3.5. **-iy, -skiy** ilə bitən xüsusi isimlərin sonundakı **y** yazılmır: *Qordlevski, Qorki, Mayakovski, Yaroslavski* və s.

3.6. Kimyəvi element adları əslinə uyğun olaraq yazılır: *kalium, maqnezium, natrium* və s.

3.7. Əsli **[c]** samitli alınma sözlər **c** ilə də yazılır: *Cek London, cemper, Siciliya* və s.

3.8. Əsli **[q]** samitli alınma sözlər incə saitli hecalarda **g** ilə yazılır: *biologiya, dialektologiya, general, genezis, geologiya, gigiyena, etimologiya, gitara* və s.

3.9. Əsli **w** samitli alınma sözlər **v** hərfi ilə yazılır: *veb-sayt, Vilyam, vörd* və s.

3.10. Son səsi **[k']** kimi tələffüz olunan bir qrup alınma sözlər **q** hərfi ilə yazılır: *filoloq, ittifaq, müstəntiq, natiq, şəfəq, üfüq, vərəq* və s. Bu qəbildən olan sözlərin sonuna saitlə başlanan şəkilçi qoşulduqda, yazıda heç bir dəyişiklik baş vermir: *filoloqa, şəfəqi, üfüqə* və s.

### 4. **Qoşasaitli və qoşasamitli sözlərin yazılışı**

4.1. Kökündə eynicinsli qoşa və müxtəlifcinsli sait işlənən alınma sözlər qoşa saitlə yazılır: *ailə, bədii, camaat, əcaib, əmtəə, ideal, maaş, müalicə, okean, saat, stadion, zəif* və s.

4.2. Hecalarından biri **[p]** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[b]** kimi tələffüz olunan sözlər qoşa **p** ilə yazılır: *guppultu, hoppanmaq, şappıltı, tappıltı, toppuz* və s.

4.3. Hecalarından biri **[k]** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[g]** kimi tələffüz olunan sözlər qoşa **k** ilə yazılır: *mürəkkəb, mütəkkə, səkkiz* və s.

4.4. Hecalarından biri **[t]** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[d]** kimi tələffüz olunan sözlər qoşa **t** ilə yazılır: *əlbəttə, hətta, Səttar* və s.

4.5. Hecalarından biri **[k']** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[q]** kimi tələffüz olunan sözlər qoşa **q** ilə yazılır: *diqqət, doqquz, nəqqaş, saqqal* və s.

4.6. Mənbə dildə tərkibində **qq, ll, mm, pp, tt** samitləri olan Avropa mənşəli aşağıdakı alınma sözlər bir samitlə yazılır: *aqlütinativ, paralel, teleqram, aparat, apelyasiya, vat* və s.

4.7. Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır: *fənn, haqq, hiss, xətt, küll, rədd, sirr, zənn, zidd* və s.

Belə sözlərə samitlə başlanan şəkilçi artırıldıqda, qoşa samitlərdən biri düşür: *fənn – fənlər, haqq – haqsız, xətt – xətdən, sirr – sirlər* və s.

**Qeyd.** *Hiss* və *küll* sözləri istisnadır. *Hiss* sözünə yalnız **-siz** şəkilçisi artırıldıqda, kökdəki **s** samitlərindən biri ixtisar olunur.

4.8. Mənbə dildə qoşa samitlə bitən iki və ya çoxhecalı sözlər bir samitlə yazılır: *hüsnxət, kilovat, mühüm, rəsmxət* və s.

4.9. Söz ortasında qoşa **s** samiti olan aşağıdakı alınma sözlər bir **s** ilə yazılır: *aksesuar, kaset, masaj, pasaj, şose.*

4.10. Söz sonunda qoşa **s** samitli aşağıdakı alınma sözlər bir **s** ilə yazılır: *ekspres, konqres, kros, bras, stres.*

**Qeyd.** *Press (mətbuat)* sözü istisnadır.

## 5. Şəkilçilərin yazılışı

5.1. Tərkibində **a-, anti-, ba-, bi-, na-, pre-** ön şəkilçiləri olan sözlər bitişik yazılır: *anormal, antivirus, baməzə, bisavad, nalayiq, prepozisiya* və s.

**Qeyd. Anti** şəkilçisindən sonra xüsusi isim gəldikdə, defis işarəsi qoyulur: *Anti-Azərbaycan, Anti-Rusiya* və s.

5.2. Sözdüzəldici şəkilçilər aşağıdakı üç qaydaya əsasən yazılır:

5.2.1. ahəng qanununa tabe olmayan və **bir cür** yazılan şəkilçilər:

**-i** şəkilçisi: samitlə bitən sözlərdə **-i;** *cənubi, daxili, elmi, həyati, Naxçıvani, şimali, Şirvani, tarixi* və s.*;* saitlə bitən sözlərdə isə şəkilçinin əvvəlinə **v** samiti artırılır: *ailəvi, dairəvi, Gəncəvi, kütləvi* və s.;

**-vari** şəkilçisi: *buynuzvari, qalxanvari, üzükvari, yüngülvari* və s.;

**-keş** şəkilçisi: *qayğıkeş, zəhmətkeş, cəfakeş;*

**-daş** şəkilçisi: *yoldaş, əməkdaş, yurddaş, soydaş;*

**-stan** şəkilçisi: samitlə bitən sözlərdə şəkilçinin əvvəlinə ahəng qanununa uyğun olaraq **ı, i, u, ü** saitlərindən biri artırılır: *Dağıstan, Türkmənistan, Monqolustan, Türküstan;* saitlə bitən sözlərdə isə şəkilçi olduğu kimi qalır: *Gürcüstan;*

**-gil** şəkilçisi: *bacımgil, xalamgil, Əhmədgil* və s.;

**-zadə** şəkilçisi: *xanzadə, bəyzadə, Axundzadə* və s.;

5.2.2. **iki cür** yazılan şəkilçilər:

kar samitlə bitən sözlərdə: **-qan, -kən;** cingiltili samitlə bitən sözlərdə **-ğan, -gən** şəkilçisi: *çalışqan, yapışqan, döyüşkən, sürüşkən, deyingən* və s.*;*

**-ağan, -əyən** şəkilçisi: *qaçağan, güləyən, küsəyən* və s.;

5.2.3. **dörd cür** yazılan şəkilçilər:

**-kı, -ki, -ku, -kü** şəkilçisi: *axşamkı, bildirki, səhərki, gündüzkü* və s.;

sifət və isim düzəldən **-ı, -i, -u, -ü** şəkilçisi: *darçını, badımcanı, narıncı, çərkəzi, armudu, gümüşü* və s.;

saitlə bitən sözlərdə bu şəkilçinin əvvəlinə **y** samiti artırılır: *bənövşəyi, buğdayı, xurmayı, sürməyi* və s.

5.3. Feil köklərindən isim və sifət düzəldən şəkilçilər:

5.3.1. kar samitlə bitən sözlərdə:

**-qı, -ki, -qu, -kü** şəkilçisi: *asqı, seçki, pusqu, sürtkü* və s.;

**-qın, -kin, -qun, -kün** şəkilçisi: *satqın, bitkin, tutqun, ötkün* və s.;

5.3.2. cingiltili samitlə bitən sözlərdə:

**-ğı, -gi, -ğu -gü** şəkilçisi: *çalğı, vergi, vurğu, bölgü* və s.;

**-ğın, -gin, -ğun, -gün** şəkilçisi: *qırğın, əzgin, yorğun, süzgün* və s.

5.4. Rəqəmlə yazılan miqdar saylarına mənsubiyyət və hal şəkilçiləri əlavə edildikdə, şəkilçidən əvvəl defis qoyulur: *2-yə, 3-də, 5-i, 6-nın, 17-si, 20-dən.* Rəqəmlərdən sonra ahəng qanununa görə sıra sayının şəkilçisi ixtisarla **(-cı, -ci, -cu, -cü**) yazılır: *2-ci, 3-cü, 6-cı, 10-cu.*

5.5. Roma rəqəmlərindən sonra şəkilçi yazılmır: *beşinci – V, onuncu – X* və s.

## 6. **Mürəkkəb sözlərin yazılışı**

6.1. Aşağıdakı hallarda sözlər bitişik yazılır:

6.1.1. bir vurğu ilə deyilən müxtəlifmənalı sözlər: *arabir, balacaboy, beşillik, beşmərtəbəli, bugünkü, dilucu, əmioğlu, bacıoğlu, xalaoğlu, gülərüz, günəbaxan, hərgecəki, köhnəfikirli, qalxanabənzər, qanunvericilik, qarasaçlı, qurultayqabağı, müxtəliftərəfli, özbaşınalıq, soyuqqanlı, ucdantutma, ümumbəşəri, yenifikirli* və s.;

6.1.2. eyni feil kökünün təkrarı və **a, ə, ha** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb isimlər: *qaçaqaç, kəsəkəs, gəlhagəl, tutatut, vurhavur* və s.;

**Qeyd.** Sözün kökü kar samitlə bitdikdə, ahəng qanununa görə **a, ə,** cingiltili samitlə bitdikdə isə **ha** bitişdiricisi yazılır. *Gethaget* sözü istisnadır.

6.1.3. eyni sözün təkrarı və ***ba, bə*** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb zərflər: *addımbaaddım, aybaay, günbəgün, ilbəil* və s.

6.2. Tərkibində ***aero-, aqro-, audio-, avia-, avto-, ekzo-, endo-, elektro-, foto-, makro-, mikro-, mini-, mono-, multi-, nano-, neo-, oksi-, oliqo-, paleo-, para-, post-, proto-, psevdo-, psixo-, stereo-, super-, tele-, termo-, trans-, ultra-, ümum-*** morfemləri olan mürəkkəb sözlər bitişik yazılır: *aeroklub, aqromüxtəliflik, audioəlaqə, aviasalon, avtopark, endoplazma, mikrocərrahiyyə, elektromaqnit, fotoçəkiliş, miniavtobus, monopredikativ, monokristal, multimilyonçu, nanotexnologiya, nanohissəcik, neofaşizm, neorealizm, oksitetrasiklin, oliqofreniya, paleoxəritə, paramaqnetizm, postsovet, psixonevroloji, postmodernizm, prototürk, stereotəsvir, superdövlət, supermarket, teletamaşa, termoaçar, transmilli, ultrasəs, ümumbəşəri* və s.

**Qeyd.** Bu morfemlərin bəziləri xüsusi isimlərə qoşulduqda defislə yazılır: *trans-Asiya, trans-Avropa, trans-Avrasiya, trans-Qafqaz, paleo-Azərbaycan, proto-Azərbaycan, ümum-Azərbaycan, ümum-Avropa* və s.

6.3. Tərkibindəki sözlərin səciyyəsindən asılı olaraq aşağıdakı mürəkkəb sözlər defislə yazılır:

6.3.1. qoşa sözlər: *adda-budda, aşıq-aşıq, az-maz, dedi-qodu, əzik-üzük, hələm-qələm, kağız-kuğuz, qara-qura, qonaq-qara, sür- sümük* və s.;

6.3.2. tərkibində **art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse-** morfemləri olan mürəkkəb sözlər: *art-obyekt, eks- prezident, əks-səda, kontr-admiral, qeyri-adi, qeyri-iradi, ober- leytenant, veb-dizayner, veb-səhifə, vitse-admiral;*

6.3.3. izafət birləşmələri: *həddi-büluğ, külli-aləm, külli-ixtiyar, nöqteyi-nəzər, tərcümeyi-hal, tərzi-hərəkət* və s.;

6.3.4. mürəkkəb coğrafi sözlər: *cənub-qərb, şərq-qərb, şimal-şərq* və s.;

6.3.5. tərkibində mənaca bir-birinə yaxın və ya əks anlayışları bildirən sözlər: *ab-hava, adlı-sanlı, ağıllı-kamallı, az-çox, baş-ayaq, dərə-təpə, dinməz-söyləməz, elə-belə, gec-tez, iki-üç, naz-qəmzə, nəvə-nəticə, ölüm-itim, pis-yaxşı, söz-söhbət, təhvil-təslim, ucsuz- bucaqsız* və s.;

6.3.6. ölçü vahidlərini bildirən isimlər: *kiloelektron-volt, kilovat- saat, qram-kalori* və s.;

6.3.7. birinci tərəfi sifətin dərəcə əlaməti kimi işlənən **açıq** və **tünd** sözlərinin, eləcə də müəyyən məna çaları bildirən **ala** sözünün iştirakı ilə yaranan mürəkkəb sifətlər: *açıq-sarı, tünd-göy, ala-seyrək* və s.

**Qeyd.** Tərkibində **təhər** morfemi olan sifətlər istisnadır: bu cür sözlər bitişik yazılır: *göytəhər, sarıtəhər* və s.

## 7. Köməkçi sözlərin yazılışı

7.1. **İdi, imiş, ikən** köməkçi sözləri adlardan (isim, sifət, say, əvəzlik), saitlə bitən zərflərdən və feillərdən sonra ayrı, samitlə bitən feillərdən sonra həm ayrı, həm də ilk saiti buraxılaraq, şəkilçiləşmiş variantlarda bitişik yazılır: *uşaq idi, uşaq ikən, uşaq imiş, gəlirkən, gəlirmiş, gəlməli idi, gəlməli ikən, gecə idi, gecə ikən, gəlməli imiş, gəlmiş imiş, gəlmişdi* və s.

**Qeyd.** Saitlə bitən feillərdən sonra gələn bu köməkçi sözlər ilk saiti buraxılaraq, **y** bitişdiricisinin əlavəsi ilə bitişik də yazıla bilər: *almalıydı, gəlməliymiş, alaydı, alasıydı, gəlməliydi* və s.

7.2. Qoşmalar iki cür yazılır:

7.2.1. təkhecalı qoşmalar **(-can, -cən, -dək, -tək)** aid olduqları sözə bitişik yazılır: *dağacan, evəcən, küçəyədək, quştək* və s.;

7.2.2. ikihecalı qoşmalar **(ilə, kimi, qədər, ötrü, təki, üçün)** aid olduqları sözdən ayrı yazılır: *gəmi ilə, adam kimi, ondan ötrü, sənin təki, şagird üçün* və s.

**Qeyd.** 1. **İlə** qoşması samitlə bitən sözlərdə ahəng qanununa uyğun olaraq **-la, -lə** şəklində bitişik yazıla bilər: *qatar**la**, qələm**lə*** və s.

2. *Etibarilə, məqsədilə, münasibətilə, vasitəsilə* sözləri bitişik yazılır.

7.3. Mənşəcə mürəkkəb olan bağlayıcılar bitişik yazılır: *çünki, habelə, halbuki, həmçinin, hərçənd, hərgah, nəinki, yaxud, yainki* və s.

7.4. Tərkibi bağlayıcılar və bağlayıcı sözlər ayrı yazılır: *belə ki, buna görə, buna görə də, bunun üçün, bununla da, daha da, guya ki, həm də, odur ki, ona görə də, ona görə, onun üçün də, tutaq ki, və ya, və yaxud, kim ki, o zaman ki, onda ki* və s.

7.5. Ədatlar aid olduqları sözlərdən ayrı yazılır: *daha gözəl, dedim də, di get, ən yaxşı, gör ha, lap pis, sən ki* və s.

**-mı, -mi, -mu, -mü; -sana, -sənə, -ca, -cə** ədatları aid olduqları sözlərə bitişik yazılır: *Qəşəngdir**mi**? Oxudu**mu**? A kos- kosa, gəl**sənə**, torbanı doldur**sana**! Yaxşı**ca** dincəldim. İndi**cə** gəlmişik* və s.

7.6. Eyni nidanın təkrarından əmələ gələn nidalar defislə yazılır: *bəh-bəh, ha-ha-ha, pəh-pəh, uy-uy, vay-vay* və s.

7.7. Müxtəlif sözlərdən əmələ gələn nidalar ayrı yazılır: *ay aman, ay haray.*

## 8. Birinci hərfi böyük yazılan sözlər

8.1. Ad, soyad, təxəllüs və ləqəb bildirən sözlərin (*bəy, oğlu* və *qızı* sözlərindən başqa) birinci hərfi böyük yazılır: *Nizami Gəncəvi, İmadəddin Nəsimi, Uzun Həsən, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Xan qızı Natəvan, Süleyman Sani Axundov, Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli, Mehdi Hüseynzadə, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə* və s.

**Qeyd.** Xüsusi isimlər cəm şəkilçisi qəbul etdikdə də böyük hərflə yazılır: *Nizamilər, Füzulilər, Hacı Qaralar, Həzi Aslanovlar, Mehdi Hüseynzadələr* və s.

8.2. Bədii əsərlərdə heyvanlara və cansız əşyalara verilən adlar böyük hərflə yazılır: *Alapaça, Badə, Bəng, Bozdar, Qırat, Məstan* və s.

8.3. Tarixi hadisələrin, dövrlərin, sülalələrin, eləcə də qədim yazılı abidələrin və s. adlarının birinci sözünün ilk hərfi böyük yazılır: *Azadlıq meydanı, Çaldıran döyüşü, Dəmir dövrü, Orxon-Yenisey abidələri, Sasanilər dövrü, Səfəvilər sülaləsi, Şuşa qalası, Versal sülhü, Vətən müharibəsi, Yeddiillik müharibə* və s. Belə mürəkkəb adlara fərqləndirici söz əlavə olunduqda, onun da birinci hərfi böyük yazılır: *Orta Paleolit dövrü, Son Paleolit dövrü.*

8.4. Ölkələrin, muxtar respublikaların, vilayət və diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin ilk hərfi böyük yazılır: *Azərbaycan Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İran İslam Respublikası, Naxçıvan Muxtar Respublikası* və s.

8.5. Səmavi kitabların, fəza cisimlərinin adları böyük hərflə yazılır: *Quran, Bibliya, Əhdi-cədid, Əhdi-ətiq, İncil, Tövrat, Zəbur, Ülkər, Günəş, Ay, Yupiter, Saturn, Venera* və s.

8.6. Yüksək dövlət vəzifələri *(Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan Respublikası Milli Məclisinin Sədri),* nazirlik, komitə, birlik, cəmiyyət, qurum, akademiya, universitet, texnikum, teatr, filarmoniya, siyasi partiya, eləcə də tarixi günlərin və s. mürəkkəb adların tərkibindəki bütün sözlərin *(adına, üzrə, yanında, qarşı* kimi yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: *Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər*

*Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Yeni Azərbaycan Partiyası, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı Şəhər İcra Hakimiyyəti, Ağstafa Rayon Təhsil Şöbəsi* və s.

**Qeyd.** 1. Tərkibində *gün* sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır: *Beynəlxalq Ana Dili Günü, Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü* və s.

2. Məşhur tarixi gün və bayram adlarında yalnız birinci sözün ilk hərfi böyük yazılır: *İyirmi yanvar, İyirmi səkkiz may, Səkkiz mart, Qurban bayramı, Novruz bayramı* və s. Həmin günlər rəqəmlə göstərilərsə, 20 Yanvar, 28 May, 8 Mart və s. rəqəmdən sonrakı birinci sözün ilk hərfi böyük yazılır.

3. *Azərbaycan Respublikasının Səhiyyə naziri, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri* tipli mürəkkəb adlarda sahə bildirən söz (*Səhiyyə*) böyük, vəzifə bildirən söz *(nazir)* kiçik hərflə yazılır.

4. Tərkibində *lisey, gimnaziya, vəqf, məktəb, fakültə, şöbə* sözləri olan mürəkkəb adlarda ilk söz böyük, sonrakı sözlər kiçik hərflə yazılır: *Avropa liseyi, Dəyanət vəqfi, Humanitar fənlər gimnaziyası, Humanitar siyasət məsələləri şöbəsi, Uşaq-gənclər şahmat məktəbi, BDU-nun Filologiya fakültəsi, Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsi* və s.

5. Tərkibində *okean, dəniz, çay, göl, şəhər, rayon, qəsəbə, kənd, prospekt, meydan, küçə, xiyaban, saray, qala, türbə, qoruq, boğaz, düz, ada, burun, körpü, düzənlik, dağ, səhra, dərə* sözləri olan adlarda ilk söz böyük hərflə yazılır: *Sakit okean, Xəzər dənizi, Qara dəniz, Kür çayı, Baykal gölü, Bakı şəhəri, Salyan rayonu, Şüvəlan qəsəbəsi, Hökməli kəndi, Neftçilər prospekti, Azadlıq meydanı, Əhməd Cavad küçəsi, Şəhidlər xiyabanı, Səadət sarayı, Ramana qalası, Möminə xatun türbəsi, Şirvan qoruğu, Dardanel boğazı, Mil düzü, Nargin adası, Xudafərin körpüsü, Culfa düzənliyi, Kəpəz dağı, Qaraqum səhrası, İynə burnu.*

8.7. Fəxri adların özək hissəsini təşkil edən ilk söz böyük hərflə, sonrakı sözlər kiçik hərflə yazılır: *Əməkdar müəllim, Əməkdar incəsənət xadimi, Xalq şairi* və s.

**Qeyd.** *Azərbaycanın Milli Qəhrəmanı, Sovet İttifaqı Qəhrəmanı* mürəkkəb adlarında hər üç söz böyük hərflə yazılır.

8.8. *Orden, medal, bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran* və s. adları dırnaqda və böyük hərflə yazılır: *"İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni, "Ata və oğul" povesti, "Yeddi gözəl" baleti, "Uzaq sahillərdə" filmi, "Azərbaycan" qəzeti, "Cücələrim" kafesi, "Bahar" mağazası, "Badamlı" mineral suyu* və s.

**Qeyd.** Dırnaqda yazılan belə adlara artırılan şəkilçi dırnaqdan kənarda yazılır: *"Xalq qəzeti"nin bugünkü nömrəsi, "Yeddi gözəl"in ilk tamaşası* və s.

8.9. *Mirzə, hacı, şeyx, seyid, şah, sultan, bəyim* və s. sözlər *rütbə, ləqəb* və *titul* bildirib, aid olduğu sözlərdən əvvəl gəldikdə böyük hərflə, sonra gəldikdə isə kiçik hərflə yazılır: *Hacı Qara, Mirzə Fətəli, Nadir şah, Seyid Əzim, Sultan Süleyman, Şah İsmayıl, Şeyx Nəsrullah* və s.

**Qeyd.** *Ağa, bəy, xan, xanım* sözləri insan adlarının tərkib hissəsi kimi işləndikdə bitişik yazılır: *Ağacavad, Ağabəy, Əlibəy, Xanoğlan, Böyükxanım* və s. Həmin sözlər adlara qoşularaq titul kimi və ya hörmət məqsədilə işləndikdə isə ayrı yazılır: *Abbasqulu ağa Bakıxanov, Nəcəf bəy Vəzirov, Fətəli xan Xoyski, Fatma xanım Kəminə* və s.

### 9. İxtisar və qısaltmalar

9.1. İxtisar və qısaltmalar aşağıdakı kimi yazılır:

9.1.1. tam ixtisarlar və qısaltmalar aid olduqları sözlərə uyğun olaraq böyük hərflə yazılır: *Azərbaycan Respublikası – AR, Birləşmiş Millətlər Təşkilatı – BMT, Milli Məclis – MM* və s.;

9.1.2. tam ixtisarlar ümumi isimlərə aid olduqda kiçik hərflə yazılır: *metr – m, cild – c, və sairə – və s., və başqaları – və b.;*

9.1.3. yarımçıq ixtisarlar aid olduqları sözlərə uyğun olaraq, böyük və kiçik hərflərlə, mürəkkəb adların tərkib hissələri isə bitişik yazılır: *akademik – akad., doktor – dok., dosent – dos., professor – prof., Azərbaycan Nəşriyyatı – Azərnəşr* və s.

9.2. İxtisarlara əlavə edilən şəkilçilər son səsin tələffüzünə uyğun olaraq yazılır: *AMEA-dan, MDB-nin, UNESKO-nun, İSESKO-da, BDU-ya* və s.

### 10. Sözün sətirdən sətrə keçirilməsi

10.1. Sözlər sətirdən sətrə hecalarla keçirilir: *və-tən, mək-təb-li-lər* və s.

10.2. Sözün bir saitdən ibarət olan hecasını sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz: *a-ilə, a-zadlıq, iddi-a* və s. Bu qəbildən olan sözlər sətirdən sətrə bu şəkildə keçirilir: *ai-lə, azad-lıq, id-dia* və s.

10.3. Saylar rəqəmlə yazıldıqda, onlara artırılan şəkilçilər sətirdən sətrə keçirilmir: *5-cilər, 7-ci, 9-da* və s.

10.4. Mürəkkəb ixtisarlar və onlara artırılan şəkilçilər sətirdən sətrə keçirilmir.

10.5. Ad və ata adlarının bir hərfdən ibarət qısaltmalarını *(M.F.Axundzadə, M.S.Ordubadi, Y.V.Çəmənzəminli* və s.) sətrin sonunda saxlamaq olmaz.

10.6. Durğu işarələri yeni sətrə keçirilmir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. A.Dadaşov. Təhsil siyasəti. Açıq Cəmiyyət İnstitutu Yardım fondu. Bakı, 2005.
2. A.Mehrabov, İ.Cavadov. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007.
3. Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. "Azərbaycan müəllimi" qəzeti, 6 fevral 2009.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003.
5. Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat Proqramı. Bakı, 1999.
6. Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin xəbərləri. 3-cü buraxılış. Bakı, "Adiloğlu" nəşriyyatı, 2001.
7. Bakı tarixinin ensiklopediyası – Sara Aşurbəyli – 110 il. Bakı, "Elm və təhsil", 2016.
8. 2009-cu il Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları. "Azərbaycan müəllimi" qəzeti, 11 sentyabr 2009 (layihə).
9. Ə.A.Ağayev. Təlim prosesi: ənənə və müasirlik. Bakı, "Adiloğlu" nəşriyyatı, 2006.
10. Ə.Abbasov."Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri". "Kurikulum" jurnalı, №1, 2008.
11. Ə.Ə.Əlizadə. İdrak prosesləri və hisslər. Bakı, ADPU, 2008.
12. Ə.Ə.Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Pedaqogika", 2004.
13. Ə.X.Paşayev, F.A.Rüstəmov. Pedaqogika. (Yeni kurs). Bakı, "Nurlan", 2007.
14. Ə.Qarabağlı. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, 1968.
15. F.Kərimova, M.C.Əhmədova və b. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı, "Adiloğlu", 2005.
16. X.Qədimova. İnteraktiv təlim metodları. Bakı, 2005.
17. İ.İskəndərov. Azərbaycan Respublikasının təhsil sistemində islahatlar: fəaliyyət, nəticələr. "Kurikulum" jurnalı, №1, 2008.
18. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün vəsait. Norveç qaçqınlar şurası, 2003.
19. İnteqrativ kurikulum. Münhen, Niderland, Cito, yanvar, 2006.
20. K.Quliyeva. İnteraktiv təlim ensiklopediyası. Bakı, 2010.
21. L.N.Qasımova. Pedaqogika. Mühazirə kursu. Bakı, 2003.

22. M.Əhmədova, M.Əliyev, M.Qasımlı və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Bakı, “Adiloğlu”, 2005.
23. N.Kazımov. Milli pedaqogika yollarında. Bakı, “Ağrıdağ”, 2001.
24. R.Rəxşanlı. Cənab doktor Xanlarov. Bakı, “Elm”, 2008.
25. S.Cavadova. Azərbaycan dili fənni üzrə təlim materiallarının təxmini planlaşdırılması. “Təhsil problemləri” qəzeti. 30 sentyabr 2015.
26. S.Yusifova. Ədəbiyyat dərslərində fəal təlim üsullarından istifadə imkanları. “Təhsil problemləri” qəzeti. 01–07, 14–21 iyun 2010.
27. S.Yusifova. Ədəbiyyat fənn kurikulumunun təkmilləşdirilməsi. Təhsilin müasir problemləri, 2010.
28. S.Yusifova. Gender Azərbaycan ədəbiyyatında. Bakı, “Min bir mahnı”, 2008.
29. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. “Azərbaycan müəllimi” qəzeti, 8 sentyabr 2009.
30. Ümumi Təhsil Pilləsinin Dövlət Standartı və Proqramları (Kurikulumları). 2010.
31. Ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün Azərbaycan dili proqramları. Bakı, 2015.
32. Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili dərslikləri.
33. Y.Kərimov. Seçilmiş əsərləri. Pedaqogika, I cild. Bakı, 2007.
34. Y.Kərimov. Seçilmiş əsərləri. Pedaqogika, II cild. Bakı, 2007.
35. Y.Kərimov. Seçilmiş əsərləri. Pedaqogika, III cild. Bakı, 2007.
36. Y.Kərimov. Seçilmiş əsərləri. Pedaqogika, IV cild. Bakı, 2007.
37. Y.Kərimov. Seçilmiş əsərləri. Pedaqogika, V cild. Bakı, 2007.
38. Z.Veysova. Fəal təlim metodları. Müəllimlər üçün vəsait. Bakı, 2007.
39. Reading/Language arts framework for California Public schools. Kindergarten Through Grade Twelve Published by the California Department of Education, 1999.
40. John S.Kendall and Marzano J. Robert, Content knowledge. A compendium of standards and benchmarks for K-12 Education, 1996.
41. Mary E. Haas and Margaret A. Laughlin, Meeting the standards Readings for K-6 Educators, 1999.
42. Virginia/USA Government Program of studies. Fairfax County Public Schools, 1998.
43. English language Arts Learning standards and Core curriculum. Pre K-Grade 5, 1999.
44. Stephanie Wasta, Teaching social studies, 2006.

45. NCSS Expectations of excellence: Curriculum standards for social studies (Bulletin 89) Washington, DC, 1999.
46. Montana office of public Instruction. Montana standards for social studies. Missoula, 2000.
47. History – social science framework for California Public schools. Edition with Criteria for Instructional Materials, Sacramento, 2005.
48. Science and Technology. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 1998.
49. The arts. The Ontario Curriculum – Exemplars Grades 2, 5 and 7. Ministry of Education of Ontario, 2004.
50. Native Languages. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2001.
51. Language. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2006.
52. Mathematics. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2005.
53. Health and Physical Education. The Ontario Curriculum. Grades 11-12. Ministry of Education of Ontario, 2000.
54. English As a Second Language and English Literacy Development. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 1999.
55. English. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2000.
56. Borich, G.D. Effective teaching methods. Upper Saddle River, 1996.
57. John U.Michaelis, Jesus Garcia, Social studies for children. A guied to basic instruction, 1996.
58. Peter Morterella, Candy M. Beal, Chearyl Mason Bolick, Teaching social studies in middle and secondry schools, Ohio, 2005.
59. Devine, Thomas G, Teaching studies skills, Boston, 1987.
60. Marzano, Robert J, Reading Diagnosis and İnstruction, 1987.
61. Wiseman Donna. L, Reading Instruction: A literature Based Approach /Englewood Cliffs, 1991.

## Buraxılış məlumatı

**AZƏRBAYCAN DİLİ 9**

*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2020-044)*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəllif **Sevil Cavadova**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner **Nurlan Nəhmətov**
Səhifələyici **Yeganə Rüstəmova**
Redaktor **Gültəkin Cəfərova**
Korrektorlar: **Aida Quliyeva**
**Nübar Qarayeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Nərgiz Cabbarlı**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 10,4. Fiziki çap vərəqi 12,5. Formatı 70x100$^{1}/_{16}$.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 200.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş_____. Tiraj 7427. Pulsuz. Bakı – 2020

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 18.06.2020**

Nəşriyyat:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid küç., 111)**

Çap məhsulunu istehsal edən:
**“Radius MMC” mətbəəsi**
**(Bakı şəhəri, Binəqədi şossesi, 53)**

Pulsuz